Xalqın qəzeti!

# Xalq qəzeti

№ 88 (30782) 2 may 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan iqtisadiyyatının ixrac potensialı yüksəlir

## Sumqayıt Kimya Sənaye Parkının dünya bazarına çıxışı genişlənir




**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 30-da Sumqayıt Kimya Sənaye Parkında "Kartaş Kimya" MMC-nin tikinti kimyəviləri zavodunun açılışında iştirak edərkən, dövlətimizin başçısına ölkəmizdəki sənaye zonaları və Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti barədə ətraflı məlumat verilib və hazırda respublikamızda 9 sənaye parkı və 4 sənaye məhəlləsinin fəaliyyət göstərdiyi bildirilib. Eyni zamanda, sənaye zonaları üzrə indiyədək ümumi investisiya həcminin 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verildiyi qeyd edilib.**

Bildirilib ki, sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən artıq daimi iş yeri yaradılıb. Ötən müddətdə sənaye zonaları tərəfindən 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,2 milyard manatlıq hissəsi ixrac edilib.

*(ardı 12-ci səhifədə)*

## "Politico"nun rəzillik "manifesti"

### Aİ ali nümayəndəsinin Bakı səfəri erməniləri qəzəbləndirib

**Görünür, xaricdəki erməni lobbi və diaspor təşkilatları Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallası cəzalandırmaq, ona təzyiq göstərmək qərarına gəliblər. Onların bunun üçün seçdikləri "gilyotin" isə "Politico" nəşri olub. Bəribaşdan deyək ki, media orqanının erməni "sifarişini" yerinə yetirmək üçün seçdiyi dəstxət son dərəcə primitivdir.**




Vəlvələdən, ya zəlzələdən dünya çapında özünə yer tapmış "Politico"nun "Avropa Qafqaza baxanda Azərbaycanın neft və qaz quyularını görür, amma Ermənistanın təhlükəsizliyini görməzlikdən gəlir" sərlövhəli məqaləsində müsahib kimi seçdiyi şəxslər o qədər sərsəm məsələləri və köhnə klişeləri gündəmə gətiriblər ki, heyrətlənməyə bilmirsən. Belə təəssürat yaranır ki, nəşr peşə prinsiplərini hay avantürasına qurban verməkdən həzz alır. Başqa sözlə desək, "Politico" üçün bəlli hədəf varsa, jurnalistika ilə bağlı bütün müqəddəslikləri ikinci plana ata bilər. Elə atır da. Media orqanının dəyərləri heçə saymaq baxımından ən böyük yarıtmazlığını isə sonda diqqətə çatdıracağıq.

Hələlik, ondan başlayaq ki, Ermənistan mediası, eləcə də teleqram kanalları "Politico"nun məqaləsini çox böyük həvəslə yayımlayıblar. Yayımlayanlar sırasında rəsmi İrəvana bağlı blogerlər üstünlük təşkil etməkdədir. Məqalənin məzmununa gəldikdə, yazı Böyük Britaniyanın Lordlar Palatasının üzvü, ölkənin Ermənistanla parlamentlərarası işçi qrupunun sədr müavini lord Mark Makİnnesin fikirləri ilə başlayıb.

*(ardı 4-cü səhifədə)*

## Ermənistan Xocalı soyqırımına görə üzr istəməlidir!




**"Biz Ermənistan və qondarma Dağlıq Qarabağ rejimi liderləri tərəfindən təşkil edilmiş Xocalı soyqırımını və Xocalı soyqırımının günahsız qurbanlarını unuda bilmərik və heç vaxt da unutmayacağıq. Bu xatirənin bizimlə olmağı vacibdir və biz onu ürəyimizdə saxlayacağıq". Prezident İlham Əliyev 2021-ci ilin aprelində ADA Universitetində keçirilmiş "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda belə deyib.**

Ümumən, dövlətimizin başçısı ayrı-ayrı çıxışlarında Xocalı faciəsinin Azərbaycan xalqına qarşı törədilmiş ən dəhşətli soyqırımı aktlarından biri olduğunu bildirib. Soyqırımının beynəlxalq səviyyədə tanınması üçün ardıcıl səylər göstərildiyini diqqətə çatdırıb, habelə hadisəni erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

*(ardı 8-ci səhifədə)*

## ŞKTR-yə dəstək, TDT-yə sadiqlik testi

### Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının Lefkoşa toplantısı bu məramı ifadə edib

**Dünən Şimali Kipr Türk Respublikasının (ŞKTR) paytaxtı Lefkoşa şəhərində TDT Ağsaqqallar Şurasının 17-ci iclası öz işinə başlayıb. Bu barədə məlumat yayan TRT-nin açıqlamasına görə, təşkilatın ağsaqqallar şurasının 17-ci iclasının ŞKTR-da keçirilməsi qərara alınıb. Bu da təsadüfi deyil. Çünki Şimali Kiprin müstəqilliyinin dünya birliyi tərəfindən tanınmasına Avropa İttifaqı tərəfindən göstərilən əks-cəhdlərin fonunda bu görüşün məhz Lefkoşada təşkil olunması gözlənilən idi. İndi ortada TDT üzvü olan bütün türk dövlətlərinin belə həssas məsələyə bir bucaq altında baxması, vahid siyasi platformadan çıxış edərək eyni mövqe sərgiləməsi kimi gözləntilər var.**

"Türkiyə" qəzetinin yazdığına görə, TDT Ağsaqqallar Şurasının budəfəki toplantısının gündəliyindəki əsas mövzu Avropa İttifaqının (Aİ) təşkilata qarşı apardığı mənfi siyasətinə qarşı düzgün strategiyanın müəyyənləşdirməsidir.

*(ardı 4-cü səhifədə)*

## Türkiyə və Macarıstanın Azərbaycan layihələri



Səhifə ⇨ 9

## BVF: Azərbaycanın bank sistemi maliyyə böhranına dözümlüdür



Səhifə ⇨ 11

# Ermənistan siyasi xaos girdabında

### *Hakimiyyət dəyişikliyi tələb edənlər bulaşmışlar və gözdən düşmüşlərdir*

**Hazırda Ermənistanda cərəyan edən siyasi, iqtisadi, hətta kriminal hadisələrin leytmotivini 2026-cı ildə keçiriləcək parlament seçkiləri təşkil edir. Bu tezis açıq bəyan edilməsə də, həm iqtidar, həm də müxalifət fəaliyyətlərini məhz seçkilərə istinadən qurmağa çalışır.**



Bu ölkədə iqtisadi tənəzzül, sosial problemlər bir yana, siyasi atmosfer təzyiqinin pik həddə çatması, hətta xaos əlamətləri görünməkdədir. Vəziyyət o dərəcədə gərgindir ki, heç kim – nə məmur, nə də vətəndaş öz hüquq və vəzifələrinin hüdudlarını bilir. Daşnak-revanşistlərin eks-liderlərin, Qarabağ klanının, saxta dini təəssübkeşlər kimi müxtəlif cəbhələrə bölünmüş müxaliflərin bir məsələdə hədəfləri eynidir. Cəmiyyət isə nə şovinistlərə, nə Koçaryan-Sarkisyan "cütlüy"ünə, nə də generalitetinə inanır. Bunu erməni mediası yazır. Üzdə özlərini müttəfiq kimi göstərən həmin müxalif düşərgə xorla hakimiyyətin dəyişilməsi zərurətindən dəm vurur. Bu mövzuda danışan, çıxış edən, rəy paylaşanlar da kifayər qədərdir. İndi Ermənistanda, az qala, hər kəs özünü politoloq, hərbi-siyasi məsələlər üzrə mütəxəssis kimi aparır. Sosial şəbəkə fəalları, blogerlər öz aralarında Hayastanın hansı siyasi vektoru seçməli olduğu, Qərblə və Şərqlə necə danışıqlar aparmağı, qonşuları ilə hansı münasibətləri qurmağı ətrafında diskussiya açırlar.

*(ardı 8-ci səhifədə)*

## "3+3": Cənubi Qafqazda yeni regional siyasətin konturları




Səhifə ⇨ 9

## Hindistanın təhdidləri Pakistanla qarşıdurmanı gərginləşdirir



Səhifə ⇨ 15

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.9-cu bənd üzrə:

1.1.1. 1.9.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.9.3. Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;";

1.1.2. aşağıdakı məzmunda 1.9.9-7-ci yarımbənd əlavə edilsin:

"1.9.9-7. Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi;";

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1.1–2.1.8-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1.1. inzibati vəzifələrin ali təsnifatı:

2.1.1.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

2.1.1.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi;

2.1.1.3. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, Azərbaycan Respublikası Xüsusi Tibb Xidmətinin rəisi, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi;

2.1.1.4. Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri;

2.1.1.5. Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri;

2.1.1.6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi aparatlarının rəhbərləri;

2.1.2. inzibati vəzifələrin birinci təsnifatı:

2.1.2.1. Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;

2.1.2.2. Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

2.1.2.3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri;

2.1.2.4. Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi;

2.1.2.5. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi;

2.1.2.6. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;

2.1.2.7. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi;

2.1.2.8. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;

2.1.2.9. Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi;

2.1.2.10. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini;

2.1.2.11. Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi;

2.1.2.12. Azərbaycan Respublikası vitse-prezidentinin köməkçisi;

2.1.2.13. Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin, Azərbaycan Respublikası Xüsusi Tibb Xidməti rəisinin birinci müavinləri və müavinləri, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin müavini;

2.1.2.14. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini;

2.1.2.15. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin birinci müavini və müavini;

2.1.2.16. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini;

2.1.2.17. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;

2.1.2.18. Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinin müavini;

2.1.2.19. Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi;

2.1.2.20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında şöbə müdiri;

2.1.2.21. Azərbaycan Respublikası Nazirlər Kabineti Mətbuat xidmətinin rəhbəri;

2.1.2.22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri;

2.1.2.23. Azərbaycan Respublikası Milli Məclisi Aparatı rəhbərinin müavini;

2.1.2.24. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında şöbə müdiri;

2.1.2.25. Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri;

2.1.2.26. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi aparatları rəhbərlərinin müavinləri;

2.1.2.27. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında şöbə müdiri;

2.1.2.28. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin işlər müdirləri;

2.1.2.29. Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Respublikası Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) aparatlarının rəhbərləri;

2.1.3. inzibati vəzifələrin ikinci təsnifatı:

2.1.3.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin köməkçisi;

2.1.3.2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində şöbə müdirləri və onların müavinləri, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində şöbə müdiri;

2.1.3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında şöbə müdirinin müavini;

2.1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabineti Mətbuat xidməti rəhbərinin müavini;

2.1.3.5. Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər müdirinin müavini;

2.1.3.6. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında şöbə müdirinin müavini;

2.1.3.7. Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdirinin müavini;

2.1.3.8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi aparatlarında şöbə müdirinin müavini;

2.1.3.9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi işlər müdirlərinin müavinləri;

2.1.3.10. Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Azərbaycan Respublikası Hesablama Palatası, Məhkəmə-Hüquq Şurası və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) aparatları rəhbərlərinin müavinləri və həmin orqanların aparatlarında şöbə müdirləri;

2.1.3.11. Azərbaycan Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

2.1.3.12. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müşaviri, köməkçisi;

2.1.3.13. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi sədrlərinin müşavirləri, köməkçiləri;

2.1.3.14. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) aparatlarının rəhbərləri;

2.1.3.15. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müşaviri, köməkçisi;

2.1.3.16. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəhbərləri;

2.1.3.17. Azərbaycan Respublikasının xarici ölkədə ticarət nümayəndəsi;

2.1.3.18. Bakı Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini və müavini;

2.1.4. inzibati vəzifələrin üçüncü təsnifatı:

2.1.4.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.3. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası Prezidenti İşlər müdirinin və Azərbaycan Respublikası Xüsusi Tibb Xidməti rəisinin köməkçiləri;

2.1.4.5. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.6. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatın rəhbəri, onun müavini, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Sarayının təminatı şöbəsində və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdirinin köməkçisi;

2.1.4.9. Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı rəhbərinin köməkçisi;

2.1.4.10. Azərbaycan Respublikası Baş naziri müavininin köməkçisi;

2.1.4.11. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.12. Azərbaycan Respublikası Milli Məclisi Aparatı rəhbərinin köməkçisi;

2.1.4.13. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin köməkçisi;

2.1.4.14. Azərbaycan Respublikası Milli Məclisi İşlər müdirinin köməkçisi;

2.1.4.15. Azərbaycan Respublikası Milli Məclisinin İşlər İdarəsində şöbə müdiri və şöbə müdirinin müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.16. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

2.1.4.17. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatı rəhbərinin köməkçisi;

2.1.4.18. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri və şöbə müdirinin müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.4.19. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda şöbə müdirinin müavini;

2.1.4.20. Azərbaycan Respublikası apellyasiya məhkəmələri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları və onlara bərabər tutulan orqanlar, Azərbaycan Respublikası Audiovizual Şurası aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin rəhbərləri və onların müavinləri;

2.1.4.21. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

2.1.4.22. Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri;

2.1.4.23. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) aparatları rəhbərlərinin müavinləri və onların aparatlarında şöbə müdirləri, Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda şöbə müdiri;

2.1.4.24. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəhbərlərinin müavinləri;

2.1.4.25. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri (bu Təsnifat Toplusunun 2.1.3.16-cı abzası nəzərə alınmaqla);

2.1.4.26. Azərbaycan Respublikası Hesablama Palatası sədrinin və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müşavirləri, köməkçiləri;

2.1.5. inzibati vəzifələrin dördüncü təsnifatı:

2.1.5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Azərbaycan Respublikası Hesablama Palatasının, Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.5.2. Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Bakı Şəhər İcra Hakimiyyəti başçısının, Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində şöbə müdirləri və onların müavinləri;

2.1.5.3. Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda şöbə müdiri;

2.1.5.4. Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi rəhbərinin müavini;

2.1.5.5. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri (bu Təsnifat Toplusunun 2.1.4.24-cü abzası nəzərə alınmaqla);

2.1.5.6. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarının rəhbərləri və onların müavinləri;

2.1.5.7. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) aparatlarında şöbə müdirlərinin müavinləri;

2.1.5.8. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların rəhbərlərinin müşavirləri, köməkçiləri;

2.1.5.9. Bakı Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi və müşaviri;

2.1.5.10. Azərbaycan Respublikası Audiovizual Şurası sədrinin köməkçisi;

2.1.5.11. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

2.1.5.12. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzinin rəhbəri və onun müavini;

2.1.5.13. yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçısının birinci müavini və müavini;

2.1.6. inzibati vəzifələrin beşinci təsnifatı:

2.1.6.1. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

2.1.6.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatında, Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda və Naxçıvan Muxtar Respublikasının Prokurorluğunda, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların, Bakı Şəhər İcra Hakimiyyəti başçısının, Azərbaycan Respublikası Audiovizual Şurasının aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyində, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.6.3. Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

2.1.6.4. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin və Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) köməkçiləri;

2.1.6.5. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müşavirləri, köməkçiləri;

2.1.6.6. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları aparatlarının rəhbərləri;

2.1.6.7. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinin, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının, ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin, hərbi məhkəmələrin aparatlarında şöbə müdiri və onun müavini, Bakı Şəhər Prokurorluğunda şöbə müdiri;

2.1.6.8. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin rəhbərləri və onların müavinləri;

2.1.6.9. Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin köməkçiləri;

2.1.6.10. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanların rəhbərləri;

2.1.7. inzibati vəzifələrin altıncı təsnifatı:

2.1.7.1. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinin aparatlarında, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzlərində, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasında, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.7.2. ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin, hərbi məhkəmələrin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi, Bakı Şəhər Prokurorluğunda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.7.3. Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının Naxçıvan Muxtar Respublikası üzrə idarələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.7.4. yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında şöbə müdiri və onun müavini;

2.1.7.5. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanların rəhbərlərinin müavinləri;

2.1.7.6. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinləri;

2.1.8. inzibati vəzifələrin yeddinci təsnifatı:

2.1.8.1. yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçılarının aparatlarında, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrində, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda, rayon (şəhər) prokurorluqlarında və hərbi prokurorluqlarında, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatlarında, Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan orqanlarda, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələrində sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

2.1.8.2. rayon (şəhər) məhkəmələrinin aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi;

2.1.8.3. yerli icra hakimiyyəti (Bakı Şəhər İcra Hakimiyyəti istisna olmaqla) başçısının köməkçisi;

2.1.8.4. yerli icra hakimiyyəti başçılarının yanında olan orqanların rəhbərləri, onların müavinləri və həmin orqanlarda sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, yerli icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələri, onların müavinləri və baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;";

1.2.2. 2.3.3-cü yarımbəndin 1-ci abzasından ", Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının" sözləri çıxarılsın;

1.2.3. 2.3-1-ci bənddə "2.1.4-cü, 2.1.5-ci, 2.1.6-cı və 2.3.3-cü yarımbəndlərində" sözləri "2.1.4.20-ci, 2.1.5.2-ci, 2.1.5.8-ci, 2.1.6.2-ci abzaslarında və 2.3.3-cü yarımbəndində" sözləri ilə əvəz edilsin.

**2.** "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli və 19 mart tarixli 356 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 – "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 5-ci hissəsinə "Katibliyinin rəisi," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri," sözləri, "Administrasiyasında şöbə müdirləri" sözlərindən sonra "və onların müavinləri" sözləri əlavə olunsun və həmin hissədə "nümayəndələri" sözü "tapşırıqlar üzrə nümayəndəsi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi və onun müavini, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 2 – "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 2-ci hissəsindən "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin müavinləri," və "şöbə müdirinin müavinləri," sözləri çıxarılsın;

2.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə 3 – "Mobil xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 5-ci hissəsinə "Katibliyinin rəisi," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri," sözləri, "şöbə müdirləri" sözlərindən sonra "və onların müavinləri" sözləri əlavə olunsun və həmin hissədə "nümayəndələri" sözü "tapşırıqlar üzrə nümayəndəsi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi və onun müavini, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 208 (Cild I); 2024, № 5 (I kitab), maddə 566) ilə təsdiq edilmiş "Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısı"nın 2-ci və 3-cü hissələrinin "Rəhbər işçinin vəzifəsi" sütunu aşağıdakı redaksiyada verilsin:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, Azərbaycan Respublikası Xüsusi Tibb Xidmətinin rəisi, Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri və ya ona bərabər tutulan digər struktur bölmə rəhbəri, Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyi rəisinin müavini, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi, Azərbaycan Respublikası vitse-prezidentinin köməkçisi, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin, Azərbaycan Respublikası Prezidenti İşlər müdirinin, Azərbaycan Respublikası Xüsusi Tibb Xidməti rəisinin müavinləri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdirinin və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin birinci müavini və müavinləri, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin, Azərbaycan Respublikası Xüsusi Tibb Xidmətinin və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətinin şöbə müdirləri

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 may 2025-ci il**

## “Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” 2018-ci il 13 mart tarixli 3787 nömrəli, “Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi və Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” 2018-ci il 13 mart tarixli 3787 nömrəli, “Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” 2019-cu il 18 iyun tarixli 1268 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 mart tarixli 1611 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 199 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Fərmana 1 nömrəli Əlavə – “Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində qulluq keçən dövlət qulluqçularının aylıq vəzifə maaşları”nın 1-ci hissəsi üzrə:

1.1.1. 1.6-cı bəndə “xüsusi nümayəndəsi” sözlərindən sonra “, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi” sözləri əlavə edilsin;

1.1.2. 1.8-ci bəndə “rəisinin müavini” sözlərindən sonra “, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini” sözləri əlavə edilsin;

1.1.3. 1.9-cu bənddən “Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini,” sözləri çıxarılsın;

1.2. həmin Fərmana 2 nömrəli Əlavə – “Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları”nın 1-ci hissəsi üzrə:

1.2.1. 1.2.5-ci yarımbənddən “Azərbaycan Respublikası Milli Məclisi sədrinin müşaviri, Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi,” və “Azərbaycan Respublikası Baş nazirinin köməkçisi, Azərbaycan Respublikası Baş nazirinin müşaviri,” sözləri çıxarılsın;

1.2.2. 1.2.7-ci yarımbənddə “2425” rəqəmləri “2435” rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 1.2.8-ci yarımbənddən “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin müşaviri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin köməkçisi,”, “, Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin müşaviri, Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin köməkçisi” sözləri çıxarılsın və həmin yarımbənddə “2410” rəqəmləri “2425” rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 1.3.1–1.3.9-cu yarımbəndlər müvafiq olaraq 1.3.2–1.3.10-cu yarımbəndlər hesab olunsun və aşağıdakı məzmunda 1.3.1-ci yarımbənd əlavə edilsin:

1.3.1.Azərbaycan Respublikası Milli Məclisi sədrinin müşaviri, Azərbaycan Respublikası Milli Məclisi sədrinin köməkçisi, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi, Azərbaycan Respublikası Baş nazirinin müşaviri 2425

1.2.5. 1.3.2-ci yarımbəndə ikinci halda “rəhbərinin müavini” sözlərindən sonra “, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin müşaviri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin köməkçisi, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müşaviri, Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin köməkçisi” sözləri əlavə edilsin;

1.2.6. 1.3.7-ci yarımbənddən “, Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçisi, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin köməkçisi” sözləri çıxarılsın;

1.2.7. 1.3.10-cu yarımbəndə “yaradılan” sözündən sonra “, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən” sözləri əlavə edilsin;

1.2.8. 1.4.1-ci yarımbəndə “(ombudsmanın) müşaviri” sözlərindən sonra “, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin köməkçisi, Azərbaycan Respublikası Baş nazirinin müavininin köməkçisi, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri (bu Əlavənin 1.3.10-cu yarımbəndi nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

1.2.9. 1.4.24-cü yarımbəndə “yaradılan” sözündən sonra “, rəhbəri və rəhbərinin müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən” sözləri əlavə edilsin;

1.2.10. 1.5.1-ci yarımbəndə “baş mühasib” sözlərindən sonra “, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətləri rəhbərlərinin müavinləri (bu Əlavənin 1.4.24-cü yarımbəndi nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

**2** Bu Fərmanla dövlət qulluqçuları üçün müəyyən edilən vəzifə maaşları mövcud vəzifə maaşlarından az olduğu hallarda, dövlət orqanlarında qulluq keçən dövlət qulluqçularına həmin orqanlarda və həmin vəzifələrdə işlədikləri dövr ərzində, əvvəlki və sonrakı vəzifə maaşlarının və qanunvericiliklə vəzifə maaşlarına faizlə müəyyən edilən əlavələrin fərqi vəzifə maaşlarının növbəti artımınadək ödənilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 may 2025-ci il**

## K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamran Bayram oğlu Əliyev Azərbaycan Respublikasının Baş prokuroru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 may 2025-ci il**

## Qusar rayonunun Quxuroba–Hiloba–Yasaoba–Əniqoba–Aşağı İmamqulukənd–Şirvanlı avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Beş min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Quxuroba–Hiloba–Yasaoba–Əniqoba–Aşağı İmamqulukənd–Şirvanlı avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 may 2025-ci il**

## K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 11-ci bəndinə və 133-cü maddəsinin III hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1** Kamran Bayram oğlu Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

**2** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin sədri***

**Bakı şəhəri, 1 may 2025-ci il**

## Koordinasiya Şurasının iclası

**Nazirlər Kabinetinin 2023-cü il 23 dekabr tarixli 451 nömrəli Qərarı əsasında yaradılmış Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının mayın 1-də növbəti iclası keçirilib.**



Nazirlər Kabinetindən bildiriblər ki, Baş nazirin müavini, Koordinasiya Şurasının sədri Samir Şərifov iclası açaraq Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”ndan irəli gələn vəzifələrin icrası çərçivəsində Şura tərəfindən 2024-cü ildə görülmüş işlərin təhlil edilməsinin zəruriliyini bildirib, bu tədbirlərin icrasının ölkənin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin daha effektiv olmasına zəmin hazırlayacağını qeyd edib. Eyni zamanda, Şura sədri Avropa Şurası MONEYVAL Komitəsi tərəfindən tərəqqi hesabatı sorğusunun göndərildiyini və hesabatın uğurla tamamlanmasının önəmini xüsusi olaraq vurğulayıb.

İclasda Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadənin Milli Fəaliyyət Planında 2024-cü il üzrə nəzərdə tutulmuş tapşırıqların icrasına dair hesabatı, həmçinin Ədliyyə Nazirliyi, Baş Prokurorluq, Mərkəzi Bank və Dövlət Vergi Xidmətinin nümayəndələrinin görülmüş işlərin cari vəziyyəti barədə məlumatları dinlənilib, eyni zamanda, Avropa Şurası MONEYVAL Komitəsinin cari ildə aparacağı tərəqqi qiymətləndirməyə hazırlıq vəziyyəti və digər məsələlər geniş müzakirə olunub.

İclasın yekunu olaraq Milli Fəaliyyət Planının 2024-cü il üzrə icrası vəziyyəti barədə hesabatın Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməsi barədə razılıq əldə olunmuş, habelə MONEYVAL tərəqqi hesabatının təqdim olunmasına hazırlıq məqsədilə atılmalı olan növbəti addımlar müəyyənləşdirilib və digər qərarlar qəbul edilib.

***XQ***

## Azərbaycan Hindistan–Pakistan qarşıdurmasından narahatdır

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Hindistanla Pakistan arasındakı gərginliyə dair bəyanat yayıb.**



Bəyanatda deyilir: “Pahalqamdakı hücumdan sonra Hindistan və Pakistan arasında mövcud gərginlikdən narahatıq. Biz təmkinli olmağa və mövcud gərginliyi aradan qaldırmaq üçün konstruktiv dialoqa çağırırıq. Belə qeyri-sabit vəziyyətdə birtərəfli hərəkətlərdən çəkinmək vacibdir.

Bundan əlavə, hazırkı vəziyyəti həll etmək üçün açıq və şəffaf beynəlxalq araşdırma aparılacağına ümid edirik. Münaqişənin həlli üçün yolun beynəlxalq hüququn norma və prinsipləri, habelə Birləşmiş Millətlər Təşkilatının müvafiq qətnamələri əsasında mənalı dialoqun və danışıqların olduğuna inanırıq.

Regional sabitlikdə ortaq və qarşılıqlı marağı qəbul edərək, ümid edirik ki, tərəflər öz xalqlarının və daha geniş regionun rifahının qorunması üçün, sülh və əməkdaşlıq naminə diplomatik kanallardan istifadə edəcəklər”.

***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 142** **Bakı şəhəri, 29 aprel 2025-ci il**

**Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Sahibsiz Heyvanlara Qayğı Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 2.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Sahibsiz Heyvanlara Qayğı Mərkəzi” (bundan sonra – Mərkəz) publik hüquqi şəxs yaradılsın.

**2** “Sahibsiz Heyvanlara Qayğı Mərkəzi” publik hüquqi şəxsin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**3.** “Sahibsiz Heyvanlara Qayğı Mərkəzi” publik hüquqi şəxsin strukturu” təsdiq edilsin (əlavə olunur).

**4.** Müəyyən edilsin ki:

4.1. bu Qərarın 1-ci hissəsi ilə yaradılan Mərkəz sahibsiz heyvanlara qayğı göstərilməsi və onların uçotunun aparılması sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

4.2. Mərkəzin nizamnamə fondu 2.000.000 (iki milyon) manat təşkil edir və Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsinin balansında olan əsas vəsaitlər hesabına formalaşır.

**5** Bu Qərarın 1-ci hissəsi ilə yaradılan Mərkəzin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

5.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

5.1.1. Mərkəzin Nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

5.1.2. Mərkəzin strukturunun təsdiq edilməsi;

5.1.3. Mərkəzin idarəetmə orqanlarının yaradılması;

5.1.4. Mərkəzin idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

5.1.5. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Mərkəzin ləğvi və yenidən təşkili;

5.2. Bakı Şəhər İcra Hakimiyyətinə:

5.2.1. bu Qərarın 5.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**6** Bakı Şəhər İcra Hakimiyyəti:

6.1. Mərkəzin dövlət qeydiyyatına alınması üçün bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin və Mərkəz dövlət qeydiyyatına alındığı tarixdən 1 (bir) gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

6.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Mərkəzin dövlət qeydiyyatına alındığı gündən 1 (bir) ay müddətində Bakı Şəhər İcra Hakimiyyətinin aidiyyəti qurumunun balansında olan dövlət əmlakının Mərkəzin balansına verilməsi üçün zəruri tədbirlər görsün;

6.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, dövlət büdcəsindən dövlət sifarişi əsasında ayrılacaq məqsədli vəsaitin ödənilməsi üçün Mərkəzlə müqavilə bağlanılmasını təmin etsin;

6.4. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**7** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Mərkəzin fəaliyyətinin təmin edilməsi üçün tələb olunan xərclərin cari ilin dövlət büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş müvafiq vəsait hesabına maliyyələşdirilməsi məqsədilə zəruri tədbirlər görsün.

**8** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# “Politico”nun rəzillik “manifesti”

(əvvəli 1-ci səhifədə)

Əslində, britaniyalı parlamentarinin bildirdikləri “Politico”ya verilmiş “sifarişin” nədən qaynaqlandığını aşkara çıxarır. “24 aprel tarixində bütün dünyadakı ermənilər 1915-ci il soyqırımı zamanı qətlə yetirilən 1,5 milyon (?) insanın xatirəsini yad etdilər. Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallas isə soyqırımının ildönümümün ertəsi günü Azərbaycana səfərə yollanmağı seçdi, Ermənistanı kənarda qoydu. Ermənistan vətəndaşları İrəvanda soyqırımı qurbanların xatirəsini yad etdikləri bir vaxtda, yüksək səviyyəli Avropa diplomatının Bakıda kameralara gülümsəməsinin nə mənası var? Kallasın belə vacib gündə Azərbaycana üstünlük verməsi lazım idi?”, – deyə ritorik suallar ünvanlayan lord Makİnnes əlavə edib ki, Avropa Parlamentinin deputatları da Aİ rəsmisinin səfərindən narazılıqlarını bildiriblər.

Əlbəttə, AP deputatlarının erməniпərəst sifarişləri yerinə yetirdikləri məlumdur və qurumun Azərbaycan əleyhinə çıxardığı çoxsaylı qərəzli qətnamələr bunun sübutudur. Yəni, yaxşı olar ki, britaniyalı parlamentari “arqumentini əsaslandırmaq” üçün başqa mətləbə toxuna, AP-nin narkotik alüdəçiləri, alkoqolik və məişət pozğunu deputatlarının mövqeyindən daha tutarlı nə isə tapaydı. Hərçənd, onun “tapdığı” başqa mətləblər yox deyil.

Azərbaycanı təcavüzkar dövlət kimi qələmə verən lord Makİnnesin sözlərindən belə çıxıb ki, ölkəmizin 2020-ci ildə öz torpaqlarının azadlığı uğrunda apardığı mübaribə işğalçılıq mahiyyəti daşıyırmış. Sən demə, Aİ Azərbaycanla əməkdaşlıq qurmaqla, “Qarabağın ermənisizləşdirilməsi kimi himanitar fəlakətə göz yummaqla”, habelə Avropanın Rusiya qazından imtinaya çalışdığı bir vaxtda Azərbaycanı arzuolunan tərəfdaşa çevirməklə, 2022-ci ildə Bakı ilə enerji sahəsində mühüm saziş imzalayıb qaz idxalını ikiqat artırmaqla, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen isə Azərbaycanı “etibarlı təchizatçı” adlandırmaqla böyük səhvə yol veribmiş. “Görünür, Avropa Cənubi Qafqaza baxanda Azərbaycanın neft və qaz quyularını görür, amma Ermənistanın demokratiyasını və təhlükəsizliyini görməzdən gəlir”, – deyən britaniyalı deputatın sözündən çıxan nəticə belədir: ermənilərə görə avropalılar soyuqdan donmalı imişlər. Deməli, K.Kallasın “günahının” nədən ibarət olduğu müəyyənləşdi.

Hər bir halda, Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayırdı. Xanım diplomatın Bakıya səfəri isə adi məsələ deyil. Avropa, daha doğrusu, Aİ Bakının Pekinlə yaxınlıq trayektoriyasını görür. O da görünür ki, Prezident İlham Əliyevin Çinə səfəri və səfər çərçivəsində əldə olunmuş razılaşmalar “köhnə qitə”-ni hərəkətə gətirib. Şübhəsiz, Azərbaycan-Çin münasibətlərindəki yeni dinamik təzahürlərin nəzərə çarpması Aİ-nin ölkəmizə münasibətində də fərqli mənzərənin formalaşması reallığını doğuracaq. Bunu Ermənistan rəhbərliyi və onun havadarları yaxşı bilirlər.




Digər tərəfdən, bir qayda olaraq, Avropanın təmsilçiləri Cənubi Qafqaz turnesinə Azərbaycandan yox, ya Gürcüstandan, ya da Ermənistandan başlayırlar. Görünür, Kallasın Bakını seçməsi də erməni lobbi və diaspor təşkilatlarını “hərəkətə gətirib”. Yəni, mövcud müstəvidə ənənəvi stereotiplərin sıradan çıxmasından duyulan əndişə var. Elə “Politico”nun məqaləsi də böyük ölçüdə Azərbaycanın beynəlxalq uğurlarının yaratdığı narahatlıq və təşvişin məhsuludur. Əlbəttə ki, zay məhsulu.

Nə isə, “Politico”nun erməni sifarişini yerinə yetirmək üçün üz tutduğu ikinci şəxs Almaniya Bundestaqının keçmiş üzvü Maykl Rotdur. M.Rot da həmişə Ermənistanın təhlükəsizliyini dəstəkləyən mövqe nümayiş etdirir. Onun “Azərbaycanda saxlanılan erməni məhbuslar” cəfəngiyyatına dair, həmçinin “Ermənistan demokratiyasının” müdafiəsinə və ölkənin Aİ ilə əlaqələrinin möhkəmləndirilməsinə yönələn baxışları məlumdur. Yəni, cənab Rot lord Makİnnesdən fərqli olaraq, rəsmi İrəvanın qurumla əməkdaşlığının dərinləşməsi zərurətini yalnız erməni təəssüblü “arqument” kimi önə çəkmir. Çünki sabiq parlamentarinin mənsub olduğu ölkənin Aİ-yə birbaşa bağlılığı var. Bu səbəbdən o, Avropa siyasi kluarlarının sərsəmləmələrini təkrarlamaq baxımından daha “səriştəlidir”. Rotun dedikləri isə həm də budur: Guya, Ermənistan demokratik, Azərbaycan avtoritar imiş və birincini dəstəkləmək lazımdır, haylar Avropa dəyərlərini qoruyurlar, Aİ-yə yaxınlaşmaq xətti tuturlar və sair ilaxır.

“Politico”nun təqdimatında ağlaşma quran fransız parlamentari İzabel Santyaqodur. Qeyd edək ki, xanım Santyaqo köhnə erməniпərəstlərdəndir. O, 2023-cü ilin yanvarında Qarabağın erməni sakinlərinin “Azərbaycan tərəfindən blokadada saxlanıldığını” iddia etmiş, bu vəziyyəti “utancverici” adlandırmış və beynəlxalq ictimaiyyəti tezliklə hərəkətə keçməyə çağırmışdı. İ.Santyaqo Fransa – Ermənistan dostluq qrupunun üzvü kimi, Ermənistanla parlamentlərarası əməkdaşlığın gücləndirilməsi istiqamətində fəaliyyət göstərmiş, həmçinin ötən ilin oktyabrında Parisdə keçirilmiş görüşlərdə “Azərbaycanda saxlanılan erməni əsirlər” cəfəngiyyatını gündəmə gətirərək, onların həbsdən azad olunmalarını insan hüquqlarının təminatı baxımından “əsaslandırmışdı”.

Beləliklə, fransız deputat K.Kallasın məhz qondarma “erməni soyqırımı”ndan bir gün sonra Bakıya yollanmasını biabırçı durum kimi qələmə verib, ikincinin səfərinin Ermənistanla Aİ arasındakı münasibətlərə zərər verə biləcəyini vurğulayıb: “Əzab çəkən erməni məhbusları Bakı həbsxanalarında olduğu halda, Avropa İttifaqının yüksək nümayəndəsinin 25 aprel tarixində Azərbaycana getməsi şokedicidir”.

Ümumən, “Politico”nun məqaləsində Ermənistanın şəninə tərif yağdırılıb. Guya, son səkkiz ildə ölkədə demokratik rennesans yaşanırmış, korrupsiyaya qarşı amansız mübarizə aparılırmış, haylar öz gələcəklərini Avropa ilə bağlamaqda israrlı imişlər, Baş nazir Nikol Paşinyan hakimiyyətə Avropa dəyərlərinə sadiq qaldığı üçün gəlibmiş, Ermənistan Avropanın gözlədiyi hər şeyi edirmiş, usanmadan Qərbə yönəlirmiş. Məqalə müəllifinin sözlərindən gəlinən ən böyük nəticə budur ki, hazırda Ermənistanda Aİ-nin müşahidə missiyası fəaliyyət göstərir və belə bir missiyanın mövcudluğu rəsmi İrəvanın Rusiya ilə məsafə qoyması, Qərblə daha dərin tərəfdaşlıq əlaqələri qurmaq məqsədindən qaynaqlanır. Ortada təxminən belə bir subliminal mesaj var: Ermənistan Avropa naminə çalışır, “köhnə qitə” ona xəyanət yolu tutur.

Yəqin, necə bir bəsit mahiyyətli minnətin qoyulduğunun fərqinə vardınız və bu məqamın üzərində dayanmağa ehtiyac var. Qeyd edək ki, Rusiya rəsmiləri, adətən, Aİ-nin Azərbaycan – Ermənistan şərti sərhədində keşik çəkən mülki müşahidə missiyasını Cənubi Qafqazda təxribat yaratmaq, Kremlin regiondakı təsirini heçə endirmək vasitəsi kimi gördüklərini vurğulayırlar. Paşinyan administrasiyası isə bunun əksini iddia edir və bildirir ki, sözügedən təsisat anti-Rusiya mahiyyəti daşımır. Ancaq “Politico” qoyduğu minnətlə Ermənistan rəhbərliyinin yalanını üzə çıxarır, özü də fərqinə varmadan həqiqəti açıqlayır.

Deməli, hər şey aydındır. Ancaq məsələnin digər tərəfi də var. Göründüyü kimi, xaricdəki erməniпərəst dairələr öz maraqları naminə Ermənistanı, necə deyərlər, əjdahanın ağzına atmağa hazırdırlar. Onlar “Politico”ya daşıdıqları minnət ritorikası ilə Ermənistanın özünü balanslı siyasət aparan ölkə kimi göstərmək cəhdlərini heçə endirirlər. Belə qənaət formalaşır ki, üç gün əvvəl baş nazir N.Paşinyanın Estoniyada ölkəsinin, guya, Rusiya ilə əlaqələri kəsmək istəmədiyinə dair bildirdikləri yalnız gözdən pərdə asmaqdır.

Nəhayət, onu da diqqətə çatdıraq ki, “Politico”nun sözügedən məqaləsində fikirlərinə yer verdiyi ən qızğın erməniпərəst Avropa Parlamentinin Fransadan olan üzvü Natali Luazodur. Güman edirik, xanım Luazonun hay təəssüblü həyasızlığının ayrı-ayrı detallarını vurğulamağa, onun çirkin anti-Azərbaycan niyyətinin müxtəlif təzahür formalarına nəzər salmağa ehtiyac yoxdur. Təkcə onu deyək ki, fransız parlamentari “qonşusuna təhdidi davam etdirdiyi bir zamanda avtoritarizmlə əlaqə qurmaq və Ermənistana getməmək səhvdir. Bakı Aİ-yə üzv olmaq məqsədini prioritet sayan İrəvana müdaxiləyə yol verir və Rusiyanın tərəfində dayanır. Halbuki, demokratik Ermənistan Avropaya yönəlir” kimi fikirlər səsləndirib. Əlbəttə, Luazonun Azərbaycanın, guya, Rusiyanın tərəfində dayanması iddiası erməniпərəstlərin klassik anti-Azərbaycan tezislərinin ən mühümüdür. Bu tezisin cəfəng mahiyyət daşıdığının da sübuta ehtiyacı yoxdur. Çünki zaman-zaman nəzərə çarpan, hətta kəskin xarakter alan Bakı-Moskva gərginlikləri yaxın tariximizin yaşantılarıdır.

Sonda əvvəldə anons etdiyimiz kimi, “Politico”nun ən yarıtmaz hesab etdiyimiz əməlindən söz açaq. Ümumən, nəşrin məqaləsindən anlaşılan budur ki, Aİ rəsmisi K.Kallasın ancaq Azərbaycana səfəri nəzərdə tutulurmuş. Yəni, diplomatın Ermənistana getməsi planlaşdırılmırmış. Ona görə “Politico”da qondarma “erməni soyqırımı” məsələsində saxta sentimentallığa, ucuz populizmə üstünlük verilib. Ancaq məlumdur ki, xanım Kallas Ermənistana da gedib. Yəqin, məhz buna görədir ki, nəşr yayımladığı məqaləni silib. Hazırda yazı onun internet səhifəsində yoxdur. Kallas İrəvana yollanıbsa, belə qənaətə gəlmək mümkündür ki, erməniпərəstlərin Aİ-yə təsiri nəticəsini verib. Özü də bu təsir o qədər ciddi olub ki, qurumun ali nümayəndəsi İrəvanda Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü Emmanuel Fraqkosun təxribatçı suallarını cavablandırarkən qondarma “siyasi məhbuslar”, “erməni əsirləri” kimi ifadələr işlədib, qanunun aliliyi, insan haqları mövzusunda erməniпərəstlərin ənənəvi anti-Azərbaycan mahiyyətli tezisləri üzərində dayanıb.

Əlbəttə, K.Kallası erməniпərəst ünsürün sualı qarşısında yenik düşməsinə görə qınamaq fikrindən uzağıq. Ən azından ona görə ki, onu özündən əvvəl Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi vəzifəsini tutmuş Jozef Borrell kimi erməni təəssübünü bütün sivil dəyərlərdən üstün tutan biri olaraq təsəvvürə gətirmək istəmirik. Üstəlik, erməniпərəstlərin Avropa diplomatiyasına təsirlərindən xəbərdarıq. Xanım Kallası tutduğu vəzifədə qarşıda daha böyük işlərin gözlədiyini də bilirik. Ümid edirik ki, o, qətiyyətli və prinsipial davranmağı öyrənəcək. Prinsipiallıqdan söz düşmüşkən isə “Politico”nun hansısa kənar təsirlərə məruz qalaraq məqalə yayımlaması və sonra həmin məqaləni silməsi jurnalist etikasından uzaq son dərəcə miskin mənzərədir. Yaxşı olar ki, dünyaca məşhur olan media orqanı öz nüfuzunu erməniпərəstlik naminə satışa çıxarmaqdan və xərcləməkdən çəkinsin. Nəzərə alaq ki, hər miskinlikdə, eyni zamanda, rəzillik payı da var.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# ŞKTR-yə dəstək, TDT-yə sadiqlik testi

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, cari il aprelin 3-4-də Özbəkistanın Səmərqənd şəhərində Aİ–Mərkəzi Asiya Sammiti keçirildi. Sammitin tərəflər arasında yeni strateji tərəfdaşlığın başlanğıcını qoyduğu deyildi. Bu zaman əsas diqqət yetirilən məsələlərin ticarət, nəqliyyat, enerji, rəqəmsal kommunikasiyalar və su ehtiyatlarının idarə olunması sahələrində əməkdaşlıqla bağlı olduğu qeyd edildi. Aİ–Mərkəzi Asiya əməkdaşlığının genişləndirilməsi faktını sürətlə dəyişən beynəlxalq vəziyyət və artan qeyri-sabitlik şəraitində beynəlxalq ictimaiyyət normal qarşıladı. Amma qarşılıqlı fəaliyyətin və əməkdaşlığın elə aspektləri də var ki, bunlar TDT-nin müəyyənləşdirdiyi təməl prinsiplərlə heç də üst-üstə düşmür. Söhbət TDT-nin son iki sammitində müşahidəçi qismində iştirak edən ŞKTR-in dövlət quruluşuna, özəl maraqlarına toxunan məqamlardan gedir.

Səmərqənd Sammitində Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan liderləri ilə yanaşı, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen də iştirak ediblər. Onlar çıxışlarında Mərkəzi Asiya ölkələri ilə əlaqələri gücləndirmək istəyini vurğulayıblar. Tərəflər arasında əməkdaşlığın coğrafiyası isə iqtisadi, enerji daşıyıcıları ilə məhdudlaşmamış, siyasi müstəvidə də atılacaq birgə addımların xarakteri müəyyən edilmiş və bu, özünün rəsmi təsdiqini tapmışdır. Mərkəzi Asiya uğrunda yeni savaşın başlandığını birmənalı şəkildə söyləyə bilərik.

TDT Ağsaqqallar Şurasının 17-ci iclasında dünən və bu gün Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstanın Cənubi Kiprdə diplomatik nümayəndəliklər açmaları ilə bağlı məsələnin də müzakirə mövzusu olacağı gözlənilirdi. Açıq demək lazımdır ki, Səmərqənddə atılan addım Aİ kimi Qərbin siyasi təsisatlarının Türkiyənin Kiprdə işğalçı kimi qəbul edilməsi istiqamətində yürütdüyü təxribatçı siyasətin tərkib hissəsi idi. Bu addım həm də TDT-də nifaq yaratmaq cəhdlərinin nəticəsidir. Ona görə də məsələyə TDT tərkibində olan ölkələrin mövqe bildirmələri olduqca vacibdir. Təşkilatın ağsaqqallar şurasının yaranmış vəziyyətlə bağlı bir yol xəritəsini müəyyən edəcəyi gözlənilir.



Lefkoşa toplantısında Şimali Kipr Türk Cümhuriyyətinin tanınması ilə bağlı müzakirələrin olacağı da istisna edilmir. Bu mövzu artıq gündəmdədir. Azərbaycan Prezidenti İlham Əliyev bu nəsələ ilə bağlı qətiyyətli mövqeyini bildirib.

TDT Ağsaqqallar Şurasının iclasında məhz bu incə məsələ barədə Mərkəzi Asiyanın məlum dövlətlərinə uyğun formada mesajın ötürüləcəyini ehtimal edənlər də var. Yəni, bu gün TDT-nin gələcəyi ilə bağlı mümkün ssenariləri müşahidə etmək imkanımız olacaq.

Bəli, TDT-nin gələcəyi, onun hədəfləri ilə bağlı təşkilatın bəzi üzvlərində son vaxtlar tərəddüd və inamsızlıq təzahürləri müşahidə edilməkdədir. Bu xarakterli yanaşmaları bir neçə türk dövlətinin yunan Kiprini tanıması, eləcə də Aİ ilə iqtisadi-siyasi əlaqələri intensivləşdirməsi fonunda görürük. Mübahisəli qərardan sonra ŞKTR Prezidenti Ersin Tatar türk dövlətlərini yunan tərəfi ilə münasibətlərdə diqqətli olmağa çağırıb.

Türk Dövlətləri Təşkilatı artıq vahid güc kimi formalaşmış alyansdır. Üzv ölkələr müəyyən etdikləri hədəflərə çatmaq yoluna sadiq olduqlarını dəfələrlə bəyan ediblər. Çox güman ki, Lefkoşa toplantısında bu sualların aydın cavablarını eşidəcəyik.

Oxuculara xatırladaq ki, 2024-cü il noyabrın 30-da Macarıstan paytaxtında keçirilən TDT Ağsaqqallar Şurasının 16-cı iclasında təşkilata üzv bütün ölkələrin nümayəndələri iştirak ediblər. Bir il əvvəlki iclasda türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi, həmrəyliyin gücləndirilməsi məsələləri müzakirə olunmuşdu.

Həmrəylik təkcə dildə, mədəniyyətdə deyil, həm də siyasi mövqedə, hədəflərə doğru aparan yolla birgə hərəkətdə özünü təsdiqləməlidir. Bu kontekstdən yanaşanda Lefkoşa görüşü ev sahibi ŞKTR-ə türk dünyasının verəcəyi hərtərəfli dəstəyin nümayişi və TDT-yə sadiqliyin testi sayıla bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Əslində, TDT-nin gündəliyindəki məsələni diplomatlar, sahənin ekspertləri müəyyənləşdirməli və formalaşdırmalıdırlar. Məsələnin mahiyyəti tanıtma prosesinin getməsindən ibarət olmalıdır. Şimali Kiprdən olan türk qardaşlarımız Türk dövlətlərinin evsahibliyi etdikləri bütün beynəlxalq tədbirlərə dəvət olunmalı və iştirak etməlidirlər. TDT üzvü olan bütün dövlətlərdə ŞKTR-nin diplomatik nümayəndəliyi açılmalıdır. Avropa İttifaqının tribunalarından da Şimali Kiprin hüquqları səslənməlidir. Ortada konkret hər hansı düstür yoxdur ki, onun tətbiqi ilə bütün məsələlər öz həllini tapsın. Yəni, bu, ardıcıl informatik və diplomatik fəaliyyət tələb edən bir işdir.

Şimali Kiprdə yaşayan türk qardaşlarımızın təmin olunmalı hüquqları mövcuddur. Onlar vaxtilə BMT-nin Baş katibi Kofi Annanın adanın birləşdirilməsi ilə bağlı planını qəbul etdilər, bu qərarı dəstəklədilər. Amma yunan Kipri həmin planı yerinə yetirməkdən imtina etdi. Bu o demək idi ki, yunanlar Şimali Kiprdən və onunla birləşməkdən boyun qaçırdılar. Belə olan təqdirdə ŞKTR-ın tam hüququ var ki, onun da müstəqilliyi tanınsın və bu ölkəyə qarşı təcridetmə siyasətinə son qoyulsun. Əgər Avropa İttifaqı, ümumiyyətlə Qərb bunu etmək istəmirsə, onda bizə nə olub? Söhbət türk-müsəlman dövlətlərinin Şimali Kiprə verəcəkləri dəstəkdən gedir.

Aydın məsələdir ki, bu, tez həll olunacaq problem deyil. Sadəcə, bu istiqamətdə məqsədyönlü və davamlı fəaliyyət göstərmək lazımdır. Əsas odur ki, Şimali Kiprdə yaşayan türklərin təhlükəsizliyi təmin olunub. Bunu Türkiyə həyata keçirir. Bu mənada heç bir dövlət, yaxud qurum onlara qarşı gücdən istifadə etmək iqtidarında deyil. Ən vacibi budur, qalan məsələlər zamanında öz həllini tapacaq.

# Azərbaycan Hakimlər İttifaqı zərurətdən yaranan ictimai qurumdur

## Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası Bakıda keçiriləcək

**Müsahibimiz Azərbaycan Ali Məhkəməsinin sabiq sədri Azərbaycan Hakimlər İttifaqı İdarə Heyətinin sədri seçilib. Güman edirik ki, onunla söhbətimiz geniş oxucu kütləsi üçün maraqlı olacaq. Beləliklə, "Xalq qəzeti"nin qonağı 18 il Azərbaycan Ali Məhkəməsinin sədri işləmiş, xidmətləri dövlət tərəfindən "Azərbaycan Bayrağı", "Şöhrət", "Vətənə xidmətə görə" və "Şərəf" ordenləri, "Prokurorluğun Fəxri işçisi" döş nişanı, "Azərbaycan Respublikasının əməkdar hüquqşünası" fəxri adı ilə qiymətləndirilmiş, hazırda hüquqi fəaliyyətini Azərbaycan Hakimlər İttifaqı (AHİ) İdarə Heyətinin sədri kimi davam etdirən Ramiz Rzayevdir.**

**– Ramiz müəllim, Azərbaycan Hakimlər İttifaqının sədri kimi ilk dəfədir ki, Sizdən müsahibə alırıq. Sizi təbrik edirik. Rəhbərlik etdiyiniz qurum hansı zərurətdən yarandı?**



– Təbrikə görə təşəkkür edirəm. Azərbaycan Hakimlər İttifaqı ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşməsi, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin inkişafı fonunda yaranmış obyektiv bir zərurətin nəticəsidir. Bu İttifaqın təsis olunması, ilk növbədə, hakimlərin institusional şəkildə bir araya gətirilməsi, onların peşə maraqlarının müdafiəsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi və vahid peşə mövqeyinin formalaşdırılması ehtiyacından qaynaqlanır. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 105-1-ci maddəsi, hakimlərə ümumi maraqlar əsasında könüllülük prinsipi ilə ictimai birliklər təsis etmək hüququ verir. Bu hüquqi baza, eyni zamanda, belə birliklərin əsas məqsədlərini – hakimlərin birləşməsi, onların müstəqilliyinin möhkəmləndirilməsi və məhkəmə-hüquq islahatlarına dəstək verilməsini – müəyyən edir. Bu, həm hüquqi, həm də peşəkar kontekstdə hakimlərin təşkilatlanması üçün əsaslı zəmin yaradır.

AHİ-nin nizamnaməsinə nəzər saldıqda, onun hüquqi statusu, təşkilati strukturu və fəaliyyət prinsipləri tamamilə qanunvericilik normalarına uyğun şəkildə qurulub. Nizamnamədə ittifaqın əsas məqsədləri sırasında hakimlərin hüquq və mənafelərinin müdafiəsi, onların peşəkar bilik və bacarıqlarının artırılması, məhkəmə sisteminin inkişafına dəstək verilməsi, ictimaiyyətlə sağlam əlaqələrin qurulması və hüquqi maarifləndirmə mühüm yer tutur.

AHİ hakimlərin təcrübə və informasiya mübadiləsinə şərait yaradır, onların hüquqi maarifləndirilməsinə töhfə verir və məhkəmə sisteminə olan ictimai etimadı gücləndirir.

Ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatları və müasir tələblər hakimlərin yalnız fərdi şəkildə deyil, institusional səviyyədə də təşkilatlanaraq bu prosesdə aktiv iştirakını labüd edir. AHİ bu kontekstdə islahatların sosial dayağına çevrilərək, hakimlərin səsini ifadə edən, onların peşə nüfuzunu və sosial rifahını qoruyan, dövlətlə cəmiyyət arasında körpü rolu oynayan platforma kimi çıxış edir.

Nəticə etibarilə, AHİ hüquqi cəmiyyətin tələblərinə, məhkəmə sisteminin səmərəliliyinə və şəffaflığına töhfə verən, hakimlərin təşkilatlanmış şəkildə maraqlarını müdafiə edən mühüm və zəruri ictimai institut kimi meydana çıxıb.

– Prezident İlham Əliyevin sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan olunub. Azərbaycan Hakimlər İttifaqı bununla bağlı hansı layihələri reallaşdırır?

– Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyuldu, ictimai həyatımızın bütün sahələrində olduğu kimi məhkəmə-hüquq sahəsində də köklü dəyişikliklər və dərin islahatlar aparıldı. Bu islahatların həyata keçirilməsinin əsasını ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyamız qoyub.

Azərbaycanın yeni Konstitusiyası qabaqcıl dünya təcrübəsini, qanun yaradıcılığı prinsiplərini, çoxəsirlik dövlətçilik ənənələrini və ümumbəşəri dəyərləri özündə əks etdirir. Konstitusiyanın qəbul edilməsi milli dövlətçilik tariximizdə yeni bir mərhələ açdı, dövlət quruculuğunda, ictimai-siyasi, sosial-mədəni və iqtisadi sahələrdə demokratik proseslərə güclü təkan verdi. Hakimiyyət bölgüsü, insan hüquq və azadlıqlarının prioritetliyi prinsiplərinə əsaslanan Konstitusiyamız demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaratmaqla yanaşı, müstəqilliyimizin və suverenliyimizin möhkəmləndirilməsini də təmin etdi.

Bu il müstəqil Azərbaycanın Konstitusiyasının qəbul edilməsinin 30, ərazi bütövlüyümüzün təmin edilməsinin 5 ili tamam olur. 44 günlük müharibədəki tarixi Zəfərdən və 23 saatlıq antiterror tədbirlərindən sonra ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycan yeni tarixi dövrə qədəm qoyub. Təbii olaraq, bu dövr çərçivəsində qanunvericilik bazasının daha da möhkəmləndirilməsi, yeni şəraitə uyğunlaşdırılması kimi məqamlar ön plana çıxır. Bir məsələni ayrıca qeyd etmək istərdim. 1996-cı ildə ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış Hüquq İslahat Komissiyası ölkə qanunvericiliyinin beynəlxalq təcrübə əsasında, demokratik ideallara uyğun formada hazırlanmasını təmin etdi. Burada vətəndaşların hüquq və azadlıqlarının qorunması əsas prioritet olaraq götürülür. Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalarda təsbit edilmiş bu hüquq Prezident İlham Əliyevin daim diqqət mərkəzində saxladığı məsələdir. Vətəndaş cəmiyyəti institutu olaraq AHİ bu işlərə yaxından dəstək verməyə çalışır. AHİ-nin fəaliyyətinin əsas istiqamətləri ölkəmizdə qanunun aliliyinin təmin olunması ilə yanaşı, əhalinin hüquqi cəhətdən maarifləndirlməsi ilə bağlı layihələri davamlı olaraq həyata keçirməkdir. Bundan ötrü bizim yüksək ixtisaslı, peşəkar kadr potensialımız var. Eyni zamanda, sabiq hakimlərə hərtərəfli diqqət və qayğının göstərilməsi də ittifaqımızın nəzərindən yayınmayan məsələdir. Hesab edirəm ki, AHİ-nin "Konstitusiya və Suverenlik İli"nə ən böyük töhfəsi oktyabr ayında Beynəlxalq Hakimlər Assosiasiyasının (BHA) 67-ci Baş Assambleyasının Bakıda keçirilməsi olacaq...

**– 1995-ci il noyabrın 12-də Azərbaycanda ilk Konstitusiya Referendumu keçirilib. Ulu öndərin sədrlik etdiyi komissiya tərəfindən müstəqil Azərbaycanın ilk Konstitusiya aktı hazırlanıb və qəbul olunub. 2002, 2009 və 2016-cı illərdə Konstitusiyaya müəyyən əlavələr və dəyişikliklər edilib. Siz bu 30 illik mərhələni necə xarakterizə edərdiniz?**

– 1995-ci il noyabrın 12-də keçirilən Ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin müstəqil dövlət kimi siyasi və hüquqi inkişafında dönüş nöqtəsi oldu. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış əsas qanun Azərbaycan xalqının dövlət quruculuğunda iradəsini ifadə edən ilk Konstitusiya aktı kimi demokratik dəyərlərə, insan hüquqlarına və hüquqi dövlət prinsipinə əsaslanan cəmiyyətin bünövrəsini qoydu.

Konstitusiyanın ilkin mətnində dövlət hakimiyyətinin qolları – qanunverici, icraedici və məhkəmə hakimiyyətləri arasında balanslı bölgü yaradıldı, müstəqil məhkəmə sisteminin formalaşdırılması üçün ilkin normativ çərçivə müəyyən olundu. Bu dövrdə Konstitusiyanın tətbiqi ilə yanaşı, məhkəmə sistemində əsaslı struktur islahatlarına başlanıldı: Apellyasiya və Ali Məhkəmə instansiyaları formalaşdırıldı, yeni ixtisaslaşdırılmış məhkəmələr yaradıldı, hüquq islahatları Konstitusiya prinsiplərinə uyğunlaşdırıldı.

Konstitusiya Məhkəməsinin təsis olunması isə hüquqi sistemin inkişafında dönüş nöqtəsi oldu və ölkədə konstitusional nəzarət mexanizminin formalaşdırılması baxımından mühüm nailiyyət kimi dəyərləndirildi. Konstitusiya Məhkəməsi ölkədə ali hüquqi nəzarət orqanı kimi formalaşaraq, Konstitusiyanın aliliyinin təmin olunmasında, normativ aktların Konstitusiyaya uyğunluğunun yoxlanılmasında və vətəndaşların konstitusion hüquqlarının müdafiəsində əvəzsiz rol oynamağa başladı.

2002-ci ildə keçirilmiş referendumla Konstitusiyaya mühüm dəyişikliklər edildi. Bu dəyişikliklər çərçivəsində bir sıra məhkəmə qərarlarının dərhal icrası ilə bağlı müddəalar təkmilləşdirildi. Eyni zamanda, vətəndaşların seçki hüququ genişləndirildi, vəkillərin və məhkəmə orqanlarının fəaliyyəti ilə bağlı bəzi müddəalar konkretləşdirildi. Məhkəmə-Hüquq Şurasının yaradılması da bu dövrdə gündəmə gələn əsas yeniliklərdəndir.

2009-cu ildə qəbul olunan dəyişikliklər artıq dövlət institutlarının səmərəli işləməsi və insan hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi istiqamətində atılan addımlar idi. Bu mərhələdə Konstitusiya Məhkəməsinin səlahiyyətləri genişləndirildi və vətəndaşların konstitusiya şikayəti vermək hüququ bir daha vurğulandı. Bununla da hüquqi dövlət anlayışı praktik müstəviyə keçirildi.

Məhz bu mərhələdə AHİ kimi ictimai birliklərin təşkili üçün zəruri olan hüquqi və ictimai zərurət formalaşdı. Hakimlərin kollegial şəkildə birləşməsi, onların peşə maraqlarının qorunması və islahat prosesində iştirakını təmin edəcək bir təşkilatın yaradılması bu dövrdə aktual məsələ kimi gündəmə gəldi.

2016-cı ildəki Konstitusiya islahatları müasir idarəetmə mexanizmlərinə uyğun olaraq həyata keçirildi, bir çox sahədə çevik qərarvermə sistemləri formalaşdırıldı. Buraya dövlət qulluğunda yeni vəzifə kateqoriyalarının əlavə olunması, vitse-prezidentlik institutunun yaradılması və sahibkarlıq hüquqlarının daha çevik qorunması daxildir.

1995–2025-ci illər arasında Azərbaycan Konstitusiyası hüquqi dövlət anlayışının inkişafı baxımından dinamik və çevik bir sənəd olduğunu sübut etdi. Onun prinsipləri əsasında formalaşan hüquqi mühit təkcə idarəetməni deyil, həm də məhkəmə orqanlarının funksional effektivliyini və ictimai etimadını artırdı.

Bu kontekstdə AHİ kimi ictimai birliklərin formalaşması da 30 illik hüquqi təkamülün məntiqi nəticəsidir. Belə birliklər Konstitusiyada nəzərdə tutulan hakimlərin müstəqilliyi prinsipini praktik müstəvidə gücləndirir, onların hüquqlarının və mənafelərinin qorunmasına xidmət edir, eyni zamanda hüquqi islahatların cəmiyyətə ötürülməsində körpü rolunu oynayır.

**– Azərbaycan Hakimlər İttifaqı yeni nəsil hüquqşünasların yetişdirilməsi prosesində iştirak edirmi?**

– Ölkəmizdə fəaliyyət göstərən ali məktəblərdə, o cümlədən xarici dövlətlərdə təhsil alan hüquqşünas gənclər tərəfindən müasir texnalogiyalar və iş üslubu öyrənilir, hüquq elmi və təhsili müasir standartlara uyğun təşkil olunduğundan təcrübi biliklər əldə olunur, gənclərin hüquq düşüncəsi və hüquq mədəniyyəti inkişaf etdirilir, demokratik dəyərlərdən qidalanan və milli mənliyini qoruyan yeni vətəndaş siması formalaşır.

AHİ də yeni nəsil hüquqşünasların yetişdirilməsinə öz töhvələrini verir. İttifaqımızın fəaliyyətində təlimlərin və elmi-praktik tədbirlərin təşkili mühüm yer tutur. 2024-cü ilin fevralında Türkiyənin Danıştay məhkəməsində keçirilmiş təlimlərdə 10 nəfərlik nümayəndə heyətimiz iştirak edib. 2024-cü ilin martında "Vərəsəlik hüququ – müasir çağırışlar" mövzusunda elmi-praktik konfrans təşkil olundu. Həmin ay Azərbaycanın Ali və Apellyasiya məhkəmələrinin hakimlərinin Türkiyə Respublikasının Yarqıtay məhkəməsinə təcrübə səfəri həyata keçirilib.

Hakimlərin bilik və bacarıqlarının artırılması, habelə müxtəlif beynəlxalq tədbirlərdə daha səmərəli təmsil olunmalarının təmin edilməsi məqsədilə bütün instansiya məhkəmələri üzrə 50-dək hakim üçün AHİ-nin təşkilati dəstəyi ilə ingilis dili kursları təşkil edilib. Tədris müasir metodlarından istifadə edilməklə, müxtəlif səviyyələr üzrə peşəkar müəllimlər tərəfindən aparılır. Bundan başqa, ümumi dil bilikləri üzrə yüksək nəticələr göstərmiş hakimlər üçün hüquqi ingilis dili üzrə dərslər də artıq həyata keçirilməkdədir.

Ölkə daxilində təşkil edilən seminarlar mühüm əhəmiyyət kəsb edir. Təşkilatımızın təşəbbüsü ilə Şirvan, Gəncə və Sumqayıt şəhərlərində Apellyasiya Məhkəmələrinin yurisdiksiyalarına daxil olan hakimlərinin iştirakları ilə seminarlar keçirilib.

AHİ və Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin birgə təşəbbüsü ilə bir qrup hakimin ötən il tələbələrlə görüşü təşkil edilib, "Əlavə kassasiya qaydasında icraat", "Mirasın qəbul edilməsi və müddəti (nəzəri və praktiki problemləri)" ilə bağlı çıxışlar edilmiş, tələbələrin çoxsaylı sulları cavablandırılıb.




Ötən il AHİ və Polis Akademiyasının birgə təşəbbüsü ilə bir qrup hakimin zabit-müəllim heyəti və kursantlarla görüşü keçirilib, "Həbs qətimkan tədbirinin tətbiqinə dair ibtidai istintaq orqanlarının vəsatətlərinə baxılıması", "İstintaq hərəkətlərinin məcburi aparılması ilə bağlı məsələlər üzrə məhkəmə nəzarəti", "Məhkəmə tərəfindən istintaq orqanlarının yol verdiyi kobud pozuntularla bağlı cinayət işlərinin ibtidai istintaqa qaytarılması" və digər mövzularında çıxışlar edilib. Görüşdə kursantların çoxsaylı sualları cavablandırılıb, bəzi hakimlər bilik və bacarıqlarının kursantlara çatdırılması üçün Polis Akademiyası tərəfindən tədrisə cəlb olunublar.

Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı (COP 29) çərçivəsində ADA Universitetinin Kembric Universiteti ilə birgə "İqlim diyişikliyi risklərinin azaldılması və uyğunlaşdırılmasında milli məhkəmələrin rolu" mövzusunda keçirilən beynəlxalq tədbirdə AHİ üzvləri təmsil olunub və çıxış ediblər.

Azərbaycan Ali Məhkəməsi və AHİ-nin birgə təşəbbüsü ilə 6 sentyabr 2024-cü il tarixində COP 29 çərçivəsində "Hüquq və İqlim" mövzusunda beynəlxalq konfrans təşkil edilib. Bu tədbirdə BHA-nın rəhbərliyi və bir sıra xarici ölkələrin hakimləri, həmçinin iqlim dəyişikliyi üzrə beynəlxalq ekspertlər iştirak ediblər.

**– Mətbuatın yaydığı məlumata görə, cari il oktyabr ayının 11-17-də Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyası keçiriləcəkdir. Assosiasiyanın bu qərarı qəbul etməsinə beynəlxalq münasibət necədir?**

– Nəzərinizə çatdırım ki, AHİ İB 29.12.2004-cü il tarixdə Ədliyyə Nazirliyində qeydiyyata alınmış Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimlərinin İctimai Birliyinin (Assosiasiyası) və Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyinin (Assosiasiyası) hüquqi varisi olmaqla, onların birləşməsi nəticəsində 2023-cü il oktyabrın 7-də yaradılıb. Yarandığı dövrdən başlayaraq fəaliyyətində məhkəmə hakimlərini birləşdirib, onların müstəqilliyinin daha da möhkəmləndirilməsinə kömək edib, hüquqi maarifləndirmə işini həyata keçirib, beynəlxalq təşkilatlarla əlqələr qurub.

Görülmüş işlərin nəticəsində AHİ 2009-cu ildə BHA-ya assosiativ, 2012-ci ildə isə tam hüquqlu üzv qəbul olundu. Bu dövr ərzində BHA və onun regional üzvü olan Avropa Hakimlər Assosiasiyasının keçirdiyi tədbirlərə qatıldı.

AHİ 2024-cü ilin oktyabr ayında Cənubi Afrika Respublikasının Keyptaun şəhərində keçirilən BHA-nın Baş Assambleyasında ölkəmizi layiqincə təmsil edib. Bu tədbidə AHİ-nin növbəti ildə Baş Assambleyaya evsahibliyi etməsilə bağlı namizədliyi irəli sürüldü. Ermənistan nümayəndə heyətinin kəskin etirazına baxmayaraq, 2025-ci ildə BHA-nın 67-ci Baş Assambleyasına evsahibliyi etmək hüququnu böyük səsçoxluğu ilə Azərbaycan qazandı. Bu, beynəlxalq hüquq ictimaiyyətində ölkəmizin müasir hüquq sisteminin yüksək səviyyədə tanınmasının bariz nümunəsidir. Biz 91 ölkədən 300-ə yaxın nümayəndənin iştirakı nəzərdə tutulan bu möhtəşəm tədbirə evsahibliyi etməklə, milli hüquq sistemimizi deyil, ümumilikdə Azərbaycanın mədəni irsini və qonaqpərvərliyini dünya ictimaiyyətinə təqdim edəcəyik. Biz bu tədbirə ciddi hazırlaşırıq və inanıram ki, ölkəmiz tədbirin keçirilməsinə layiqli evsahibliyi edəcək, beynəlxalq aləmdə Azərbaycanın imicinin artmasına öz töhfəsini verəcəkdir.

**– Bildiyiniz kimi, Ermənistan konstitusiyasının preambulasında Azərbaycana qarşı ərazi iddiaları var. Rəsmi İrəvan konstitusiya islahatını iki ildən sonraya planlaşdırdığını açıqlayıb. Bununlıa bağlı fikirlərinizi bilmək istyərdik...**

– Azərbaycan regionda davamlı sülhün təmin edilməsi, Ermənistanla münasibətlərin normallaşdırılması məqsədilə 44 günlük Vətən müharibəsindən sonra beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış edib. Azərbaycan hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında Ermənistanla sülhə hazır olduğunu dəfələrlə bəyan edib.

Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh müqaviləsinin bəndləri üzrə razılaşmalar əldə edilsə də, həlli zəruri olan mühüm amillər mövcüddür. Bunlardan ən önəmlisi Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların yer almasıdır ki, bu da sülh sazişinin imzalanmasına maneə olur. Ermənistanın konstitusiyasında müstəqillik aktlna istinad olunur və bu, konstitusiyanın tərkib hissəsidir. Buradakı Qarabağın Ermənistana birləşdirilməsinə dair çağırışlar Azərbaycana qarşı açıq ərazi iddiası sayılır. Cənab Prezidentin dediyi kimi, Ermənistan konstitusiyasının dəyişdirilməsi bizim təklifimiz deyil, obyektiv fikrimizdir.

**– Söhbətimizin sonunda oxucularımıza yeni planlarınız, perspektiv layihələriniz barədə məlumat verərdiniz.**

– Qarşımızda duran ümdə məqsədimiz "Məhkəmə və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununda və birliyimizin nizamnaməsində qeyd edildiyi kimi, hakimləri birləşdirməkdən, onların müstəqilliklərini möhkəmləndirməkdən, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə kömək etməkdən ibarətdir. Bu məqsədlərin həyata keçirilməsi üçün AHİ beynəlxalq tədbirlərdə iştirak edərək çağdaş təcrübəni öyrənib Azərbaycanda tətbiq olunmasına nail olacaq, beynəlxalq təşkilatları, digər ölkələrin hakimlər ittifaqlarını Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları ilə tanış edəcək, elmi-praktiki seminarlar, konfranslar, məşğələlər təşkil etməklə yeni nəsil hakimlərin yetişməsinə öz töhvəsini verəcəkdir.

Bu ilin oktyabr ayında bizi mötəbər tədbirə – Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasına evsahibliyi etmək gözləyir. Ona indidən ciddi və hərtərəfli şəkildə hazırlaşırıq. Hesab edirəm ki, dünyanın 91 ölkəsindən tədbirə qatılacaq nümayəndələrdə ölkəmiz barədə təkcə hüquqi aspektdə deyil, həm də müasir Azərbaycanın reallıqları barədə geniş təəssürat yaranacaq.

**– Ramiz müəllim, həm qarşıdakı beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsində, həm də gələcək fəaliyyətinizdə Azərbaycan Hakimlər İttifaqına uğurlar diləyirik.**

***Söhbəti qələmə aldı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# “Bir görəydim ayrılığı kim saldı?”

## İran Prezidentinin Azərbaycana rəsmi səfəri barədə düşüncələr

**Heydər Əliyev Mərkəzində Azərbaycan – İran biznes forumu zamanı İran Prezidenti Məsud Pezeşkian Azərbaycanın dahi şairi Məhəmmədhüseyn Şəhriyarın Vətən nisgili ilə yazdığı “Heydərbabaya salam” poemasından bir neçə misra səsləndirməsi salonda alqışla qarşılandı:**

***Bir uçaydım bu çırpınan yelinən,***
***Bağlaşaydım dağdan aşan selinən,***
***Ağlaşaydım uzaq düşən elinən,***
***Bir görəydim ayrılığı kim saldı?***
***Ölkəmizdə kim qırıldı, kim qaldı?***

Prezident Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri barədə öncə xəbərlər paylaşılmışdı. Bununla yanaşı, İranın yüksək vəzifəli şəxslərinin ölkəmizə səfərləri də, ali qonağın şərəfinə təşkil olunacaq səfər ilə bağlı detalları müzakirə etmək xarakteri daşıyırdı. Aprelin əvvəlində İran Prezidenti Administrasiyasının siyasi şöbəsinin müdir müavini Mehdi Sənai, bir həftə sonra isə İranın Yol və şəhərsalma naziri, İran – Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri xanım Fərzanə Sadiq Bakıda səfərdə olmuşdular. Bu səfərlər zamanı tərəflər ən yüksək səviyyədə imzalanması planlaşdırılan sənədlərin mətnlərini razılaşdırmışdı.

İran Prezidenti Məsud Pezeşkian ilə birlikdə Bakıya 120 nəfərlik nümayəndə heyətinin gəlməsi də göstərir ki, səfərin mühüm əhəmiyyəti vardır. Nümayəndə heyətinin tərkibinə özəl sektorun nümayəndələri, İran və Azərbaycan parlamentləri arasında dostluq qrupunun üzvləri, həmçinin İranın əsasən etnik azərbaycanlıların yaşadıqları 4 vilayətin qubernatorları daxil idi.

Səfərdə iqtisadi əməkdaşlığın inkişafı, nəqliyyat layihələri, xüsusilə də “Şimal-Cənub” beynəlxalq dəhlizinin və Orta dəhlizin İran ərazisindən keçən hissəsinin icrası məsələlərinin müzakirəsi aktuallıq kəsb edirdi.

Pezeşkianın səfəri zamanı bir sıra ikitərəfli sazişlərin imzalanması, Azərbaycan və İran arasında normativ-hüquqi bazanın möhkəmləndirməsi ilə yanaşı, gələcək əməkdaşlıq üçün də əlverişli mühit formalaşdırdı.

Son dövrdə İranla və Azərbaycan arasında münasibətlərdə olan ziddiyyətlərin keçmişinə qısaca nəzər salaq. İranla Azərbaycan arasında münasibətlər İkinci Qarabağ müharibəsindən sonra kəskin şəkildə pisləşdi. Azərbaycan Tehranı Ermənistanı dəstəkləməkdə və Qarabağda erməni separatçılarına yanacaq verməkdə ittiham edirdi. Öz növbəsində, İran rəsmiləri və İslam İnqilabı Keşikçiləri Korpusuna yaxın media qurumları Azərbaycanı İsraillə əməkdaşlığa görə tənqid edirdilər. İran rəhbərliyi Zəngəzuru “qırmızı xətt” adlandırması və Ermənistanla sərhədləri ölkənin milli maraqları baxımından əhəmiyyətini vurğulayırdı.

Bundan başqa, SEPAH-ın Azərbaycan sərhədi yaxınlığında hərbi təlimlər keçirməsi ikitərəfli münasibətlərdə soyuqluğu daha da artırırdı. Prezident İlham Əliyev və İranın mərhum Prezidenti İbrahim Rəisi arasında Aşqabadda keçirilən görüşdən sonra gərginlik qismən azaldı. Lakin 2023-cü ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücum və bir əməkdaşımızın həlak olmasından, ikisinin isə yaralanmasından sonra münasibətlər yenidən pisləşdi.

2024-cü ilin əvvəllərindən münasibətlər tədricən normallaşmağa başladı: may ayında iki ölkənin prezidentləri Araz çayı üzərində “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində iştirak etdilər. Azərbaycan – İran sərhədində baş tutan tarixi görüş iki ölkə arasında münasibətlərdə dönüş nöqtəsi hesab olunur.

Məsud Pezeşkian hakimiyyətə gəldikdən sonra Azərbaycan – İran əlaqələri yüksələn xətlə inkişaf etməyə başladı. Bununla belə, aprelin əvvəlində Bakıda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev xatırlatdı ki, Bakının Tehrana hələ də sualları var, o cümlədən səfirliyə hücumla bağlı saxlanılan şəxsin cəzalandırılmaması da suallar yaradır.

Aprelin 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə məhdud tərkibdə görüşü oldu. Görüşdə hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu, energetika, xüsusilə elektrik enerjisi sahəsində əməkdaşlıq müzakirə edildi. Araz çayı üzərində su elektrik stansiyalarının tikintisi və Ağbənd-Kəlalə avtomobil körpüsü layihəsinin yekunlaşdırılmasının önəmi qeyd olundu. Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparıldı. Bir daha diqqətə çatdırıldı ki, Azərbaycan və İran regional məsələlərin bölgə ölkələrinin özləri tərəfindən həll edilməsinin tərəfdarıdır. Bu zaman 3+3 regional əməkdaşlıq formatının əhəmiyyəti vurğulandı. Görüşdə, həmçinin turizm və mədəniyyət sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

**İmzalanmış sənədlər:**

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Məsud Pezeşkianın iştirakı ilə mübadiləsi mərasimi keçirildi.

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian prezidentlərin Birgə Bəyanatını imzaladılar.

– Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025-2027-ci illər üçün Siyasi Məsləhətləşmələr Proqramı;

– Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında 2025-2026-cı illər üçün nəqliyyat sahəsində hərtərəfli əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

– Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya”nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların qarşılıqlı tanınmasına dair Anlaşma Memorandumu”

–Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2025-2028-ci illər üzrə Mədəni Mübadilə Proqramı;

– Azərbaycan Respublikasının Media İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında Anlaşma Memorandumu.



Prezident Pezeşkian Bəndər Abbasda partlayış səbəbindən Bakıda səfərini qısaltmaq məcburiyyətində qaldı. İran Prezident Administrasiyasının siyasi şöbəsinin müdir müavini Mehdi Sənai Pezeşkianın Bakıya səfərinin intensiv olacağını və onun faciə ilə bağlı vəziyyətə şəxsi nəzarət zərurətinə görə bir gün çəkəcəyini bildirdi. Lakin Prezidentin proqramına baxdığımız zaman rəsmi görüşlər, sənədlərin imzalanması, biznes-forumda iştiraka qədər, Bakı gəzintisi də daxil olmaqla səfərin çox geniş gündəliyinin olduğunu gördük. Məhz buna görədir ki, İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai bu səfərin İranın Azərbaycanla əlaqələrini çox önəmliliyi ilə xarakterizə etdi. Səfər ərəfəsində Bəqainin Cənubi Qafqazın sabitliyində aparıcı rola malik ölkə kimi Azərbaycanı “İran üçün əhəmiyyət daşıyan əsas aktor” adlandırması da çox vacib açıqlamadır.

İran Prezidenti bildirdi ki, “Yaxın vaxtlarda yenidən qardaşımın qonağı olacağam. Burada özümü yad hiss etmirəm. İndi İranda baş verən partlayışa görə uzun müddət qala bilmirəm”. Pezeşkian əlavə etdi ki, “Biz imkan verməyəcəyik ki, kimlərsə Azərbaycanla münasibətlərimizi korlasınlar, aramızda fikir ayrılığı yaratsınlar”.

M.Pezeşkian, həmçinin dedi ki, “Azərbaycanda olmaqdan çox şadam... Qarabağ Azərbaycan ərazisinin ayrılmaz hissəsidir... “Ümid edirəm ki, bizim iştirakımız və ekspertlərimiz arasında keçirilən görüşlərdən sonra imzalanacaq sazişlər Azərbaycanla münasibətlərimizdə daha böyük addımlara doğru hərəkatın başlanğıcı olacaq”.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan-İran biznes forumundakı çıxışında Araz dəhlizinə də toxundu: “Araz dəhlizi layihəsi həm regionumuzda, həm də bütün dünyada böyük diqqəti cəlb edir. Bu layihə ətrafında müxtəlif fərziyyələr və şayiələr var. Bunun əslində heç bir əsası yoxdur. Çünki bu, sadəcə olaraq yeni nəqliyyat layihəsidir”. Dövlət başçısı bildirib ki, bu, Azərbaycanı, onun əsas hissəsini İran vasitəsilə Naxçıvan Muxtar Respublikası ilə birləşdirən layihədir. Eyni zamanda, bu, böyük tranzit imkanları açacaq.

İran Prezidenti Məsud Pezeşkian Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin məzarını, habelə Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini dərin ehtiramla yad etdi. İran Prezidenti, həmçinin Bibiheybət məscidini də ziyarət etdi.

Prezident Məsud Pezeşkian Bakıya səfəri ilə bağlı bu fikirləri bölüşdü. “Dünən Bakıda Azərbaycan Respublikasının Prezidenti, əziz qardaşım İlham Əliyevlə razılaşmalar əldə olundu, sənədlər imzaladıq. Bu səfər etimadın möhkəmləndirilməsi və elmi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində hərtərəfli əməkdaşlıq üçün yeni üfüqlərin açılması üçün müqəddimədir. Qonaqpərvərliyinə görə cənab İlham Əliyevə təşəkkür edirəm”.

İran Prezidenti Pezeşkianın Bakıya səfərini İran-Azərbaycan münasibətlərində praqmatizmin sınağı və ya münasibətlərin formatlanması hesab etmək olar. Məsud Pezeşkianın Azərbaycana səfəri sadəcə diplomatik jest deyil, qardaşlıq ritorikası ilə sərt regional reallıqlar arasında balansı bərpa etmək cəhdi idi.

Prezident Pezeşkianın “xalqların birliyi” ilə bağlı bəyanatlarına baxmayaraq, əsas sual dəyişməz olaraq qalır: Tehran sözdən əmələ keçməyə hazırdırmı?

Hələ 2025-ci ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli KİV-ə müsahibəsində ikitərəfli münasibətlərin normallaşdırılması üçün tələbləri aydın şəkildə ifadə etmişdi:

– Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən terror aktını törədən şəxs barəsində hökmün icrası (2023).

– Azərbaycan haqqında təhqiramiz bəyanatlar verən radikal ruhanilərə, o cümlədən Ərdəbil mollasına qarşı cavab tədbirləri.

Geosiyasi qovşaqlar: Maraqların toqquşduğu yer

– Zəngəzur dəhlizi

İran Türkiyənin güclənməsindən və Ermənistanda təsir rıçaqlarının itirilməsindən ehtiyat edərək onun yaradılmasına qəti etiraz edir. Hətta bu səfər zamanı Pezeşkian yalnız İİR ərazisindən keçən alternativ yol haqqında fikir bildirdi. Bakı da öz növbəsində dəhlizin ambisiya deyil, 2020-ci il üçtərəfli sazişinin mühüm bəndi olduğunu vurğulayır.

– Rəşt-Astara dəmir yolu (Şimal-Cənub dəhlizi)

Azərbaycan layihənin öz hissəsini başa çatdırıb, İran isə onun icrasını gecikdirməkdə davam edir. İran layihənin gecikdirilməsini torpağın alınması ilə əsaslandırır.

– Xarici siyasətdə təcrid faktoru

Azərbaycan Avrasiyanın getdikcə daha mühüm nəqliyyat mərkəzinə çevrilir. Rusiya, Cənubi Asiya, Fars körfəzi ölkələri və Avropanı birləşdirən əsas marşrutlar məhz bizim ərazidən keçir. Bu şansı əldən vermək Tehranın artan beynəlxalq təcrid fonunda maddi-texniki və siyasi üstünlüklərdən könüllü olaraq imtina etmək deməkdir.

– Qeyri-rəsmi kanallar: vasitəçiliyin gizli potensialı

Digər həssas, lakin perspektivli geosiyasi mövzu İran və İsrail arasındakı münasibətlərdir. Düşmən ritorikasına baxmayaraq, artıq regionda Azərbaycanın konstruktiv rol oynadığı presedentlər olub, məsələn, Suriya dosyesi ilə bağlı Ankara və Təl-Əviv arasında qeyri-rəsmi danışıqları nümunə çəkə bilərik. Tərəflərdən heç birinin atəşkəsə hazır olmadığı şəraitdə başqa ssenari də mümkündür: həssas məsələlər üzrə məhdud kommunikasiya kanalının yaradılması. Koordinasiya bütün həssas və ziddiyyətli məqamların aradan qaldırılmasına yardımçı ola bilər. Böyük qarşıdurma risklərini azaldan platforma Bakıdır.

– Nəticə: Bu səfər münasibətlərdə, şübhəsiz, mühüm göstəricidir.

İranın özündə Pezeşkian məhdud manevr imkanları ilə üzləşir: o, təhlükəsizlik və xarici siyasətin əsas rıçaqlarına nəzarət etməyən mötədil qanadı təmsil edir. Bu, çevik qərar ehtimalını azaldır. Lakin səfərin özü bir siqnal idi: Tehran kursu tənzimləmək zərurətini dərk edir.

Gələcək dinamika iki amildən asılı olacaq:

– Azərbaycanın tələblərinə doğru real addımlar;

– İranın infrastruktur layihələrində güzəştə getməyə hazır olması.

İndi Tehrandan gözlənilən budur – konkret hərəkətlər.

Beləliklə, İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri böyük uğurla yadda qaldı. Səfər zamanı əldə olunan razılaşmalar, imzalanmış sənədlər İran-Azərbaycan dostluğunu və qardaşlığını bir daha təsdiqləyir. Bu rəsmi səfərin çox gözəl siyasi nəticələri olacaq. Xüsusilə vurğulamaq lazımdır ki, prezidentlərin birgə bəyanatı gələcək əməkdaşlığın yolunu göstərən çox ciddi sənəddir. İran Prezidentinin Azərbaycana səfəri qarşılıqlı əlaqələrin inkişafında çox böyük rol oynayacaq. Şimal-Cənub nəqliyyat dəhlizi bu layihədə iştirak edən bütün tərəflərə böyük fayda verəcək. Azərbaycanla İran arasında əməkdaşlığın dərinləşməsi üçün çox gözəl imkanlar var. Həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə əməkdaşlığın inkişafı iki qardaş xalqın marağındadır.

İran və Azərbaycan Şimal – Cənub, Şərq – Qərb dəhlizlərini daha da inkişaf etdirə bilərlər. Bunun üçün hər iki tərəfdə siyasi iradə vacibdir. İki lider açıqlamaları zamanı birgə istehsal motivasiyasının qurulmasını təklif etməklə təşkilatı fəaliyyətin makroəsasları üzərində də dayandılar.

Səfərin ən həssas məqamlarından biri Prezident Pezeşkianın özünü Təbrizdəki, Ərdəbildəki kimi hiss etməsi ilə bağlı səsləndirdiyi fikirdir. Bu, İranda yaşayan soydaşlarımız üçün də vacib açıqlamadır. Hərtərəfli vacib açıqlamanın digəri, onun çox yaxın gələcəkdə yenidən Azərbaycana səfər edəcəyi anonsunu verməsidir. Bütövlükdə səfərin iki ölkə arasında münasibətlərin inkişafına ciddi təkan verəcəyi qədər, bölgənin təhlükəsizliyi, inkişafı, rifahı üçün əsas olduğunu vurğulamaq da vacibdir.

***İlyas HÜSEYNOV***
***Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri***

**Nahaq qan batmaz**

# Xocalıda növbəti kütləvi məzarlıq aşkarlanıb

**İşğaldan azad edilmiş ərazilərdə sayca 25-ci kütləvi məzarlıq aşkarlanıb. Bu, Xocalıda aşkarlanan 3-cü kütləvi məzarlıqdır. Kütləvi məzarlıqların hər biri Dövlət Komissiyası tərəfindən, həmçinin Baş Prokurorluğun müstəntiqləri tərəfindən qeydiyyata alınır, faktlar sənədləşdirilir.**



Bunu Xocalıda jurnalistlərə açıqlamasında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası işçi qrupunun rəhbərinin müavini Eldar Səmədov deyib.

Onun sözlərinə görə, aprel ayında aparılmış qazıntılar zamanı iki kütləvi məzarlıq aşkarlanıb. Kütləvi məzarlıqlardan biri Şuşa şəhərinin yaxınlığında - Şuşa-Xankəndi yolu ilə Şuşa-Laçın yolunun birləşməsində aşkarlanıb. Həmin ərazidə ən azı 5 itkin şəxsə aid olan meyit qalıqları aşkarlanaraq götürülüb.

Eldar Səmədov bildirib ki, Əsgəran-Xocalı yolunun üzərində aşkarlanan kütləvi məzarlıqda isə azı 7 itkin şəxsə aid meyit qalıqlarının olduğu ehtimal edilir. Meyit qalıqları əsasən mülki şəxslərə aiddir. Qeyri-ənənəvi dəfn üsulları müşahidə olunub.

“Hazırda Ermənistanın törətdiyi yeni cinayət faktı ilə üz-üzəyik. Ermənistan Xocalı soyqırımı ilə bağlı məsələlərə uzun illər özünəməxsus yanaşma nümayiş etdirib. Hətta onların uydurmasına görə, mülki əhali şəhəri tərk edərkən dəhliz verilib. Bu gün yol kənarında tapılan bu fakt göstərir ki, heç bir humanitar dəhlizdən söhbət gedə bilməz, mülki şəxslər burada bilərəkdən qətlə yetirilib və kütləvi şəkildə basdırılıblar. Beynəlxalq humanitar hüquq normalarına, Azərbaycanın da, Ermənistanın da qoşulduğu Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən, mülki insanların girov götürülməsi, ümumiyyətlə, qadağandır. Bu fakt isə göstərir ki, insanlar nəinki girov götürülüb, hətta beynəlxalq humanitar hüquq normalarına zidd olaraq işgəncələrlə qətlə yetirilib və burada kütləvi şəkildə basdırılıblar”, - deyən E.Səmədov bildirib ki, ölkəmizə qarşı hərbi təcavüz nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması ilə bağlı beynəlxalq təşkilatların vasitəçiliyi ilə dəfələrlə Ermənistana sorğular verilib, itkin şəxslərin taleyi ilə bağlı məlumatların verilməsi tələb olunub. Ermənistan tərəfi bu gün də faktları gizlətməyə davam edir. Lakin nə qədər gizlətməyə çalışsalar da, aşkarlanan kütləvi məzarlıqlar Ermənistanın törətdiyi cinayət izlərinin növbəti faktıdır.



O deyib: “Qalıqlar üzərində zorakılıq faktları aşkar görünür. Ayaq, əl, kəllə sümüklərində küt alətlərlə vurulmuş zədə izləri, sümüklərin sınması faktları var. Faktlar cinayətin törədilməsinin bariz nümunəsidir. Geyimlərdən də aşkar görünür ki, qalıqlar mülki şəxslərə aiddir. Mütəxəssislərin rəyinə görə, onlar arasında qadınlar üstünlük təşkil edir. Qazıntı davam edəcək. Torpağın aşağı dərinliklərində yenə qalıqların olduğu güman edilir. Mütəxəssislərin, xüsusilə arxeoloqların iştirakı ilə baxış keçiriləcək. Həmin qalıqlar buradan götürüləcək və müvafiq laboratoriyalarda eyniləşdirmə işi aparılacaq”.

Onun sözlərinə görə, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dövlət Komissiyasında 3990 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır. Son illərdə aparılan axtarış-qazıntı, eyni zamanda, eyniləşdirmə prosesi nəticəsində 170 vətəndaşın taleyinə aydınlıq gətirilib. Bu ilin 1 may tarixinə olan məlumata görə, Dövlət Komissiyasında Xocalı soyqırımı zamanı 210 nəfərin itkin düşdüyü qeydiyyata alınıb. Onların arasında 38 uşaq da var. 42 nəfər hərbçi, digərləri isə mülki şəxslərdir.

Dövlət Komissiyasının rəsmisi əlavə edib ki, ötən ilin fevralında da Xocalı şəhərində kütləvi məzarlıq aşkarlanmışdı: “Qaladərəsi ərazisində Xocalı soyqırımına aid olduğu ehtimal edilən daha bir kütləvi məzarlıq da üzə çıxarıldı. Xocalı şəhərində ötən ilin fevralında aşkarlanan kütləvi məzarlıqda 18 nəfərə aid meyit qalığı aşkarlandı. Onlardan 10 nəfərini eyniləşdirib, ailələrinə təhvil vermişik. Digərlərinin də eyniləşdirmə prosesləri davam etdirilir”.

***XQ***

# Bakı–Tehran: İrəvan üçün yeni reallıqlar

## Azərbaycanla İranın yaxınlaşması Ermənistanı niyə narahat edir?



**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın aprelin 28-də Azərbaycana rəsmi səfəri Ermənistanda, yumşaq desək, qısqanclıq doğurub. Doğrudur, ölkənin rəsmi şəxsləri, dövlət məmurları bu barədə hər hansı fikir səsləndirməyiblər. Zatən, səsləndirə də bilməzlər. Çünki, bu, Azərbaycanın və İranın daxili işlərinə qarışmaq olardı. Buna isə nəinki Ermənistanın, heç bir dövlətin ixtiyarı yoxdur.**

Hayastanın media orqanları, siyasətçiləri və politoloqları isə səfərdən narazı qaldıqlarını gizlətmirlər. Görünür, haylar arxayın imişlər ki, Azərbaycan–İran münasibətləri daim pis vəziyyətdə qalacaq. Buna görə də M.Pezeşkianın Bakıya gəlişi, rəsmi qarşılanma mərasimi, prezidentlərin əvvəlcə məhdud, sonra isə geniş tərkibdə görüşü, dövlət başçılarının iştirakı ilə iki ölkə arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi, birgə bəyanat da daxil olmaqla, ümumilikdə, 6 sənədin imzalanması, Azərbaycan–İran biznes forumunun keçirilməsi erməniləri bərk pərişan edib. Onları narahat edən digər məsələ isə İran Prezidentinin azərbaycanlı olması, eləcə də dövlət başçılarının bir-birinə “əziz qardaşım” deyə müraciət etmələridir.

Bu istiqamətdə “ArmenianReport” saytında yerləşdirilmiş “Çox böyük problem: nə etməli?” sərlövhəli məqalə diqqəti cəlb edir. Bəri başdan bildirək ki, məqalə, bütövlükdə, Ermənistan cəmiyyətinin narahatlığının ifadəsidir. Müəllif Qalust Qriqoryan yazır: “Yaxşı, nə edəcəyik, necə reaksiya verəcəyik? Təkcə Prezident Pezeşkianın Azərbaycana səfəri faktı ilə bağlı yox, həm də onun Bakıda söylədiyi hər şeylə bağlı. Cənab Pezeşkian Bakıda azərbaycanlı həmkarı ilə görüşdə “Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq” sözündən başlayaraq yumşaq desək, çoxlu lazımsız (?) sözlər dedi. Bəs İran İslam Respublikası Prezidentinin Qarabağ adlandırdığı “Artsax” sakinlərinin hüquqları necə? Təkcə “Artsax”ın deyil, həm də Ermənistan ərazilərinin bir hissəsinin “işğalı” ilə (?) nə etmək lazımdır? Azərbaycanın “Artsax”da, Bakıda, Sumqayıtda “etnik təmizləmə”yə görə məsuliyyəti necədir? Xeyr, Məsud Pezeşkian bu barədə heç nə demədi. Təkcə ona görə yox ki, o azərbaycanlıdır. Biz, sadəcə olaraq, rəsmi Tehranın mövqeyinin dəyişməsini müşahidə edirik.

Tehranda Bakı ilə əlaqələrin qurulmasını sürətləndirməkdə o qədər qətiyyətlidirlər ki, onlar Bəndər Abbas şəhərindəki Şəhid Rəcai limanında baş vermiş partlayışla bağlı İranda matəm elan olunmasına baxmayaraq, Azərbaycana gəldilər. Bundan başqa, səfərə bir gün qalmış operativ şəkildə bildirildi ki, Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücum edən İran vətəndaşı Yasin Hüseynzadə ilə bağlı edam hökmünün icrasına dair ölkənin məhkəmə sistemində bütün hazırlıq işləri başa çatıb”.

M.Pezeşkianın Bakıda olarkən söylədiyi “Çox vaxt keçməyəcək ki, dostumla yenidən görüşəcəyik. Çalışacağam ki, Azərbaycanda növbəti dəfə daha çox qalım və burada olanda heç zaman özümüzü yad ölkədəki kimi hiss etmirəm. Elə bil ki, Təbrizdəyəm, Ərdəbildəyəm. Sanki doğulduğumuz, böyüdüyümüz, yaşadığımız İran Azərbaycanındayıq. Çox şadam ki, Sizinlə bir yerdəyəm” sözləri hayları lap özlərindən çıxarıb. Onlar əsəblərini soyutmaq üçün bir stəkan sərin su içmək əvəzinə kompüter arxasına keçərək isterik şəkildə klaviaturanı döyəcləyirlər. Nəticədə “ArmenianReport”dakı kimi məqalələr meydana çıxır.

Qeyd edilib ki, Azərbaycanla dialoq qurmaq üçün hər şeyi etməyə dəyər: “Bu da təbii ki, Ermənistanın İran üçün əhəmiyyətinin azalması kimi şərh edilə bilər. Bunu istədiyiniz qədər inkar edə bilərsiniz, amma Ermənistanın əhəmiyyətini azalması reallıqdır. Buna əmin olmaq üçün mayın 8-də Azərbaycana dövlət səfəri edəcək İsrailin baş naziri Benyamin Netanyahunun ayın 11-nə kimi orada qalacağı xəbərini oxumaq kifayətdir. Səfər zamanı Netanyahunu həyat yoldaşı Sara müşayiət edəcək. “Kan” (İsrailin teleradio yayım korporasiyası–S.H.) xəbər verir ki, səfər zamanı Netanyahu Azərbaycan Prezidenti İlham Əliyevlə iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi məsələlərini müzakirə edəcək”.

Haylar İranın nüvə proqramı ilə bağlı son vaxtlar yaşanan gərginliyin azaldılmasında Azərbaycanın mühüm rol oynaya biləcəyindən də qıcıqlanıblar. Bunu məqalədə əksini tapan fikirlərdən də görmək mümkündür: “Netanyahu ilə aparılacaq müzakirələrdə İran məsələsinin mühüm yer tutacağı aydındır. Bəli, Azərbaycan, hansı tərəfdən baxsan, bu münaqişədə də vasitəçi rolunu oynaya bilər. Bu vasitəçiliyin uğurlu olub-olmayacağı başqa məsələdir, amma istənilən halda rəsmi Bakı bir xal qazanmış olacaq. Ermənistan isə təəssüf ki, belə bir rol oynaya bilmədi. Əlbəttə, ilk növbədə ona görə ki, İsraildə ölkəmizi bu statusda görmürlər. Bakıda İsraillə Türkiyəni də barışdırmağa çalışırlar”.

“Aravot” qəzeti isə 30 aprel tarixli sayında yazır: “İranın Azərbaycanla strateji tərəfdaşlıq səviyyəsində əməkdaşlığı Ermənistanın milli təhlükəsizliyinə təhdid yarada (?) bilər. Tehran indiyədək Zəngəzur dəhlizinə qarşı idi. Lakin indi Azərbaycanla yeni infrastruktur layihələrində iştirak etməsi bu mövqenin dəyişdiyini göstərə bilər”.

“Lragir.am” saytının şərhində bildirilir: “Azərbaycanla İranın Araz çayı üzərindəki layihələrdə iştirakı bölgədə İranın maraqlarının dəyişdiyinə işarə edir. Ermənistan üçün vacib olan İran–Ermənistan əlaqələrinin prioritetliyini qorumaqdır. Yoxsa, İran da Azərbaycan–Türkiyə xəttinə meyillənə bilər”.

Siyasi analitik Tiqran Qriqoryan “CivilNet”ə açıqlamasında deyib: “İran balanslı mövqe nümayiş etdirməyə çalışır, lakin reallıqda Azərbaycanla əməkdaşlıq xətti güclənir. Bu isə Ermənistan üçün diplomatik çağırışdır. Xüsusilə Tehran–Bakı–Ankara üçbucağının mümkünləşməsi İrəvanda narahatlıq doğurur”.

Beynəlxalq münasibətlər üzrə ekspert Benyamin Poqosyan isə fikirlərini bu şəkildə ifadə edib: “İranın siyasəti praqmatikdir. O, bölgədə nüfuz uğrunda yarışda Ermənistandan çox Azərbaycanın imkanlarını qiymətləndirir. Ermənistan bu reallığa uyğun şəkildə diplomatiyasını yenidən qurmalıdır”.

Göründüyü kimi, İran Prezidentinin Azərbaycana rəsmi səfəri Ermənistan ictimaiyyəti və mediasında geniş müzakirələrə səbəb olub. Hayastan mediasında və siyasi dairələrdə İranın Azərbaycanla yaxınlaşmasından narahatlıq hiss olunur. Xüsusilə, İranın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən çıxışları Ermənistanda birmənalı qarşılanmır.

**Bu istiqamətdə fikirlərini öyrənmək üçün müraciət etdiyimiz Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, İran Prezidentinin səfəri Ermənistanda həm iqtidar, həm də müxalifət tərəfindən diqqətlə izlənildi. Onun sözlərinə görə, biz bu səfərlə bağlı İrəvandan narahatlıqları müşahidə etməkdəyik: “Ermənilər xüsusilə Pezeşkian amilinə diqqəti yönəldirlər. Səfər zamanı verilən səmimi qardaşlıq mesajları, dövlət başçılarının mehribanlıqla görüşməsi, əldə olunmuş razılaşmalar, əlbəttə, ermənilər tərəfindən həssaslıqla izlənilirdi. Çünki Ermənistanın quru yolla xaricə çıxışını məhz Gürcüstan və İran təmin edir. Gürcüstan öz ərazisindən yalnız yüklərin daşınması üçün tranzit keçidinə icazə verirdi və 2020-ci ilədək Tbilisi ilə İrəvan arasında siyasi baxımdan ciddi fikir ayrılıqları var idi. İranla isə əksinə, yəni həm iqtisadi-logistika, həm də siyasi mənada böyük işbirli-



yindən söhbət gedirdi. Bu vəziyyət 2020-ci ildən sonra da dəyişmədi. Belə olan təqdirdə Ermənistanda xüsusilə millətçi kəsim, revanşist qüvvələr və dünyadakı erməni diasporu üçün İrəvan–Tehran münasibətlərindəki sabitlik xəttinin davam etdirilməsi vacibdir. Aprelin 28-də Bakıdakı mənzərə isə onlarda narahatlığa səbəb oldu”.

Müsahibimiz qeyd etdi ki, Azərbaycan–İran münasibətləri Cənubi Qafqazda sabitləşdirici faktorlardan birini oynaya bilər. Məlum məsələdir ki, Azərbaycanla Türkiyə, Gürcüstan və Rusiya arasında bu və digər məsələlərlə bağlı razılaşmalar var. Ancaq İranla 2020-ci ildən sonra siyasi mövzularla bağlı razılaşmalar və ümumi fikir birliyi məsələsində suallar doğuran məqamlar heç də az deyildi. Bu məqamlara ümumiyyətlə, Cənubi Qafqazın gələcəyi, Azərbaycan və Ermənistan arasında sülhün necə olacağı, Zəngəzur dəhlizinin aqibəti və digər məsələlər daxil idi. Hətta iş o yerə çatmışdı ki, Zəngəzur bölgəsinin gələcəyi ilə bağlı bizim xoşumuza gəlməyən bəyanatlar verilirdi.

Politoloq bildirdi ki, əlbəttə, bütün bu istiqamətlərdə bundan sonra nələrin baş verəcəyini proqnozlaşdırmaq çətindir, amma İranın Zəngəzur dəhlizi ilə bağlı mövqeyinin dəyişməz olaraq qalacağını əminliklə söyləmək mümkündür: “Ancaq siyasi ritorikada, bəyanatlarda öz-özlüyündə edilən dəyişikliklər, İranın ən azı prezident səviyyəsində mülayimləşmə xəttini seçməsi, əlbəttə, iki ölkə arasında müxtəlif istiqamətlərdə münasibətlərin inkişafı üçün yeni perspektivlər açır”.

Z.Məmmədov dedi ki, hər bir halda Pezeşkianın səfəri dünya mediası tərəfindən də diqqətlə izlənildi və ümumi nəticə olaraq biz yəqin ki, liderlər arasında razılaşdırılmış yol xəritəsi əsasında yaxın vaxtlarda Bakı və Tehranın əməkdaşlıq istiqamətində əməli addımlar atacaqlarına şahidlik edəcəyik. Yəqin ki, bundan sonra digər rəsmi şəxslərin səfərləri də intensivləşəcək: “Ümumiyyətlə, hər kəsə məlumdur ki, Azərbaycan bu gün vacib dövlətdir. Bu və digər istiqamətlərdən ölkəmizlə münasibətlərin inkişafına böyük diqqət yetirilir. Tezliklə İsrail Baş nazirinin Bakıya edəcəyi dördgünlük səfər, Rusiyadan, Türkiyədən, Avropadan və ABŞ-dan ölkəmizə reallaşan səfərlər göstərir ki, dəyişən dünyada, beynəlxalq münasibətlərin yeni mərhələsinə start verildiyi dövrdə Azərbaycana maraq və diqqət artıb. Təbii ki, Azərbaycanı digər ölkələrdən fərqləndirən ən əsas üstünlüyümüz siyasi xəttə ardıcıllıq, sabit yanaşma və verdiyi sözə əməl etmək bacarığıdır. Əlbəttə, tərəfdaşlarımız da, bədxahlarımız da bunu çox yaxşı bilirlər. Ona görə də hər bir tərəf Cənubi Qafqazda məhz Azərbaycan vasitəsilə, ölkəmizin iştirakı ilə bu və digər layihəni həyata keçirməyə çalışır”.

***Səxavət HƏMİD***
***XQ***

# Güllə atmadan ölkəsinə azadlıq gətirmiş Qandinin nəvələri, dayanın!

## Bu nə müharibə isteriyasıdır?



**Əvvəla, rəsmi Nyu-Dehlinin terroru dəstəkləməsi nüvə dövlətinə yaraşmayan addımdır. Bu, az imiş kimi, Hindistan beynəlxalq müqavilələrə də etinasız yanaşır. Xeyir ola, dünyanın sonudurmu? Xeyr, dünyanın sonu olmayacaq, qarafikirlilərin siyasətinin sonu olacaq.**

*

Artıq dünyanın hər yerində, hamıya məlumdur ki, Pakistan hökuməti insan ölümü ilə nəticələnmiş Pahalqam hücumunu pisləyib, bununla bağlı açıq və şəffaf beynəlxalq araşdırma aparılmasını təklif edib. Üstəlik, həmin hadisənin törədilməsini boynuna götürən həqiqi terrorçu qrup da ortalıqdadır. Bəs elə isə Hindistan nə üçün həmin iyrənc addıma görə Pakistanı günahlandırır?

Rəsmi Dehlinin Pakistanı ittiham etmək üçün beynəlxalq ictimaiyyətə dəlil-sübut təqdim edə bilməməsi də göz qabağındadır. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mötəbər beynəlxalq təşkilatlar başda olmaqla dünya ictimaiyyətinə yaxşı məlumdur ki, Pakistan terrorizmin bütün forma və təzahürlərini pisləyir. Biz bunu İslamabadın terrorçu, təxribatçı və işğalçı Ermənistana münasibəti fonunda daha aydın görmüşük. Əksinə, Pakistanın özü bir çox hallarda Hindistan tərəfindən maliyyələşdirilən, planlaşdırılan və həyata keçirilən terrorizmin zərərdidəsi olmuşdur.

Beynəlxalq aləmdəki ekspertlərin fikrincə, rəsmi Nyu-Dehli uzun illərdir ki, daxili siyasi və təhlükəsizlik uğursuzluqlarını gizlətmək üçün əsasən müsəlmanların yaşadığı Cammu və Kəşmirin işğal olunmuş ərazilərində qəddarlıq və terrordan istifadə edir. Bu isə təkcə birmənalı şəkildə islamofobiyanın göstəricisidir.

Əgər Hindistanın siyasətində islamofobiya tərkibi yoxdursa, onda rəsmi Nyu-Dehli nə üçün işğal olunmuş Cammu və Kəşmirdə 700 mindən çox əsgər saxlayır? Həmin əsgərlər məhz siyasi rəhbərliyin iradəsinə güvənərək işğal altında olan ərazilərdə əhalinin, o cümlədən qadın və uşaqların yaşamaq hüququnu pozur, şərəf və ləyaqətini alçaldırlar. Bu, dini ayrı-seçkilik deyilmi? Əlbəttə, dini ayrı- seçkilikdir və çox təəssüf ki, bu istiqamət Hindistanda dövlət siyasəti səviyyəsində icra olunur.

Dünya mətbuatının son onilliklərdəki məlumatlarından xəbərdar olan hər kəs yaxşı bilir ki, Cammu və Kəşmirdə yerli əhalinin azadlıq mübarizəsini yatırmağı bacarmayan Nyu-Dehlinin Pakistanı nələrdəsə günahlandırması ilk hal deyil. Hindistan rəhbərliyi belə addımları dövri olaraq atır və təbii ki, heç bir müsbət nəticə əldə edə bilmir. Elə ona görə də son günlərdə nümayiş etdirdikləri aqressivliyə daha çox bel bağlayırlar. Bu fakt isə haqlı olaraq dünya ictimaiyyətində ciddi narahatlıq yaradır.

Politoloqların fikrincə, Hindistanın özündə də ciddi narahatlıq yaradan məqamlar var. Bu narahatlıq Pakistandakı iqtisadi inkişafdan yaranır. İslamabadın tərəqqisi, təbii ki, Pakistan Silahlı Qüvvələri və hüquq-mühafizə orqanlarının Hindistan tərəfindən təlim keçən və maliyyələşdirilən terrorçularla mübarizəsini də səmərəli edir.

Atılan çoxsaylı mənfi addımlarla Pakistanı müharibəyə təhrik edə bilməyən Nyu-Dehli siyasətçiləri daha ciddi fəsadlar verə biləcək yol axtarır və tapırlar. Məsələn, Hindistan hökuməti onilliklər boyu qüvvədə olan Hind Su Müqaviləsini birtərəfli və deməli, həm də qeyri-qanuni olaraq pozur. Halbuki, müqavilədə belə bir müddəa yoxdur. Dehli rəsmiləri yaxşı



bilirlər ki, Pakistanın əhalisi və iqtisadiyyatı Hind Su Müqaviləsi çərçivəsində İslamabada məxsus olan çaylardan asılıdır. Bu çaylar onlar üçün həyat mənbəyidir. Həmin müqavilənin dövri olaraq pozulması isə Hindistanın beynəlxalq müqavilələrə hörmətsizliyinin göstəricisidir. Fikrimizcə, bu addım dünya ictimaiyyəti üçün olduqca təhlükəli presedent yarada bilər.

Doğrudur, tarix boyu hind filosofları müharibə və münaqişələrin qarşısının alınması, sülh və sabitliyin qorunması məramı ilə olduqca dəyərli kəlamlar söyləyib və ya yazıblar. O cür müdrik əcdadlardan törəyən müasir hind siyasətçilərinin sudan silah kimi istifadə etməsi böyük bir xalqın adına ləkədir. Yaxud, qaşınmayan yerdən qan çıxararaq qonşu dövlətin müharibəyə sürüklənməsi Hindistan kimi böyük dövlətə bir güllə atmadan belə azadlıq gətirmiş Mahatma Qandinin sülh çağırışlarına böyük hörmətsizlikdir. “Biz nəticələri məlum olmayan addımlar atmayacağıq”–deyən Qandinin nəvə-nəticələri unudurlar ki, Hindistan hökumətinin bu məntiqsiz və məsuliyyətsiz addımları çox təhlükəli nəticələr verə bilər.

Dünya ictimaiyyətinə yaxşı məlumdur ki, Pakistan heç vaxt Hindistanı hansısa aqressiv mövqe və hərəkətləri ilə təhdid etməyib. Amma, bu o demək deyil ki, İslamabadın sülh istəyi, diplomatik təmaslar təklifi zəiflik göstəricisidir. Qətiyyən elə deyil. Pakistan dünya düzənində öz sözü olan, beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanan, dünyanın nüvə dövlətləri sırasında özünəməxsus mövqeyi və nüfuzu olan ölkələrdən biridir. Ona qarşı törədilən haqsızlıq və ədalətsizlik qətiyyən cavabsız qalmayacaq.

***İttifaq MİRZƏBƏYLİ***

# Ermənistan Xocalı soyqırımına görə üzr istəməlidir!

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev, həmçinin Xocalı faciəsinin dünya miqyasında tanınması və bu soyqırımı aktına hüquqi-siyasi qiymətin verilməsi üçün xarici aləmi ədalətli mövqe tutmağa çağırıb, Ermənistanın bu faciəyə görə məsuliyyət daşıdığını və beynəlxalq hüquq çərçivəsində cavabdeh tutulmalı olduğunu vurğulayıb. Ölkəmizin liderinin bildirdiyi ən mühüm fikir isə budur ki, Xocalı soyqırımının törədilməsində iştirak etmiş Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyan Azərbaycan xalqına qarşı qətllər törətmiş hərbi cinayətkarlardır.

Dövlətimizin başçısının bildirdiklərini yada salmağımızın konkret səbəbi var. Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərimizdə əsaslı yenidənqurma işləri aparılmaqdadır. Şübhəsiz, proses arxeoloqların və müvafiq sahə ekspertlərinin qazıntıları ilə paralel şəkildə gerçəkləşdirilir. Dünən isə məlum olub ki, aprel ayında aparılan qazıntılar zamanı iki kütləvi məzarlıq aşkarlanıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu rəhbərinin müavini Eldar Səmədov jurnalistlərə açıqlamasında deyib ki, kütləvi məzarlıqlardan biri Şuşa şəhərinin yaxınlığında, Şuşa – Xankəndi və Şuşa – Laçın yolunun birləşdiyi yerdə aşkarlanıb və oradakı qalıqların ən azı 5 nəfərə aid olduğu ehtimal edilir. Digər məzarlıq isə Xocalıda, Əsgəran – Xocalı yolunun üstündədir. Burada isə azı 7 nəfərə aid meyit qalıqları aşkarlanıb: "Mütəxəssislərin rəyinə görə, qalıqlar mülki şəxslərə aiddir. Onlar qeyri-ənənəvi yolla dəfn olunublar".

E.Səmədovun diqqətə çatdırdıqları son dərəcə vacibdir. Onun sözlərinə görə, indiyədək Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 3990 nəfər itkin düşmüş şəxs qeydiyyata alınıb. Son illərdə aparılmış axtarış-qazıntı və eyniləşdirmə prosesləri nəticəsində 170 vətəndaşın taleyinə aydınlıq gətirilib. Ən əsası isə: "Bu gün burada Ermənistanın törətdiyi yeni cinayət faktı ilə üz-üzəyik. Uzun illər Ermənistan tərəfi Xocalı soyqırımı ilə bağlı özünəməxsus yanaşma nümayiş etdirib. Onlar yalandan deyirdilər ki, mülki əhali Xocalını tərk edərkən onlara koridor açılıb. Bu gün burada tapılan kütləvi məzarlıq göstərir ki, heç bir humanitar dəhlizdən söhbət gedə bilməz".

Bəli, heç bir humanitar dəhliz olmayıb. Bunu həm Ermənistanın üçüncü prezidenti, qatil Serj Sarkisyanın Xocalı faciəsinin törədilməsinin azərbaycanlıları qorxutmağa, ermənilərin nə qədər qətiyyətli olduqlarını göstərməyə hesablandığını vurğulayan fikirləri, həm də cəllad-yazıçı Zori Balayanın kitabında təsvir olunmuş dəhşətli səhnələr sübuta yetirir. Yada salaq ki, Z.Balayan kitabında Xocalıda azyaşlı uşağa işgəncə verərək öldürdüyü ilə öyündüyünü qələmə alıb. Elə E.Səmədov da qazıntılar zamanı aşkar olunmuş qalıqlarda işgəncə izlərinin olduğunu vurğulayıb. "Beynəlxalq hüquqa görə, insanların girov götürülməsi qadağan olunsa da, burada insanlar girov götürülməklə yanaşı, işgəncələrlə qətlə yetiriliblər. Onlar qətlə yetirildikdən sonra kütləvi şəkildə dəfn olunublar", – deyən komissiya sədrinin müavini bildirib ki, Azərbaycan dövləti beynəlxlaq təşkilatların vasitəsilə həm Xocalı soyqırımı zamanı, eləcə də müharibədə itkin düşmüş vətəndaşların taleyinin araşdırılması məqsədilə Ermənistana sorğular göndərib, amma qarşı tərəf faktları gizlətməyə davam edir.






Bilavasitə işgəncəyə və zorakılığa gəlincə, E.Səmədov onu da vurğulayıb ki, aşkarlanan meyit qalıqlarında zorakılıq izləri aşkar görünür: "Onların ayaq, əl və kəllə sümüklərində küt alətlərlə vurulmuş zədələr var. Meyit qalıqları üzərində işgəncə izləri aşkar görünür. Geyimlərdən görünür ki, bu qalıqlar mülki şəxslərə aiddir. Mütəxəssislərin rəyinə görə, onların arasında qadınlar çoxluq təşkil edir. Qazıntı prosesi davam edir. Ola bilsin ki, yerin aşağı laylarında yenə meyit qalıqları tapılsın".

"Ermənilərin törətdiyi daha bir cinayət faktının aşkar edildiyi yerdəyik", – deyən Birinci Qarabağ müharibəsi iştirakçısı, jurnalist Rey Kərimoğlunun sözlərinə görə, dinc azərbaycanlılara qarşı vandallıq əməllərini törədənlər ədalət məhkəməsinə çıxarılıb layiq olduqları cəzanı almalıdırlar. Jurnalist tam haqlıdır və hesab edirik ki, Bakıda Azərbaycan ərazilərində törədilmiş çoxsaylı cinayət əməllərində təqsirli bilinən ermənilər üzərində davam edən məhkəmə prosesi bu baxımdan həlledici rol oynayacaq. Ancaq o da məlumdur ki, hazırda Ermənistan dövləti və onun havadarları məhkəməni gözdən salmağa, onun, guya, qurama mahiyyət daşıdığını bildirməyə, yekun nəticədə Azərbaycanın nüfuzuna xələl gətirməyə çalışırlar. Üstəlik, onlara dəstək verən bəzi dairələr var. Görünür, elə huna görə də R.Kərimoğlu dünyanı ikili standartlardan uzaq durmağa çağırıb.

Bəli, Ermənistanın hazırkı rəhbərliyi də özündən əvvəlki iqtidarın yolunu davam etdirərək, Xocalı həqiqətlərini etiraf etmək istəmir. Halbuki, hay iqtidarının sabiq rəhbərləri, Prezident İlham Əliyevin təbirincə desək, Ermənistan dövlətinin təməllərini terror və cinayət üzərində qurublar. Onlar ölkənin indi düşdüyü vəziyyətin səbəbkarlarıdır və rəsmi İrəvan keçmişin mənfi stereotiplərindən uzaqlaşmaq istəyirsə, obyektiv davranmalıdır. Halbuki, bu obyektivliyi görmürük. Gördüyümüz Ermənistanın yeritdiyi mənfur siyasətdir. O siyasət ki, onun ölkəni fəlakətə daşıdığı şübhəsizdir.

"Xocalıda baş verənlər insanlıq faciəsidir və buna siyasi yox, insani yanaşmaq lazımdır". Bu fikir isə erməni sülh fəalı Georgi Vanyana məxsusdur. Ermənistan və Azərbaycan xalqları arasında barışığın vacibliyini vurğulayan nadir erməni ziyalılardan biri olan G.Vanyan onu da demişdi ki, Xocalıda yaşananları tanımaq və anmaq lazımdır: "Biz Xocalıda baş verənləri bilməli və tanımalıyıq. Bu, bizim vicdan borcumuzdur. Əgər biz yalnız öz ağrımızı tanıyıb başqasınınkını rədd ediriksə, bu, sülhə aparmır."

Məlumdur ki, G.Vanyan İrəvanda Xocalı soyqırımı qurbanlarının anım tədbirini keçirməyə cəhd göstərmiş, ermənilər və azərbaycanlılar arasında dialoq mühitinin formalaşmasına çalışdığını bəyan etmiş, lakin onun cəhdi millətçi qrupların təzyiqi və təhdidləri səbəbindən təxirə salınmış, hüquq müdafiəsi ciddi hücumlara məruz qalmışdı. O da məlumdur ki, G.Vanyan təqiblər səbəbindən ömrünün son günlərini Gürcüstanda keçirmiş və 2021-ci ildə dünyasını dəyişmişdir.

Sonda onu da bildirək ki, Ermənistanda nə ikinci Vanyan var, nə də Azərbaycanla səmimi şəkildə sülh istəyən, Xocalı soyqırımına görə məsuliyyəti daşımağa hazır olduğunu bildirən kimsə. Ancaq məsuliyyət mütləq olmalıdır. Kütləvi məzarlıqların aşkarlanması və oradan tapılan insan qalıqları üzərində işgəncə izlərinin mövcudluğu Prezident İlham Əliyevin Xocalı soyqırımına görə məsuliyyət kontekstində səsləndirdiyi fikirləri bir daha aktuallaşdırır. Nəzərə alaq ki, dövlətimizin başçısının qəti şəkildə ortaya qoyduğu mövqe var. Bu mövqe Ermənistanın Xocalı faciəsinə görə Azərbaycan xalqından rəsmi şəkildə üzr istəməsi prinsipiallığına söykənir. Ölkəmizin lideri onu da bildirib ki, Ermənistan yalnız Xocalı dəhşətinə görə rəsmi şəkildə üzr istədiyi təqdirdə, sivil dövlət hesab edilə bilər: "Əgər Ermənistan Xocalı soyqırımına görə üzr istəmirsə, bu, onların bu cinayətə ortaq olduqlarını təsdiq edir. Ədalət bərpa olunmalıdır və günahkarlar cavab verməlidirlər".

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistan siyasi xaos girdabında



**(əvvəli 1-ci səhifədə)**

Bu gün Ermənistanda heç kəs öz işi ilə məşğul olmur. Yuxarılar cəmiyyəti normal idarə edə bilməyəndə rəiyyət, dövlətçilik ənənəsindən məhrum sıravi vətəndaşlar həmin "boşluğu" doldurmağa girişirlər. Əgər baş nazirin sözü Parisdən, yaxud Kaliforniyadan verilən təlimatlarla formalaşırsa, xarici işlər nazirliyinin əvəzinə Rostovda və ya Los-Ancelesdə yaşayan zəngin "yan"lar bəyanatlarla çıxış edirlərsə, deməli, xaos özünün pik həddindədir.

Bu barədə məqalə dərc edən "Hraparak" siyasi elitada, erməni cəmiyyətində, eləcə də xaricdəki erməni diasporunda baş verən prosesləri olduqca doğru və gözəl analiz edib. Qəzet Hayastanın bugünkü reallığına güzgü tutub. Bəli, doğrudan da, Ermənistan xaos girdabındadır. Son olay – vətəndaşın dövlət idarəsində döyülməsi bunun hüquqi müstəvidə inikasını üzə çıxardı. Ardınca digər sahələrdə də deqradasiyanın nümunələrini görəcəyik. Nəşr haqlı olaraq yazır ki, bu ölkədə "kimin hansı məzhəbə qulluq etdiyini müəyyən etmək çox çətindir". O da etiraf edilir ki, Ermənistanın taleyi gah Rusiyada, gah ABŞ-da, gah da Qərbdə həll olunur. Bu, onu deməyə əsas verir ki, Hayastan üçün qərarı xaricdəki qüvvələr verirlər. Erməni diasporu da, bir qayda olaraq, milli maraqlardan deyil, yaşadıqları ölkələrin siyasi maraqlarından çıxış edir.

Bir sözlə, Ermənistan qarşıdakı seçkilərə siyasi və psixoloji gərginlik vəziyyətində gedir. Məsafə uzun olsa da, siyasi mübarizənin güzəştsiz olacağını, hətta qanla müşayiət oluna biləcəyini proqnozlaşdıran ekspertlər var. Onlar siyasi hakimiyyətin ən qısa zamanda konkret qərarlar verməsə, sərt addımlar atmasa, vətəndaş qarşıdurmasının qaçılmaz olacağını bildirirlər.

Beş il altı ay bundan əvvəlki 44 günlük müharibə və ondan sonra cərəyan edən proseslər göstərdi ki, Nikol Paşinyan hakimiyyətə təsadüfən gəlmiş adam deyil. Kapitulyasiya aktına imza atmış hökumət başçısının 1 il sonra seçkilərdə qalib gəlməsi isə bu hipotezin nə qədər doğru olduğuna dəlalət edir. Digər tərəfdən boylanan reallıq onu deyir ki, bu gün Ermənistanda Paşinyanı əvəz edəcək, namizədliyini bütün siyasi qüvvələrin dəstəkləyəcəyi lider yoxdur. Bu amili nəzərə alaraq deyə bilərik ki, seçkiöncəsi ən sıx formada birləşmiş müxalifətin belə hakimiyyət dəyişikliyi cəhdlərinin faydası olmayacaq.

***İ. HƏSƏNQALA***
***XQ***

**EKSPERT RƏYİ**



**Şəbnəm ZEYNALOVA,**
**XQ-nin siyasi analitiki,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

– Ermənistanda siyasi gərginlik pik həddə çatıb. Nor Nork inzibati rayonunun rəhbəri Tigran Ter-Marqaryanın müxalif fəal Artur Çaxoyanı döyməsi ilə başlanan qalmaqal bu ölkədə hüququn aliliyinin kağız üzərində olduğunu sübut etdi. Baş verənlər Ermənistanın dərin siyasi və institusional böhran yaşadığını göstərir. "İndiki mərhələdə Paşinyanın alternativi yoxdur" – fikri, bəlkə də, mövcud durumu izah edən ən real yanaşmadır. Ermənistan parlamentindəki "Ermənistan" fraksiyasının deputatı Lilit Qalstyan məlum hadisəyə kəskin münasibət bildirib: "Bu, demokratiya deyil. Ölkə yarıazad statusundadır, insan həyatına və ləyaqətinə hörmət qalmayıb, siyasi rəhbərlik isə o dərəcədə cəzasızlıq içindədir ki, dövlət məmuru vətəndaşı inzibati binada döyməyə cəsarət edir".

Onun fikrincə, vəziyyətdən yeganə çıxış yolu hakimiyyətin dəyişməsidir. Lakin bu, realdırmı? Paradoks ondan ibarətdir ki, Ermənistan cəmiyyətində dərin narazılıq olsa da, Nikol Paşinyan hələ öz rəqiblərindən daha güclü görünür. Birləşmiş müxalifətin seçkiqabağı fəallaşması sosial şəbəkə çıxışlarından və küçə aksiyalarından o tərəfə keçmir. Koçaryan və Sarkisyanın təmsil etdikləri "Qarabağ klanı" isə artıq ictimaiyyət tərəfindən sülhdən qaçan, köhnə korrupsioner simalar kimi qəbul olunur. Belə bir durumda Paşinyanın alternativsizliyi siyasi acizlikdən deyil, müxalif qüvvələrin etibarsızlığından doğur.

Qarabağ müharibəsindən sonra bölgədə dəyişən geosiyasi reallıqlar Paşinyanı Qərblə danışıqlarda mühüm fiqur kimi saxlayır. Onun hakimiyyətdə qalması Qərbə yönəlik siyasi kursun davamı kimi dəyərləndirilir. Bütün bunlarla yanaşı, istər siyasi zorakılıq, istərsə də hüquq-mühafizə orqanlarının passivliyi Ermənistanda idarəetmənin sarsıldığını sübut edir. Bu, sadəcə, hökumət böhranı deyil, institutların və siyasi mədəniyyətin çöküşüdür. Və sual açıq qalır: Ermənistanı xaosdan çıxarmaq üçün dəyişiklik xalqın iradəsi ilə, yoxsa yenidən köhnə qüvvələrin siyasi manipulyasiyası ilə baş verəcək?

Bu müstəvidə nə Koçaryan, nə də Sarkisyan alternativ deyil. Onların adı artıq "keçmişin qaranlıq kölgəsi" ilə assosiasiya olunur. Ermənistanın çıxış yolu yalnız yeni siyasi mədəniyyətdən və islahatçı, amma real gücə sahib liderlikdən keçir. Əks təqdirdə, "idarədə döyülən vətəndaşlar" ölkənin gələcəyini təyin edən normaya çevrilə bilər.

# “3+3”: Cənubi Qafqazda yeni regional siyasətin konturları

**“3+3” formatı Azərbaycanın postmüharibə dövründə həyata keçirdiyi təşəbbüskar və çoxşaxəli diplomatiyanın bariz nümunəsi olmaqla, regionun tarixi geosiyasi parçalanmasını aradan qaldırmaq, onu müasir çağırışlara cavab verən inteqrasiya modelinə çevirmək potensialına malikdir. Bu təşəbbüs beynəlxalq hüquq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq, Cənubi Qafqazda sülhün, sabitliyin və rifahın təmin olunması üçün real imkanlar yaradır.**




Cənubi Qafqazda son onilliklərdə baş verən geosiyasi dəyişikliklərin ən mühüm dönüş nöqtələrindən biri 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi oldu. Müharibənin Azərbaycanın hərbi-siyasi Qələbəsi ilə nəticələnməsi yalnız ərazi bütövlüyünün bərpası baxımından deyil, həm də regionun gələcək taleyinə dair diplomatik və strateji vizyonun formalaşması baxımından yeni mərhələnin başlanğıcı sayılır. Məhz bu kontekstdə Prezident İlham Əliyevin irəli sürdüyü “3+3” formatı Cənubi Qafqazda yeni geosiyasi reallıqları nəzərə alan, bölgənin daxili potensialına əsaslanan və regional güclərin birgə iştirakı ilə davamlı sabitlik yaratmaq məqsədi daşıyan ciddi diplomatik təşəbbüs kimi meydana çıxdı.

## Tarixi və geosiyasi zərurət

“3+3” formatının təməlində dayanan əsas məqamlardan biri onun uzunmüddətli tarixi və geosiyasi zərurət kimi ortaya çıxmasıdır. Cənubi Qafqaz coğrafi mövqeyinə görə əsrlər boyu regional və qlobal güclərin maraqlarının toqquşma nöqtəsində yer almışdır. Xüsusilə, XIX əsrdən etibarən bu region Rusiya, Osmanlı (sonralar Türkiyə Respublikası) və İran arasında siyasi nüfuz mübarizəsinin əsas səhnəsinə çevrilmişdir. Bu üç gücün təsiri ilə formalaşan tarixi dinamika bölgənin yalnız kənardan yönəldilən siyasətlə deyil, eyni zamanda, daxili güc balansı və qarşılıqlı münasibətlər çərçivəsində sabitliyə qovuşa biləcəyini sübut etmişdir.

Sovet İttifaqının süqutundan sonra Cənubi Qafqazda yaranan siyasi vakuum regionun beynəlxalq münasibətlər sistemində yenidən şəkillənməsinə səbəb oldu. Qərb aktorlarının – xüsusilə, ABŞ və Avropa İttifaqının – regiona artan marağı burada yeni geosiyasi xəttin yaranmasına və rəqabətin kəskinləşməsinə gətirib çıxardı. Xarici müdaxilələrlə müşayiət olunan bu mərhələdə əməkdaşlıq əvəzinə, qarşıdurmalar ön plana çıxdı, xüsusilə də etnik və siyasi münaqişələrin alovlanması bölgədə sabitliyə mane oldu və bu amil Cənubi Qafqazın öz daxili dinamikası əsasında inkişaf edə bilməməsinin başlıca səbəblərindən birinə çevrildi.

2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsi isə bu geosiyasi reallıqlara fundamental təsir göstərdi. Müharibənin nəticələri regionda mövcud olan tarixi ədalətsizliyi aradan qaldırmaqla yanaşı, həm də yeni regional düzənə keçid üçün siyasi imkanlar pəncərəsi yaratdı. Azərbaycanın hərbi və diplomatik zəfəri bölgənin gələcək təhlükəsizlik memarlığının yalnız xarici aktorların deyil, məhz regional güclərin iştirakı ilə formalaşdırılmasının mümkün olduğunu göstərdi

“3+3” formatı ilk dəfə 2020-ci ilin dekabr ayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirilmiş birgə mətbuat konfransında Azərbaycan Prezidenti tərəfindən beynəlxalq ictimaiyyətə təqdim edildi və ideya Cənubi Qafqazın gələcəyinə dair strateji baxışın ifadəsi idi. Azərbaycan bu formatla həm region ölkələri arasında uzun müddət davam edən düşmənçilik və qarşılıqlı etimadsızlıq atmosferini aradan qaldırmaq, həm də bölgədə yeni əməkdaşlıq çərçivəsi qurmaq niyyətində olduğunu bəyan etdi.

Burada diqqətəlayiq məqam ondan ibarətdir ki, Azərbaycan bu təşəbbüsü irəli sürərkən müharibədən qalib çıxmış tərəf kimi revanşist yanaşmadan uzaq durmuş, əksinə, sülh və əməkdaşlıq çağırışı ilə çıxış etmişdi ki, bu da regional güclərin də diqqətini çəkmiş və formatın müzakirələrə açıq və cəlbedici olması üçün zəmin yaratmışdı.

## İştirakçı ölkələrin maraqları

“3+3” modelinin strukturu Cənubi Qafqazın əsas ölkələri olan Azərbaycan, Ermənistan və Gürcüstanla yanaşı, bölgəyə birbaşa təsir imkanlarına malik üç regional gücü – Rusiya, Türkiyə və İranı əhatə edir. Sözügedən kompozisiya həm tarixi baxımdan regionun güc balansını göstərir, həm də siyasi reallıqların təzahürü kimi çıxış edir. Formatın əsas fəlsəfəsi ondan ibarətdir ki, regionun problemləri və gələcək inkişafı xarici güclərin müdaxiləsi ilə deyil, məhz regiondaxili dialoq, qarşılıqlı anlaşma və ortaq maraqların koordinasiyası vasitəsilə həll olunmalıdır. “3+3” modeli beynəlxalq münasibətlər sistemində çoxpilləli diplomatiyanın və “regiondan-regiona” yanaşmanın praktikaya keçirilməsinin bariz nümunəsidir.

Bu təşəbbüsün arxasında dayanan siyasi məntiq ondan ibarətdir ki, region ölkələri həm də iqtisadi əlaqələrin bərpası, ticarət marşrutlarının canlandırılması, enerji və nəqliyyat layihələrinin koordinasiyası kimi sahələrdə də əməkdaşlıq etməlidir. Prezident İlham Əliyev bu format vasitəsilə regional sabitliyin mənbəyini qarşılıqlı maraqlar və ortaq iqtisadi baxışlar üzərində qurmağı təklif etmişdir ki, bu da regionda davamlı sülhün və rifahın təmin olunması üçün zəruri olan yeni təhlükəsizlik arxitekturasının yaradılması deməkdir.

Təşəbbüsün daha bir vacib aspekti onun geoiqtisadi ölçüsüdür. Müharibədən sonrakı dövrdə Azərbaycanın təşəbbüsü ilə gündəmə gətirilmiş nəqliyyat dəhlizləri, xüsusilə Zəngəzur dəhlizi və digər kommunikasiya layihələri, bu formatın real mexanizmlərlə dəstəklənməsinin mümkünlüyünü göstərir.

Azərbaycan üçün bu təşəbbüs ilk növbədə regionda yeni status-kvonun tanınmasına və sülh gündəminin gücləndirilməsinə xidmət edən mühüm siyasi vasitədir. İkinci Qarabağ müharibəsindən sonra yaranmış reallıqlar Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi və Cənubi Qafqazda siyasi təsirini artırması baxımından mühüm dönüş nöqtəsi oldu. “3+3” formatı vasitəsilə Azərbaycan həm iqtisadi inteqrasiyanı təmin etməyi, həm də beynəlxalq nəqliyyat və enerji marşrutlarında mərkəz oyunçusuna çevrilmək məqsədini reallaşdırmağa çalışır. Xüsusilə, Zəngəzur dəhlizi layihəsi bu strategiyanın əsas komponentlərindən biridir. Azərbaycanın bu formata verdiyi töhfə yalnız regional təhlükəsizliklə məhdudlaşmır, həm də ölkənin “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizləri üzərindəki rolu ilə üst-üstə düşən geniş geoiqtisadi vizyonun ifadəsidir.

Türkiyənin mövqeyi isə qardaş ölkə Azərbaycanla strateji ittifaq və regional güc balansında rolunun artması ilə əlaqəlidir. Ankara “3+3” formatını həm Cənubi Qafqazda mövcudluğunu dərinləşdirmək, həm də “Türk Dövlətləri Təşkilatı” çərçivəsində aparılan regional inteqrasiyanı dəstəkləmək vasitəsi kimi görür. Türkiyə üçün bu təşəbbüs həm də Qafqazla Orta Asiya arasında iqtisadi və enerji əlaqələrinin daha da gücləndirilməsi üçün siyasi zəmin yaradır. Ankaranın praqmatik yanaşması onu göstərir ki, Türkiyə bu formatda yalnız hərbi və təhlükəsizlik baxımından deyil, həm də iqtisadi və nəqliyyat baxımından geniş perspektivlər görür.

Rusiya isə “3+3” formatını postsovet məkanında təsir dairəsini qorumaq və Qərb təsirini balanslaşdırmaq üçün mühüm alət kimi qəbul edir. Moskva üçün bu təşəbbüs həm də regional təhlükəsizlik memarlığının Rusiya liderliyində təşəkkül tapmasına imkan verən struktur sayılır. Gürcüstanla problemli münasibətləri, Ermənistan üzərində təsir imkanları və Azərbaycanla balanslı əməkdaşlıq siyasəti Rusiya üçün bu formatda iştirakın əsas mənbəyidir. Rusiya, eyni zamanda, öz sərhədlərinə yaxın ərazilərdə sabitliyi təmin etməklə, Ukrayna və digər bölgələrdə üzləşdiyi təzyiqləri regional uğurlarla kompensasiya etməyə çalışır.

İranın yanaşması isə daha çox geoiqtisadi və geosiyasi rəqabətlə formalaşır. Tehran üçün “3+3” formatı Zəngəzur dəhlizi ilə əlaqədar bölgədə baş verən dəyişikliklərə nəzarət etmək və bu dəyişikliklərin öz milli maraqlarına təsirini təmin etmək üçün bir fürsətdir. İran Qərbyönlü alternativ nəqliyyat və enerji layihələrini balanslaşdırmaq, eyni zamanda, Ermənistan və Gürcüstan vasitəsilə Cənubi Qafqazda iqtisadi və siyasi təsirini artırmaq istəyir. İqtisadi sanksiyalar səbəbindən regional bazarlarla inteqrasiya Tehran üçün həyati əhəmiyyət daşıyır və bu baxımdan format İranın iqtisadi diplomatiyası üçün yeni nəfəs ola bilər.

Ermənistanın bu formata münasibəti isə ziddiyyətlidir. Əvvəllər formatı qəbul etməməsi və ya laqeyd qalması həm daxili siyasi qeyri-müəyyənliklər, həm də geosiyasi reallıqların tam dərk edilməməsi ilə bağlı idi. Lakin zaman keçdikcə İrəvanda da anlaşıldı ki, regional əməkdaşlıqdan təcrid olunmaq, xüsusilə kommunikasiya və enerji layihələrindən kənarda qalmaq ölkənin iqtisadi və siyasi gələcəyi üçün ciddi təhlükədir. Ermənistan üçün “3+3” formatı həm regional sülhün təmin edilməsi, həm də yeni iqtisadi imkanların yaradılması baxımından əhəmiyyətlidir və bu platforma vasitəsilə İrəvan həm Azərbaycanla münasibətləri normallaşdırıla, həm də İran və Rusiya ilə əlaqələri dərinləşdirilə bilər.

Gürcüstan isə öz növbəsində formatda iştirakla bağlı ehtiyatlı davranır. Tbilisinin əsas narahatlığı Rusiya ilə olan gərgin münasibətlərdir. 2008-ci il müharibəsindən sonra Gürcüstanın Rusiya ilə diplomatik münasibətləri pozulmuşdur və bu, formatın tam tərkibdə işləməsinə əngəl yaradır. Lakin bununla belə, Gürcüstan regionda iqtisadi əməkdaşlıq və nəqliyyat dəhlizlərinin inkişafına dəstək verdiyini açıq şəkildə bəyan edir. Əgər format siyasi gərginliklərdən uzaq, sırf iqtisadi və nəqliyyat yönümlü bir əməkdaşlıq platformasına çevrilərsə, Tbilisinin iştirakı da daha real görünə bilər.

Nəticə etibarilə, “3+3” formatı iştirakçı ölkələr üçün fərqli maraqların ortaq platformaya yönləndirildiyi mürəkkəb, lakin strateji baxımdan əhəmiyyətli təşəbbüsdür və formatın uğuru yalnız Azərbaycan və Türkiyənin təşəbbüsü ilə deyil, həm də bütün iştirakçıların öz milli maraqlarını regional sabitlik çərçivəsində uzlaşdırmaq istəyi ilə birbaşa əlaqəlidir.

## Beynəlxalq hüquqi əsaslar

“3+3” təşəbbüsünün irəli sürülməsi, eyni zamanda, beynəlxalq hüquq baxımından da məntiqli və qanunauyğun addımdır BMT Nizamnaməsində əks olunan prinsiplər – dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmama kimi universal dəyərlər burada təşəkkül tapmışdır. Belə yanaşma Azərbaycan diplomatiyasının son illərdə artan prinsipial və eyni zamanda, konstruktiv xarakterini nümayiş etdirir. Prezident İlham Əliyevin bu təşəbbüslə həm regionun gələcəyinə dair vizyonu, həm də hüquqa əsaslanan beynəlxalq münasibətlər sisteminə sadiqliyi ön plana çıxır.

Bununla yanaşı, formatın hüquqi əsaslandırması da beynəlxalq münasibətlər nəzəriyyəsində mühüm yer tutur. O, bölgənin öz daxili təşəbbüsünə əsaslanan, suveren dövlətlərin bərabərlik və qarşılıqlı hörmət prinsipləri çərçivəsində əməkdaşlıq etməsini nəzərdə tutur ki, bu da BMT Nizamnaməsinə və Helsinki Yekun Aktına uyğun olaraq, beynəlxalq hüququn əsas prinsiplərinə sadiqliyin göstəricisidir.

## Formatın perspektivləri

“3+3” formatı ilkin mərhələdə konseptual təşəbbüs kimi təqdim olunsa da, artıq praktik fazaya keçməkdədir. 2021-ci ilin dekabrında Moskvada, 2023-cü ildə isə Tehranda baş tutan görüşlər bu formatın real və əməli bir platformaya çevrilməkdə olduğunu nümayiş etdirdi və görüşlər konkret əməkdaşlıq istiqamətləri üzrə müzakirələrin aparılması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Hazırda format çərçivəsində ən önəmli əməkdaşlıq sahələrindən biri nəqliyyat və enerji infrastrukturunun inkişaf etdirilməsidir. Xüsusilə, Zəngəzur dəhlizi məsələsi “3+3” gündəmində mərkəzi yer tutur. Bu dəhliz Cənubi Qafqazı Orta Asiya və Avropa ilə birləşdirən strateji bir arteriya olmaqla yanaşı, regionda iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq üçün zəmin yaradır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Ceyhan neft kəməri və digər beynəlxalq layihələr bu prosesin texniki sütunlarını təşkil edir və regional əməkdaşlığın fiziki infrastrukturunu möhkəmləndirir.

Eyni zamanda, formatın gündəmində ticari əməkdaşlıq, gömrük prosedurlarının sadələşdirilməsi, sərhəd təhlükəsizliyi və logistika sahələrində koordinasiyanın gücləndirilməsi məsələləri də yer alır. Sözügedən istiqamətlərdə irəliləyişlər formatın əməli effektivliyini artırır və Cənubi Qafqazı daha rəqabətqabiliyyətli və cəlbedici iqtisadi məkana çevirə bilər.

Lakin bu praktiki addımların davamlı və uğurlu olması üçün siyasi etimad mühitinin formalaşdırılması vacibdir. Münaqişələrin tam həlli, qarşılıqlı etimadın bərqərar edilməsi və diplomatik dialoqun intensivləşdirilməsi formatın uzunmüddətli strateji hədəfləri sırasındadır. “3+3” təşəbbüsünün dayanıqlı bir regional əməkdaşlıq mexanizminə çevrilməsi üçün iştirakçı ölkələrin siyasi iradəsi, qarşılıqlı güzəştlərə hazırlığı və geosiyasi balansı qorumaq qabiliyyəti həlledici olacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Türkiyə və Macarıstanın Azərbaycan layihələri

## “MOL Group” və TPAO ölkəmizdə neft hasilatına öz töhfələrini verir

**“Türkiyənin TPAO şirkəti ilə Macarıstanın “MOL Group” neft şirkəti arasında 2024-cü ildə imzalanmış “Birgə tender sazişi” çərçivəsində tender prosesi uğurla başa çatdı. Beləliklə, Macarıstanın “Buzsak” və “Tamaşi” yataqlarında kəşfiyyat hüququnu əldə etdik. “Konsessiya sazişi”ni imzalamaqla bu sahədə tərəfdaşlığımızı rəsmiləşdirdik”. Bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar “X” sosial şəbəkəsindəki paylaşımında bildirib. Nazir qeyd edib ki, imzalanan sənədlər hər iki ölkə üçün yeni imkanlar açacaq. Ankara layihəyə ilkin mərhələdə 15 milyon avro sərmayə yatıracaq.**



Məhz Türkiyə Macarıstanı “Türk axını” vasitəsilə Rusiya qazı ilə təmin edir. Bundan əlavə, Azərbaycan qazı Bakı–Tbilisi–Ərzurum kəməri ilə Türkiyəyə nəql edilir və oradan Cənubi Avropaya, o cümlədən Macarıstana paylanır. Gələcəkdə Ankara Türkmənistandan xammal almaq istəyir. Lakin bunun üçün ən azı Xəzər dənizinin dibi ilə Azərbaycana qaz kəməri çəkmək lazımdır.

Xatırladaq ki, Macarıstanın çox kiçik karbohidrogen ehtiyatları var (12,1 milyon barel neft və 1,55 milyard kubmetr qaz). Bununla belə, düz bir il əvvəl, 2024-cü il aprelin 30-da MOL-un ölkənin mərkəzi hissəsində yeni, kifayət qədər böyük yataqlar tapdığı barədə məlumat yayılmışdı. Artıq bundan sonra onların kəşfiyyat və istismarı hər iki şirkət tərəfindən həyata keçiriləcək. Bu barədə “MOL Group”un sədri və baş icraçı direktoru Zsolt Hernadi deyib: “Mən dəyərli tərəfdaşımız “Turkish Petroleum” (TPAO) ilə birlikdə bu konsessiya müqaviləsini imzalamaqdan qürur duyuram. Bugünkü mərasim MOL və TPAO əməkdaşlığını yeni strateji səviyyəyə qaldırdı. Bu, aylarla davam edən zəhmətimizin nəticəsidir. TPAO-nun Macarıstanın hasilat sektoruna daxil olması, ona etimadımızdır. Təlatümlü geosiyasi mühitdə biznes tərəfdaşlığı bizim üçün hər zamankindən daha dəyərlidir. İnanıram ki, TPAO ilə tərəfdaşlığımız hər iki şirkətin portfelini qarşılıqlı şəkildə gücləndirəcək”.

TPAO şirkəti idarə heyətinin sədri və baş icraçı direktoru Əhməd Türkoğlu da əməkdaşlığı yüksək qiymətləndirib: “Azərbaycanda MOL ilə güclü və uzunmüddətli tərəfdaşlığımız var. Birgə sərmayələrimizlə güclənən əməkdaşlığımız birlikdə səmərəli fəaliyyətimizi davam etdirməyə ruhlandırdı. Bu inamla MOL ilə birgə kəşfiyyat müqaviləsi imzalayaraq konkret addımımızı atdıq. Müxtəlif regionlarda yeni birgə müəssisələri işə salacağıq”.

Qeyd edək ki, MOL Macarıstanın ən böyük karbohidrogen istehsalçısıdır, 30 ölkədə təmsil olunur və onun strukturlarından biri Azərbaycanda fəaliyyət göstərir. Hazırda MOL və TPAO Azərbaycanda “Azəri–Çıraq–Günəşli” (AÇG) yataqlar blokunun və Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işlənməsi layihəsinin səhmdarlarıdır. Şirkət AÇG yatağındakı payına görə SOCAR və BP-dən sonra üçüncü ən böyük səhmdardır. Burada istismar olunan neft laylarının altında və üstündə səmt qazı yataqları aşkar edilib. Yataq qaz ehtiyatları ilə zəngindir və təxminən 112 milyard kubmetr təşkil edir. Yeri gəlmişkən, 2024-cü ilin aprel ayından Macarıstan geosiyasi motivli diversifikasiya çərçivəsində Azərbaycan təbii qazını birbaşa alır.

Bundan başqa, SOCAR və MOL şirkəti arasında “Şamaxı–Qobustan sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilat haqqında” Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumuna əsasən, tərəflər Azərbaycanın karbohidrogen hasilatının artırılması istiqamətində əməkdaşlıq edirlər. Sənədin imzalanması SOCAR-ın prezidenti Rövşən Nəcəfin “MOL Hungarian Oil and Gas” şirkətinin sədri və baş icraçı direktoru Zsolt Hernadi ilə keçirdiyi görüşdə baş tutub. O vaxt Zsolt Hernadi bildirmişdi ki, bu, “MOL Group” üçün mühüm mərhələdir, çünki biz uzun illər neftin işlənməsindən sonra Azərbaycanda mövcudluğumuzu qaz yataqlarında genişləndiririk. Bu, SOCAR və AÇG layihəsində tərəfdaşlarımızla səmərəli əməkdaşlıq sayəsində mümkün olub”.

Zsolt Hernadi daha sonra bildirib: “Bu, həm də Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlıq üçün əlamətdar gündür və ölkələrimiz arasında mövcud olan mükəmməl münasibətlər sayəsində işgüzar əməkdaşlığımızı daha da dərinləşdirə bilmişik. AÇG ölkəmizə karbohidrogenlərin ən böyük beynəlxalq tədarükçüsü olduğu üçün bizim qiymətli daş-qaşımızdır. Bundan əlavə, MOL-un layihədə iştirakı iki ölkə arasında mühüm iqtisadi əlaqədir. Bundan başqa, AÇG Avropadan enerji təhlükəsizliyinin təmin edilməsində də mühüm rol oynayır. Yataq bizə həm Slovakiya, həm də Xorvatiyadakı neft emalı zavodlarımız üçün çevik şəkildə xam neft əldə etməyə imkan verir, ona görə də bütün region bu tərəfdaşlıqdan faydalanır.

Bunu nəzərə alaraq, dəyərli tərəfdaşımız SOCAR ilə əlavə Anlaşma Memorandumu imzalamaqdan şərəf duyuram. Bu, açıq şəkildə göstərir ki, bu tərəfdaşlığın böyük gələcəyi var. Mən AÇG-nin dənizlə bərabər quruda da gələcək kəşfiyyat uğurlarını səbirsizliklə gözləyirəm. Biz irəli getməyə və bundan daha çox istifadə etməyə açığıq”.

Yada salaq ki, “MOL Group”u “Azəri–Çıraq–Günəşli” yatağında 9,57 faiz paya sahibdir. Aralıq dənizi limanına xam neft nəql edən Bakı–Tbilisi–Ceyhan (“BTC”) boru kəmərində 8,9 pay almaqla Azərbaycana daxil olub. 2023-cü ilə qədər bu pay MOL-un ümumi istehsalının 15 faizini və ümumi ehtiyatların 25 faizini təşkil edib. Bu şirkət BTC boru kəməri ilə Mərkəzi və Şərqi Avropadakı neft emalı zavodlarının xam neftinin tədarükündə mühüm rol oynayır.

Azərbaycan aktivi həm də MOL-a Ceyhan limanında payına düşən neftin bir hissəsini üçüncü tərəflərə satmaq və ya Avropanın enerji təchizatının təhlükəsizliyinə töhfə vermək imkanı qazandırıb.

Macarıstan şirkətinin əməkdaşlıq etdiyi Türkiyənin TPAO şirkəti isə AÇG-də 5,73 faiz, BTC-də isə 6,53 faizlik paya sahibdir. Bu da onu göstərir ki, hər iki şirkət “Azəri–Çıraq–Günəşli” və Bakı–Tbilisi–Ceyhan kimi layihələr üzrə uğurlu əməkdaşlıq edirlər. Etibarlı tərəfdaşdırlar. Bu tərəfdaşlıq onların sonrakı enerji diplomatiyasının daha uğurlu olmasını təmin edib. Nəticədə, hər iki şirkət yuxarıda adları çəkilən layihələrdən başqa, 2014-cü ildən Rusiyanın “Baytuqan” yatağında da əməkdaşlıq edirlər. Bu yataq Rusiyanın Orenburq vilayətində yerləşir. MOL şirkəti “Baytex” layihəsinin 51 faizinə Niderlandın “MK Oil and Gas B.V” şirkəti vasitəsilə nəzarət edir. 2024-cü ildə “Baytex”də neft hasilatının səviyyəsi gündə 3,5 min barel təşkil edib. Bir il əvvəl isə bu göstərici 3,8 min barel idi.

Hər iki şirkət Azərbaycandan başqa, Rusiyada yeni qaz və neft layihələrinə qoşulmaqda maraqlıdır. Lakin konkret variantlar hələ işlənib hazırlanmalıdır. Bu barədə Rusiya Baş nazirinin müavini Aleksandr Novak bildirib: “Yeni layihələr müəyyən edilməyib, lakin ümumilikdə, biz ölkələrimiz arasında enerji sektorunda əməkdaşlığı genişləndirməyi nəzərdən keçiririk, çünki əməkdaşlığımız əsasən enerji resurslarının tədarükü ilə bağlıdır. Biz həmkarlarımızla əməkdaşlığın genişləndirilməsinə müsbət yanaşırıq”.

Beləliklə, hər iki şirkətin imzaladığı strateji tərəfdaşlıq sazişi onlara Xəzər regionundan başqa, Şimali Afrika və Yaxın Şərqdə, eləcə də Mərkəzi və Şərqi Avropada kəşfiyyat, yataqların işlənməsi və hasilat layihələrində birgə iştirak üçün geniş imkanlar açır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Milli Məclisin plenar iclası

**Mayın 1-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. S.Qafarova iclasda 13 məsələnin müzakirə olunacağını nəzərə çatdırıb.**

Gündəliyin birinci məsələsi barədə məlumat verən parlamentin sədri qeyd edib ki, Prezidentin təqdimatına əsasən, Milli Məclis Kamran Bayram oğlu Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilməsinə münasibət bildirməlidir.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələyə dair məlumat verib. O, Kamran Əliyevin Baş prokuror kimi çalışdığı dövrdə prokurorluq orqanlarında islahatların müasir tələblərə uyğun daha da dərinləşdirildiyini və öz müsbət nəticəsini verdiyini söyləyib. Komitə sədri bu illər ərzində ölkədə aparılan korrupsiyaya qarşı mübarizədə prokurorluq orqanlarının rolundan danışıb. Əli Hüseynli qeyd edib ki, müasir dövrdə Prokurorluq və hüquq-mühafizə orqanları, güc strukturları arasında səmərəli əməkdaşlıq mövcuddur. Bunun nəticəsində ölkəmizdə mütəşəkkil cinayətkarlığın bütün formalarına qarşı effektiv mübarizə həyata keçirilir.

Sonra Kamran Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilməsi məsələsi səsə qoyularaq qəbul edilib.

Plenar iclasda çıxış edən Kamran Əliyev onun bu mühüm vəzifəyə yenidən təyin olunmasına dair ali qanunvericilik orqanına təqdimatla müraciət etdiyi üçün Ali Baş Komandan, Prezident İlham Əliyevə öz adından və prokurorluq orqanlarının kollektivi adından təşəkkürünü ifadə edib.

Sonra parlamentin sədri növbəti 4 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.



Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Ailə Məcəlləsində, Mülki Məcəllədə, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Uşaq hüquqları haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Azər Əmiraslanov məsələyə dair rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini nəzərə çatdırdıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

A.Əmiraslanov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə danışıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Milli Məclisin sədri Sahibə Qafarova digər iki məsələnin bir oxunuşda qəbul ediləcəyini söyləyib. O, növbəti məsələnin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu nəzərə çatdırıb. Komitə sədri Əli Hüseynli bu qanun layihəsi barədə məlumat verərək, sənədin ölkə Prezidenti tərəfindən təqdim olunduğunu deyib. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Komitə sədri A.Əmiraslanov "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi barədə söhbət açıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin sədri gündəliyin qalan 6 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib. "Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev təqdim edib. Mülki Prosessual Məcəllədə və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Komitə sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinin mahiyyəti haqqında məlumat verib. mək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov təqdim edib. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu məlumat verib. Qanun layihələri səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***XQ***

## Xuntaçıların məhkəməsi

# Erməni quldurların Qaradağlı kəndində törətdikləri kütləvi qırğın və işgəncələr tədqiqini tapıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 1-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə hakim Zeynal Ağayev məhkəmədə ingilis dilində materialın tədqiq olunması ilə əlaqədar prosesdə ingilis dilində tərcüməçi qismində iştirak edəcək Zeynəb Salamovanı təqdim edib.

Hakim prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Prosesdə təqsirləndirilən şəxs Arkadi Qukasyanın Şuşanın işğalından dərhal sonra orada olmasını əks etdirən videomaterial nümayiş etdirilib.

Videomaterialın tədqiqi zamanı Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli görüntülərin Şuşanın işğalından dərhal sonra çəkildiyini bildirib və A.Qukasyana suallar ünvanlayıb.

Təqsirləndirilən şəxs suallara cavabında videokadrlarda özü ilə birlikdə Şuşada olan şəxslərin adlarını sadalayıb: "Ortada mülki geyimdə olan sürücüdür. Mənim arxamda kostyumda olan Oleq İsayandır. Arxa planda Armen İsaqulovu tanıdım. İkinci Zori Balayandır. Mülki geyimdə olan şəxs Vasili Atacanyandır. İndi sürücünün yerinə Yepiskop Parqev yaxınlaşdı... Digərlərini tanımıram. Görünür ki, sadəcə, hərbçilərdir".

Ardınca təqsirləndirilən şəxs Davit İşxanyanın Şuşanın işğalının qarşısını almaq istəyən Azərbaycan hərbçilərinin yolunu bağlaması barədə videomaterial nümayiş olunub.

Videomaterialda deyilir ki, Azərbaycan hərbçilərinin Şuşanın işğalının qarşısını almaq məqsədilə Xocavənd istiqamətində irəliləmələrini dayandırmaq üçün D.İşxanyan və onun dəstəsi Monte Melkonyanın əmri ilə yolu bağlayıblar.

Videokadrlarda bildirilir ki, 1992-ci il mayın 15-də dəstə komandiri Armen Avokyan döyüş zamanı ölüb, onun yerinə Davit İşxanyan təyin olunub.

Təqsirləndirilən şəxs D.İşxanyan dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında videomaterialda yer alan faktların düzgün olmadığını, bunun təbliğat məqsədilə çəkildiyini iddia edib. O deyib ki, nümayiş olunan videomaterial 2020-ci ilin əvvəllərində Azərbaycanın vaxtilə işğal altında olan ərazilərində qondarma rejimin "parlament və prezident seçkiləri" ərəfəsində çəkilib. "Bunun məqsədi təbliğat idi. Mən həmin vaxt əsa ilə gəzirdim. İstəsəydim belə, fiziki cəhətdən orada iştirak edə bilməzdim", - deyə o əlavə edib.

Məhkəmədə təqsirləndirilən şəxs Arayik Harutyunyanın müsahibəsinin yer aldığı videomaterialdan kadrlar da nümayiş etdirilib və tədqiq olunub. A.Harutyunyan filmdə erməni tağım komandirlərindən biri barədə Kərkicahan, Malıbəyli və digər döyüşlərdə iştirak etməsindən danışır.

A.Harutyunyan dövlət ittihamçılarının suallarını cavablandırarkən həmin döyüşlərdə iştirak etmədiyini, adıçəkilən döyüşlər zamanı İrəvanda Kənd Təsərrüfatı İnstitutunda ali təhsil aldığını iddia edib. O bildirib ki, 2020-ci ildə qondarma rejimdə "namizəd" olarkən müharibə zamanı "xidmətləri"nin şübhə altına alınmaması üçün belə çıxış edib. A.Harutyunyan deyib: "Özümə sənəd hazırlayanda şahidlər çağırmışdım desinlər ki, guya mən döyüş əməliyyatlarında iştirak etmişəm. Orada mənim həmin dövrdə olan xidmətim əks etdirilməli idi. Onlar orada o məlumatı verməli idilər ki, mənim orada iştirak etməyimin şahidi olublar. Mən, ümumiyyətlə, o məlumatları (döyüşlərlə bağlı – red.) dostlardan almışam və sentyabrdan guya onlarla xidmət etmişəm. Təfsilat barədə qardaşımın gündəliyindən tanışam. Bunlar olmasaydı, 2020-ci il "seçkiləri" zamanı mənim həmin dövrdə xidmətim şübhə altına alınardı. Hansısa bir şey çəkilməli idi və götürülməli idi ki, mən döyüşlərdə iştirak etmişəm. Amma fakt budur ki, mən həmin vaxt tələbə olmuşam".

O, öz vəkilinin sualını cavablandıran zaman isə deyib ki, Qarabağa birdəfəlik 1993-cü il avqustun sonu-sentyabrın əvvəlində köçüb.

Arayik Harutyunyan dövlət ittihamçılarının suallarını cavablandırarkən Şuşanın işğalı əməliyyatına rəhbərlik edən şəxslərin Laçın rayonunun işğalında da iştirak etdiklərini bildirib.

O, ötən məhkəmə prosesində nümayiş olunan videomateriala istinad edərək Şuşanın işğalına rəhbərlik edən şəxslərdən (Samvel Babayan, Seyran Ohanyan, Valeri Çitçyan, Arkadi Karapetyan və s.) Valeri Çitçyan istisna olmaqla, digərləri ilə tanış olduğunu deyib.

"Filmdə nə deyilirsə, reallığa uyğundur. Onlar təkcə Şuşa əməliyyatında yox, Laçın əməliyyatında da iştirak ediblər. Demək istəyirəm ki, Şuşa əməliyyatı ilk vahid əməliyyat idi. Onlar əməliyyatı daha bir neçə gün - mayın 17-dən 19-dək davam etdiriblər.

A.Harutyunyan Zori Balayanın tez-tez Qarabağa gəldiyini, bütün rəhbər şəxslərlə görüşdüyünü də bildirib.

Məhkəmədə Qaradağlı kəndinin işğalına qədər baş vermiş bir sıra cinayət hadisələri, o cümlədən Qaradağlıda Azərbaycan vertolyotunun vurulması ilə bağlı sənədlər nümayiş etdirilib və tədqiq olunub.

Bu cinayətlərə 1989-cu, 1990-cı və 1991-ci illərdə Qaradağlı kəndinə ermənilər tərəfindən müxtəlif hücumların edilməsi, azərbaycanlı əhalinin qətlə yetirilməsi, meyitlərin yandırılması, onlara xəsarətlərin yetirilməsi, kəndin talan edilməsi, sakinlərin mal-qaralarının aparılması və s. daxildir. Habelə azərbaycanlıların olduqları sərnişin avtobuslarının dəfələrlə atəşə tutulması nəticəsində ölənlər və yaralananların olması faktları ilə bağlı sənədlər nümayiş etdirilib.

Məhkəmədə 1991-ci il noyabrın 20-də Qarakənddə vertolyotun vurulması faktı üzrə protokollar da tədqiq edilib. Bildirilib ki, hadisə zamanı vertolyotda olmuş 22 nəfərin hamısı həlak olub. Fakta görə, həmin gün Xankəndi Hərbi Prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılıb. Hadisə yerinə baxış zamanı Məhəmməd Əsədovun, İsmət Qayıbovun, İqor Plavskinin, Nikolay Jinkinin tabel silahları və operator Fəxrəddin Şahbazovun sərəncamında olan "Panasonic 450 AJ" markalı videokamera tapılmayıb.

Məhkəmədə Monte Melkonyanın qardaşı Markar Melkonyanın "Mənim qardaşımın yolu" adlı kitabından bir hissə elan olunub. Həmin hissədə deyilir: "Günorta saat 5-dək hərbi dəstələr hərbi məqsədlərinə nail olmuşdular. Həmin gün ermənilər tərəfindən bir döyüşçü öldürülmüşdü. Azərbaycanlılardan isə iki nəfər həlak olmuşdu və 48 nəfər əsir götürülərək yük maşınına yığılmışdı".

Kitabda, həmçinin "Şram Edo" kimi təqdim olunan erməni hərbçinin bir neçə yaralı azərbaycanlı əsgərin üzərinə benzin töküb onları diri-diri yandırmasından da bəhs edilir. Kitabda deyilir: "Monte kəndin qırağında yerləşən xəndəyə gəldiyi zaman ora artıq ət parçaları olan bir qəssabxanaya çevrilmişdi".

Daha sonra məhkəmədə həmin hadisələrin canlı şahidləri – zərərçəkmiş şəxslər ifadə verib, onlara ünvanlanan sualları cavablandırıblar.

Zərərçəkmiş şəxs Seyyur Nağıyev ifadəsində Qaradağlı kəndində dünyaya gəldiyini, həmin kəndin sakini olduğunu, təqsirləndirilən şəxslərdən Davit İşxanyanı tanıdığını bildirib və deyib: "Bizim qonşu kənddəndir".

S.Nağıyev diqqətə çatdırıb ki, erməni hərbçilər 1992-ci ildə Qaradağlını işğal edənə qədər mütəmadi olaraq kəndə hücum edib, mülki insanları qətlə yetirib, evlərini yandırıb, mal-qaralarını talayıblar. O deyib ki, 1992-ci il fevralın 15-dən 17-dək Qaradağlıya bütün istiqamətlərdən hücum olub, kənd mühasirəyə alınıb. Hücum əməliyyatında muzdlular da iştirak ediblər. Zərərçəkmiş Baş Prokurorluğun dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında deyib ki, erməni hərbçilərin kənd sakinlərinə hücumu 1989-cu ildən başlayıb.

O, Qaradağlının işğalı zamanı əzizlərinin, o cümlədən qardaşının, əmisinin və əmisinin üç oğlunun qətlə yetirildiyini deyib və onların adlarını çəkib: "Dadaşov Eldar İsa oğlu, Nağıyev Aftandil Xanlar oğlu, Dadaşov Uğur Eldar oğlu, Dadaşov Mikayıl İslam oğlu, Dadaşov Manaf İslam oğlu. İki yeznəmiz, əmimin yeznələri... Əslində, Qaradağlıda öldürülənlərin hamısı qohum idi. Onların bəzilərinin taleyi hələ də naməlumdur".

Zərərçəkmiş şəxs deyib ki, kənd işğal olunanda onu da digər sakinlər kimi, girov götürərək Xankəndiyə aparıblar: "Soyuq, şaxtalı havada girovlara dəhşətli işgəncələr verilirdi", - deyə o xatırlayıb.

O, bir müddət girovluqda saxlanıldıqdan sonra Allahverdi Bağırovun vasitəçiliyi ilə Azərbaycan tərəfinə təhvil verildiyini bildirib.

S.Nağıyev vurğulayıb ki, kəndə hücumlar zamanı erməni hərbçiləri "Arabo" batalyonunun komandiri Manvel Yeqiazaryan idarə edirdi.

Bu zaman dövlət ittihamçısının təklifi ilə məhkəmədə Manvel Yeqiazaryanın fotosu nümayiş etdirilib.

S.Nağıyev fotodakı şəxsi tanıdığını, onun Manvel Yeqiazaryan olduğunu deyib.

Zərərçəkmiş Qaradağlı sakini Vidadi Hüseynov hadisələrin 1988-ci ildən başladığını, mütəmadi olaraq azərbaycanlılara hücumların edildiyini diqqətə çatdırıb. Bildirib ki azərbaycanlılar qətlə yetirilirdi. "Avtobuslara hücum edib mülki insanları atəşə tuturdular. Dinc sakinləri diri-diri yandırıb mal-qarasını talayırdılar. Azərbaycanlıları ağaca bağlayıb güllələyirdilər", - deyə o əlavə edib.

Onun sözlərinə görə 1992-ci ilin fevralında Qaradağlıya dörd tərəfdən hücum olub. Zərərçəkmiş şəxs deyib ki, hücum zamanı kənddə 118 mülki azərbaycanlı, o cümlədən qadınlar, uşaqlar, qocalar olub. Həmin mülki əhaliyə qarşı 400-500 silahlı erməni hücum edib. Hücum edənlərin bir hissəsi Ermənistandan gələn döyüşçülər, bir hissəsi muzdlular olub. Fevralın 17-də kənd işğal edilib.

Zərərçəkmiş şəxs İlqar Hüseynov işğal zamanı girov götürüləndən sonra yük maşınları ilə aparıldıqlarını, "Bəylik bağı" adlanan yerdə 33 nəfərin güllələndiyini bildirərək deyib: Həmin yerdə saxladılar, orada 33 nəfəri güllələdilər. Qalan insanları, o cümlədən məni Xankəndi istiqamətində apardılar".

O, Xankəndidə saxlanıldığı vaxt işgəncələr gördüyünü, 45 gün sonra erməni əsirlə dəyişdirildiyini bildirib.

Zərərçəkmiş şəxs Əmiraslan Quliyev 1992-ci il fevralın 17-də erməni hərbçilərinin Qaradağlıya dörd tərəfdən hücum etdiyini bildirib. Zərərçəkmiş şəxsin sözlərinə görə, girov götürülən azərbaycanlıların 30-dan çoxunu maşından düşürüb güllələyiblər. Meyitləri yaxınlıqdakı quyuya atıblar. Yolda bir neçə dəfə maşınları saxlayaraq əsirlərin bəzilərini güllələyiblər. Digərlərini Xankəndiyə aparıb, orada onlara işgəncələr veriblər.

Zərərçəkmiş Baxşeyş Hüseynov bildirib ki, 1992-ci ilin fevralında kənd işğal olunanda onu girov götürüblər: "Məni digər əsir və girovlarla bərabər Xankəndiyə apardılar. Orada bizə hər gün işgəncələr veriblər. Bədənimizi bizlə deşiblər". Zərərçəkmiş şəxs 56 gün girovluqda qaldığını qeyd edib.

Zərərçəkmiş Şamxal Şirinov da 1991-1992-ci illərdə Qaradağlının mütəmadi şəkildə atəşə tutulduğunu, kənd sakinlərinə hücumlar olunduğunu, azərbaycanlıların qətlə yetirildiyini, əmlaklarının talan edildiyini deyib. O bildirib ki, kənd həmin vaxt faktiki mühasirədə olub, onun digər ərazilərlə bütün əlaqələri kəsilib, nəticədə ciddi şəkildə ərzaq çatışmazlığı yaranıb. Kənd işğal olunanda onu da girov götürüblər. Onunla bərabər girov götürülənlərin bir qismi güllələnib. Zərərçəkmiş şəxs deyib ki, girov saxlandığı zaman ona dəhşətli işgəncələr verilib, dişlərini çəkib çıxarıblar, döyüb, bədəninə çoxsaylı xəsarətlər yetiriblər.

Məhkəmənin növbəti iclası mayın 2-nə təyin olunub.

***XQ***

# BVF: Azərbaycanın bank sistemi maliyyə böhranına dözümlüdür

## Qurum qarşıdakı 5 ildə ölkəmizdə ÜDM-in 101 milyard dollara çatacağını proqnozlaşdırır

**Beynəlxalq Valyuta Fondunun (BVF) hesabatında Azərbaycan iqtisadiyyatının 2015-ci ildə qlobal neft qiymətlərinin çökməsi və 2020-ci ildə COVID-19 pandemiyası nəticəsində baş verən iki ciddi maliyyə tənəzzülündən sonra yenidən əvvəlki vəziyyətə yönəldildiyi bildirilib. Hesabatda son 10 ildə ölkənin valyuta ehtiyatlarının 2 dəfə artdığı, bankların üstünlük təşkil etdiyi maliyyə sektorunda isə genişmiqyaslı islahatlar aparıldığı da vurğulanıb.**

BVF-nin hesablamalarına əsasən, 2015–2016-cı illər böhranından dərs çıxaran banklarda kapitalın adekvatlıq əmsalı yüksəlib, açıq valyuta mövqeləri isə azalıb. Beləliklə, stress – testlərin nəticələrinə görə, Azərbaycanın bank sistemində həm xarici, həm də daxili ciddi sarsıntılar fonunda dayanıqlılıq saxlanılıb.

Bütün bunlarla yanaşı, bankın analitikləri bildirirlər ki, əlverişsiz ssenarilərdə kapitalın ümumi uyğunluq əmsalı 4,5 faizlik göstəriciyə qədər azala, bank sektorunun aktivlərinin 35 faizini təşkil edən 23 bankdan 8-nin əlavə kapitala ehtiyacı hiss oluna bilər. Lakin bank aktivlərinin ümumi kapital defisiti ÜDM-in 0,5 faizi həcmində qiymətləndirilir. Likvidlik testləri də göstərir ki, sektor bütövlükdə ciddi sarsıntılara belə tab gətirmək üçün kifayət qədər buferlərə malikdir. Bununla belə, bəzi banklar sarsıntılara həssasdır. Xüsusilə, korporativ əmanətlərin yüksək payı bəzi bankları iri həcmdə vəsaitlərinin birdən-birə çıxarılması riskinə qarşı həssas edir.

BVF-nin hesabatında 2015-ci ildə aparılan əvvəlki maliyyə sektoru qiymətləndirməsindən sonra əldə olunan irəliləyiş də yüksək dəyərləndirilib. Fondun analitiklərinin fikrincə, Azərbaycan Mərkəzi Bankında banklara nəzarət əhəmiyyətli dərəcədə gücləndirilib, milli özəllikləri nəzərə almaqla "Basel III" standartları tətbiq edilib və makroprudensial siyasətin inkişafı diqqətdə saxlanılıb. Həmçinin, bankların fövqəladə maliyyələşdirilməsi mexanizmi təkmilləşdirilib və maliyyə institutlarının probleminin həlli üçün hüquqi baza müasirləşdirilib.



Qeyd edək ki, BVF 2030-cu ilin sonuna Azərbaycanda ÜDM-in nominal həcminin 2,5 faiz real artımla 171,522 milyard manat (100,895 milyard dollar) olacağını proqnozlaşdırır. Eyni zamanda, 2025-ci ildə respublikamızda ÜDM-in nominal həcminin 3,5 faiz real artımla 134,078 milyard manat (78,87 milyard dollar) səviyyəsində gözlənildiyi bildirilir.

Məlumata görə, 2026-cı ildə ölkədə ÜDM-in nominal həcmi 2,5 faiz real artımla 139,182 milyard manat (81,872 milyard dollar), 2027-ci ildə 2,4 faiz real artımla 145,847 milyard manat (85,792 milyard dollar), 2028-ci ildə 2,4 faiz real artımla 153,556 milyard manat (90,327 milyard dollar), 2029-cu ildə isə 2,5 faiz real artımla 162,135 milyard manat (95,373 milyard dollar) səviyyəsində proqnozlaşdırılır.

Proqnozlara görə, 2025-ci ildə qeyri-neft sektorunda ÜDM-in nominal həcmi 94,674 milyard manat (illik artım 10,46 faiz), 2026-cı ildə 102,595 milyard manat (+8,37 faiz), 2027-ci ildə 110,434 milyard manat (+7,64 faiz), 2028-ci ildə 118,825 milyard manat (+7,6 faiz), 2029-cu ildə 127,903 milyard manat (+7,64 faiz), 2030-cu ildə isə 137,675 milyard manat (+7,64 faiz) təşkil edəcək.

BVF-nin hesabatında 2031-ci ilə qədər Azərbaycanın strateji valyuta ehtiyatları ilə bağlı proqnozları da açıqlanıb. Belə ki, sənəddə 2030-cu ilin sonuna Azərbaycanın strateji valyuta ehtiyatlarının 72,709 milyard dollara (il ərzində artım 0,73 faiz) çatacağı bildirilib.

Hesabata görə, strateji valyuta ehtiyatlarının artımı Azərbaycan Dövlət Neft Fondunun aktivlərinin artaraq 62,949 milyard dollar (illik artım 1,17 faiz) təşkil etməsi hesabına gerçəkləşdiriləcək, proqnoza əsasən, Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları isə 9,76 milyard dollar (il ərzində azalma 2,01 faiz) səviyyəsində olacaq.

Yeri gəlmişkən, 2025-ci ildə Azərbaycanın strateji valyuta ehtiyatları 71,671 milyard dollar (illik artım 0,96 faiz) səviyyəsində proqnozlaşdırılır. Bu məbləğin 10,76 milyard dollarını (illik azalma 1,82 faiz) Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları, 60,911 milyard dollarını (artım 1,47 faiz) isə Azərbaycan Dövlət Neft Fondunun aktivləri təşkil edir.

Yeri gəlmişkən, Dövlət Neft Fondunun (DNF) məlumatına görə, Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 2025-ci il aprelin 1-nə 74 milyard dollara (bu, indiyə qədər qeydə alınan rekord həcmdir) yüksəlib. Bununla da strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 3 milyard dollar və ya 4 faiz çoxalıb.

DNF bildirir ki, 2025-ci il mart ayının 31-nə bu fondun aktivləri 2024-cü ilin sonuna (60 milyard dollar) nisbətən 4,5 faiz artaraq 62 milyard 740,2 milyon dollara yüksəlib. Mərkəzi Bankın strateji valyuta ehtiyatları isə ilin əvvəlində 10 milyard 959,5 milyon dollar olduğu halda, rübün sonuna 11 milyard 26,5 milyon dollar olub.

Yeri gəlmişkən, strateji valyuta ehtiyatları – bir ölkənin Mərkəzi Bankı və ya DNF tərəfindən saxlanılan xarici valyuta, qızıl ehtiyatları və digər beynəlxalq likvid aktivlərdir. Bu ehtiyatlar əsasən ABŞ dolları, avro, funt sterlinq və digər güclü valyutalarda saxlanılır. Mərkəzi Bank və DNF ehtiyatlardan səmərəli istifadə edərək manatın məzənnəsinin sabit saxlanılmasında əsas rol oynayır.

BVF-nin hesabatında yuxarıda vurğulananlarla yanaşı, Azərbaycana maliyyə nəzarətini gücləndirməyin və Mərkəzi Bankın müstəqilliyini möhkəmləndirməyin zəruriliyini də tövsiyə edir.

BVF qeyd edir ki, müəyyən irəliləyişlərə baxmayaraq, maliyyə sektorunda bir sıra problemlər hələ də həllini tapmayıb. Bunlara konsolidasiya edilmiş nəzarət sisteminin tətbiqi, böhranlara hazırlaşmaq və onları idarə etmək üçün idarələrarası qurumun yaradılması, AMB-nin müstəqilliyinin, hesabatlığının və düzgün idarə edilməsinin gerçəkləşdirilməsi, mübahisələrin həlli sahəsində onun səlahiyyətlərinin genişləndirilməsi zərurəti daxildir.

Fondun analitikləri vurğulayırlar ki, AMB-nin qanunvericilik bazasının gücləndirilməsi və onun müstəqilliyinin, hesabatlığının, resurs təminatının və nəzarətə yanaşmanın gücləndirilməsi nəzarət fəaliyyətinin səmərəliliyini artıracaq.

# Azad Ağalıda Aqrar Biznes Festivalı

## *Arazboyu bölgədə önəmli layihələrə meydan açılır*



**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə növbəti festival Zəngilan rayonunun Ağalı kəndində keçirilib. Aqrar Biznes Festivalında işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin inkişafına dəstək göstərmək, fermerlərin müasir texnologiyalarla tanışlığını və onlara əlçatanlığını təmin etmək məqsədilə təşkil olunub.**

Nazirliyin məlumatına görə, festivalın rəsmi açılış hissəsində kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Zəngilan, Cəbrayıl, Qubadlı, Füzuli, Beyləqan və digər ətraf rayonlardan fermerlər iştirak ediblər.

Açılış mərasimində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev çıxış edərək bildirib ki, Ağalı kəndi "Böyük Qayıdış"ın ilk ünvanı olub: "Artıq 3 ildir ki, Ağalıda həyat var. Çox sevindirici haldır ki, ilklərin yaşandığı Ağalı kəndində bu gün ilk dəfə kənd təsərrüfatı festivalı baş tutur. Burada aqrar sahə üzrə ixtisaslaşmış şirkətlər, fermerlər bir araya gəlib öz xidmətlərini və məhsullarını təqdim edirlər. Düşünürəm ki, belə bir tədbirin keçirilməsi işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı üçün mühüm töhfə olacaq".

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov qeyd edib ki, ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu strategiya, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət, şanlı ordumuzun şücaəti nəticəsində torpaqlarımız qısa müddətdə işğaldan azad edilib. Hazırda bu ərazilərdə geniş quruculuq və bərpa işləri aparılır. Nazir qeyd edib ki, tarixi torpaqlarda aqrar fəaliyyətin bərpası, torpağın dirçəldilməsi ilə bağlı kənd təsərrüfatında çalışan insanların üzərinə böyük məsuliyyət düşür. Rəqəmsal kənd təsərrüfatı sistemlərinin, aqrar startapların dəstəklənməsi, süni intellekt və ağıllı kənd təsərrüfatı texnologiyalarının tətbiqi, kənd təsərrüfatını daha məhsuldar və müasir bir sahəyə çevirir.

Kənd təsərrüfatını elmə əsaslanan fəaliyyət sahəsi kimi xarakterizə edən nazir Ağalı kəndində torpaqların sakinlərin istifadəsinə verildiyini xatırladıb, torpaq və su infrastrukturunun düzgün təşkili və aqrotexniki qulluq nəticəsində Ağalı kəndində aqrar sahədə iqtisadi faydanın və məhsuldarlığın daha yüksək olacağını vurğulayıb.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov isə çıxışında qeyd edib ki, belə festivallar yeni texnologiya və məhsulların nümayişi ilə yanaşı, həm də maarifləndirmə və təcrübə mübadiləsi platformasıdır. O bildirib ki, bu mərasimlər vasitəsilə fermerlər aqrar sahədə tətbiq edilən ən son innovasiyalarla tanış olmaqla yanaşı, məhsullarının bazara çıxarılması üçün də yeni imkanlar əldə edirlər.

Qeyd edək ki, işğaldan azad olunmuş bölgələrdə ilk dəfə keçirilən bu tədbir sakinlər və fermerlər tərəfindən böyük maraqla qarşılanıb. Festival çərçivəsində Ağalı kəndində kənd təsərrüfatı məhsulları və texnologiyaları sərgilənib, fermerlərə müasir suvarma sistemləri, innovativ texnologiyalar, məhsuldarlığı artıran həllər barədə məlumatlar təqdim edilib. Bununla yanaşı, Kənd Təsərrüfatı Nazirliyi, digər aidiyyəti dövlət qurumları və özəl müəssisələr tərəfindən panel müzakirələr, maarifləndirici sessiyalar təşkil olunub.

Aqrar Biznes Festivalında Türkiyənin "Sapmaz Havacılık və İleri Teknolojiler" şirkətinin mütəxəssisləri tərəfindən "Kənd təsərrüfatında pilotsuz uçuş aparatlarının istifadəsinə dair" nəzəri təlim keçmiş Zəngilan və Cəbrayıl rayonlarının sakinlərinə çiləyici dronlar vasitəsilə herbisid və pestisidlərin səpini üzrə praktiki təcrübələr həyata keçirilib.

Rəsmi açılış hissəsinin yekununda təlimlərdə iştirak etmiş şəxslərə Türkiyənin Mülki Aviasiya Baş İdarəsi tərəfindən təsdiqlənmiş sertifikatlar və dronların idarə edilməsi üzrə sürücülük vəsiqələri təqdim edilib.

Festivalda ölkənin aqrar sektorunda ixtisaslaşmış şirkətlər tərəfindən kənd təsərrüfatı təyinatlı texnika və avadanlıqlar, müasir suvarma sistemləri, alternativ enerji mənbələri ilə çalışan texnologiyalar, gübrə və pestisidlər, iqlim dəyişikliyinə davamlı bitki sortları və digər innovativ məhsullar nümayiş olunub.

Aqrar Biznes Festivalı çərçivəsində təşkil edilən kredit yarmarkasında dövlətin maliyyə qurumları və aparıcı banklar tərəfindən fermerlərə sərfəli kredit məhsulları təklif edilib, fermerlər təsərrüfat işinin təşkili üçün ayrılan kreditlər barədə məlumatlandırılıblar.

Festivalda "Dövlətin maliyyə mexanizmləri" mövzusunda panel müzakirəsi təşkil olunub. Sessiyada Şərqi Zəngəzur iqtisadi rayonunda aqrar sahənin maliyyələşdirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Panel müzakirəsində dövlət və özəl sektorun maliyyə qurumlarının iştirakı ilə aqrar sektora dövlət dəstəyi mexanizmləri, güzəştli kredit və subsidiyalar, aqrar sığorta imkanları, fermerlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və digər mövzular müzakirə olunub. Sessiya çərçivəsində fermerlərin və sahibkarların sualları cavablandırılıb, onlara mövcud və yeni maliyyə mexanizmləri barədə ətraflı məlumat verilib.

Biznes festivalında "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində iştirak edən 10-a yaxın universitetin tələbələri də iştirak ediblər. Sözügedən layihə çərçivəsində Ağalı kəndində "Bootcamp" təşkil edilib. "Bootcamp"da layihə çərçivəsində ölkə üzrə süni intellektin tədris olunduğu ali təhsil müəssisələrinin tələbələrinin, gənc tədqiqatçıların və iri özəl təsərrüfat sahiblərinin iştirakı ilə məlumat sessiyaları həyata keçirilib. Tədbirdə iştirak edən tələbələr və festivala qatılan sahibkarlar üçün Zəngilan rayonunda yerləşən bir sıra özəl təsərrüfatlara infotur təşkil edilib.

# "Yaşıl" iqtisadiyyatın yüksəlişi

**İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr edilən "Rəqəmsallaşma və süni intellektin iş yerlərinə təsiri" konfransında bildirib ki, 2022-ci ildə dünyada"yaşıl" iqtisadiyyat sektoru, təxminən, 1,5 trilyon dollar dəyərində olub. 2030-cu ilə qədər bu rəqəmin süni intellekt texnologiyasının tətbiqi ilə 4 trilyon dollara yüksələcəyi proqnozlaşdırılıb.**



Ekspertlərin fikrincə, Azərbaycan süni intellekt texnologiyalarını enerji sektoruna inteqrasiya edərək səmərəliliyi və dayanıqlılığı artırmaq istiqamətində mühüm addımlar atır. Ölkə COP29 çərçivəsində aparılan müzakirələr fonunda bərpa olunan enerjidən istifadəni genişləndirmək və karbonsuzlaşma hədəflərinə nail olmaq üçün süni intellekt əsaslı həlləri tətbiq edir.

Dünya İqtisadi Forumunun Enerji və Materiallar Mərkəzi ilə 4SİM-in birgə həyata keçirdiyi "Enerjidə süni intellekt həlləri" təşəbbüsü çərçivəsində yerli tərəfdaşların iştirakı ilə enerji istehlakının optimallaşdırılması, infrastruktur üçün proqnozlaşdırılan texniki xidmətlərin təkmilləşdirilməsi və süni intellekt əsaslı enerji tələbinin proqnozlaşdırılması kimi qabaqcıl yanaşmalar yer alır.

Qeyd edək ki, bu həll konseptlərinin həyata keçirilməsi məqsədilə Azərbaycanda pilot layihələrin icrasına başlanılıb. Layihələr çərçivəsində ağıllı sensorlar və prediktiv süni intellekt alqoritmlərinin tətbiqi ilə enerji istehlakına 30 faizə qədər qənaət edilməsi və karbon emissiyalarının 25-30 faiz səviyyəsində azaldılması hədəflənir. Bundan əlavə, Azərbaycanın bərpa olunan enerji potensialından maksimum istifadə edərək qlobal "yaşıl" enerji tədarükçüsü kimi çıxış etməsi istiqamətində mühüm addımlar atılır.

# Bankların qazancı 898 milyon manata çatıb

**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari ilin birinci rübündə respublikada fəaliyyət göstərən banklar kredit faizlərindən 897,8 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 168,7 milyon manat və ya 23,1 faiz çox) gəlir əldə edib.**




Bildirilib ki, 2024-cü ilin yanvar – mart aylarında ölkədə fəaliyyət göstərən banklar kredit faizlərindən 729,1 milyon manat gəlir əldə etmişdi. Bu ilin yanvarında banklar kredit faizlərindən 294,9 milyon manat, fevralda 298,5 milyon manat, martda isə 304,4 milyon manat qazanıb.

Qeyd edək ki, cari ilin mart ayının sonuna bankların ümumi kredit portfeli 27,9 milyard manat olub. Bunun 14,9 milyard manatını biznes kreditləri, 8,6 milyard manatını istehlak kreditləri, 4,4 milyard manatını isə ipoteka kreditləri təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sumqayıt Kimya Sənaye Parkının dünya bazarına çıxışı genişlənir




**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidentinin 2011-ci ildə imzaladığı müvafiq fərmanla yaradılan Sumqayıt Kimya Sənaye Parkı da ölkəmizdə ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Ərazisi 613 hektar olan parkda neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir.

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında olarkən iki zavodun istifadəyə verilməsi ilə burada fəaliyyət göstərən müəssisələrin sayı 26-ya çatıb. İndiyədək parkın rezidentləri tərəfindən ümumilikdə, təxminən, 14 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da, təqribən, 5 milyard manatlıq hissəsi ixracın payına düşüb.

Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ilin birinci rübü ərzində ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Hazırda burada 6 mindən çox insan daimi işlə təmin olunub. Parkda istehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilir.

2025-ci ildə Sumqayıt Kimya Sənaye Parkında daha bir neçə müəssisə fəaliyyətə başlayacaq. Bunu İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) sədrinin müavini Emil Hacıyev jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, aprelin 30-da Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında tikinti kimyəvilərin və "IVECO" markalı yüngül, orta və ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalı sahələrinin fəaliyyətə başlaması ilə buradakı müəssisələrin sayı 26-ya, ölkənin sənaye zonaları üzrə isə 88-ə çatıb.

Yeni müəssisələrin fəaliyyətə başlamasının ölkədə qeyri-neft sektorunun inkişafına təkan verəcəyini diqqətə çatdıran sədr müavini deyib ki, sözügedən istehsal sahələri ölkənin ixrac coğrafiyasının genişləndirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsinə, eləcə də əhalinin məşğulluğunun artırılmasına mühüm töhfə verəcək. "Fəaliyyətə başlayan bu iki müəssisənin, ümumilikdə, investisiya kapitalı 44 milyon manatdan çoxdur, ilk mərhələ üzrə artıq bu müəssisələr tərəfindən 200-yə yaxın daimi iş yeri yaradılıb, növbəti mərhələdə isə əlavə olaraq eyni sayda vətəndaş burada iş imkanı əldə edəcək", – deyə o əlavə edib.

İZİA rəsmisinin sözlərinə görə, ilkin mərhələdə bu müəssisələrdə istehsal edilən məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək, növbəti mərhələdən etibarən isə Rusiya, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Türkmənistan, İran və s. ölkələrə ixrac ediləcək.

O deyib ki, il ərzində Sumqayıt Kimya Sənaye Parkında fəaliyyətə başlayacaq yeni müəssisələr alüminium təbəqəli vərəqə güzgü, inşaat materialların və aqro-sənaye məhsullarının qablaşdırılması üzrə karton kağız, mühərrik və sənaye yağlarının təkrar emalı ilə baza yağlarının və s. məhsulların istehsalı ilə məşğul olacaqlar.

E.Hacıyev cari ilin birinci rübü ərzində Sumqayıt Kimya Sənaye Parkının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisinin 13,5 faiz olduğunu diqqətə çatdırıb. Bildirilib ki, ərazisi 613 hektardan çox olan Sumqayıt Kimya Sənaye Parkı Cənubi Qafqazın ən böyük sənaye parkıdır. İnvestisiya portfeli 6 milyard manatı ötən parkda 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən indiyədək sənaye parkına 5,5 milyard manatdan çox investisiya yatırılıb, 6 min 200-dən çox insan daimi işlə təmin olunub. Sədr müavininin sözlərinə görə, burada icra olunacaq layihələr üzrə növbəti mərhələdə əlavə olaraq 515 milyon manat investisiyanın yatırılması, 2 min 700-ə yaxın daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, fəaliyyətə başladığı vaxtdan indiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən, ümumilikdə, 13 milyard 88 milyon manatlıq satış həyata keçirilib ki, bunun da 4 milyard 88 milyon manatlıq hissəsi ixracın payına düşür. Cari ilin ilk rübü ərzində isə sənaye parkında istehsal olunmuş 659 milyon manatlıq məhsulun 251 milyon manatlıq hissəsi ixrac edilib. Ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Ümumilikdə, bu ilin birinci rübündə Sumqayıt Kimya Sənaye Parkının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 13,5 faiz, ixracında isə 26,1 faiz təşkil edib.

# AÇG layihəsinin ölkəmizə töhfəsi çoxalır

## *Ötən müddətdə 7 hasilat platformasından 605,6 milyon ton neft çıxarılıb*



**Bu ilin yanvar-mart aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi çərçivəsində qazma və hasilatla bağlı əməliyyatlar uğurla davam etdirilib. "BP-Azərbaycan" şirkətinin 2025-ci ilin birinci rübünün nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları AÇG layihəsinin əməliyyat tədbirlərinə 115 milyon dollar, əsaslı məsrəflərinə isə 251 milyon dollar xərcləyib.**

Bildirilib ki, rüb ərzində AÇG yatağında aparılan 4 ölçülü yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik 5 illik tədqiqat proqramı çərçivəsində ötən il əldə olunmuş seysmik məlumatların emalı və cari ilin mayında başlanması nəzərdə tutulan növbəti məlumat toplanması işləri (ikinci il üçün proqrama hazırlıq) həyata keçirilib.

Hesabata əsasən, yanvar-mart aylarında "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. İlin ilk rübündə AÇG-də, ümumilikdə, 145 neft hasilat quyusu, 44 su injektor quyusu və 8 qaz injektor quyusu istismarda olub. Hesabat dövründə 6 hasilat platforması vasitəsilə gündə orta hesabla 331 min barel və ya ümumilikdə, təxminən, 30 milyon barel, yəni 4 milyon ton neft çıxarılıb. Ümumi hasilatın 21 min bareli "Çıraq", 87 min bareli "Mərkəzi Azəri", 76 min bareli "Qərbi Azəri", 43 min bareli "Şərqi Azəri", 54 min bareli "Dərinsulu Günəşli", 25 min bareli "Qərbi Çıraq" və 25 min bareli "Azəri-Mərkəzi-Şərqi" platformalarının payına düşüb.

Yeri gəlmişkən, bu il fevralın 18-də AÇG layihəsinin tammiqyaslı işlənməsinin birinci mərhələsi çərçivəsində istismara verilmiş "Mərkəzi Azəri" platformasından ilk neftin əldə olumasının 20 ili tamam olub. Həmin vaxtdan platformadan, ümumilikdə 1,1 milyard barel (152 milyon ton) neft hasil edilib. Ümumilikdə, 1997-ci il noyabrın 7-dən AÇG layihəsi çərçivəsində 7 hasilat platformasından indiyədək 605,6 milyon ton neft çıxarılıb.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları qazma əməliyyatlarını nəzərdə tutulmuş qrafikə uyğun davam etdiriblər. Belə ki, rüb ərzində müqavilə sahəsində qazılmış 2 neft hasilatı quyusunun 1-i tamamlanaraq istismara daxil edilib. Bununla yanaşı, AÇG yatağındakı sərbəst təbii qaz ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də AÇG üzrə mövcud hasilatın pay bölgüsü sazişinə edilmiş yeni əlavəyə uyğun olaraq mühüm tədbirlər həyata keçirilib.

Qeyd edək ki, hazırda SOCAR və konsorsium iştirakçıları sərbəst təbii qaz laylarının işlənməsi üçün növbəti fəaliyyətləri planlaşdırırlar. Həmin işlərin bir hissəsi kimi iki prioritet layı hədəfləyən ilkin quyu qazılıb. "Qərbi Çıraq" platformasından qazılmış həmin quyudan ilk qaz hasilatının bütün tamamlama və sualtı birləşdirmə işləri bitdikdən sonra 2025-ci ilin sonunadək başlanacağı gözlənilir. Layihəni irəlilətmək baxımından xüsusi əhəmiyyət kəsb edən həmin quyu hasilat vasitəsilə qiymətləndirmə aparmağa da imkan verəcək. Bunun əsasında da gələcək işlənmə planlarını qurmaq mümkün olacaq. Yeri gəlmişkən, AÇG yatağının çıxarıla bilən sərbəst təbii qaz ehtiyatlarının 4 trilyon kub futadək olduğu güman edilir.

Yanvar-mart aylarında AÇG-dən neftin, "Şahdəniz"dən isə kondensat və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. Xatırladaq ki, hazırda terminalın texniki emal sistemlərinin gündəlik gücü 1,2 milyon barel neft və kondensat, eləcə də "Şahdəniz" qazı üçün təqribən 81 milyon kubmetrdir. Bundan əlavə, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neftlə bərabər çıxarılan səmt qazı da burada qəbul olunaraq Azərbaycanın qazpaylama sisteminə təhvil verilir. Bütövlükdə isə, terminalın ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon kubmetr təşkil edir.

Cari ilin birinci rübündə terminaldan 52,3 milyon bareldən çox neft və kondensat ixrac olunub. Bu həcmlərin hamısı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə nəql olunub. "Şahdəniz" qazı, eləcə də AÇG-nin səmt qazı terminaldan, əsasən, Cənubi Qafqaz boru kəməri və onun sonradan genişləndirilmiş sistemi, həmçinin terminalın qaz emalı obyektlərini "Azəriqaz"ın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac edilir.

Məlum olduğu kimi, "Əsrin müqaviləsi"nin şərtlərinə əsasən, AÇG-dən neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan dövlətinə çatır. Bu ilin ilk rübündə "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 11 milyon kubmetr, ümumilikdə isə, 0,9 milyard kubmetr səmt qazı Azərbaycanın qazpaylama sitеminə təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi isə təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Xam nefti dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, əvvəlki dövrlərdə olduğu kimi, 2025-ci ilin yanvar-mart aylarında da fəaliyyətini uğurla davam etdirib. "BP-Azərbaycan" şirkətinin birinci rübün nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 32 milyon dollar, əsaslı məsrəflərinə isə 13 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş, təqribən, 7 milyon ton (təxminən 54 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 70 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC boru kəməri vasitəsilə 2025-ci ilin birinci rübünün sonunadək 598 milyon tondan çox (4,5 milyard barel) xam neft nəql edilib. Xam neft Ceyhanda 5932 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri) də nəql olunur.

# Strateji valyuta ehtiyatları: 73,8 milyard dollar!

## Bu, xarici dövlət borcundan 14,6 dəfə çoxdur

**Maliyyə Nazirliyindən XQ-yə daxil olan məlumata görə, cari ilin aprelin 1-nə ölkənin strateji valyuta ehtiyatları 73,8 milyard dolları məbləğində olmaqla xarici dövlət borcunu təqribən 14,6 dəfə üstələyir.**



Qeyd edək ki, 2023-cü ildə ölkənin strateji valyuta ehtiyatları xarici dövlət borcundan 10,5 dəfə, 2024-cü ildə isə 13,9 dəfə çox idi. Hazırda xarici dövlət borcu 5,067 milyon dollar və ya 2025-ci il üzrə proqnozlaşdırılan Ümumi Daxili Məhsulun (ÜDM) 6,6 faizini təşkil edib. Cari il yanvarın 1-i ilə müqayisədə xarici dövlət borcu 62,7 milyon dollar məbləğində azalıb.

Beləliklə, bu il aprelin 1-nə Azərbaycan Respublikasının daxili və xarici dövlət borcu 26,615,2 milyon manat və ya 2025-ci il üzrə 130,662,5 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 20,4 faizini təşkil edib. Ümumi dövlət borcunun 8,613,9 milyon manatı (5,067 milyon dolları) və ya 32,4 faizi xarici dövlət borcunun, 18,001,3 milyon manatı və ya 67,6 faizi daxili dövlət borcunun payına düşüb

Maliyyə Nazirliyinin məlumatına görə, aprelin 1-dək xarici dövlət borcu 5,067 milyon dollar və ya 2025-ci il üzrə proqnozlaşdırılan ÜDM-in 6,6 faizini təşkil edib. Bu il yanvarın 1-i ilə müqayisədə xarici dövlət borcu 62,7 milyon dollar məbləğində azalıb. Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 48,9 faizini, sabit faiz dərəcəsi ilə olanlar isə 51,1 faizini təşkil edib. Xarici dövlət borcunun 49,9 faizi 5 ilə qədər olan müddətdə, 44,2 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 5,9 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

# Orta Dəhlizin əhatəsi böyüyür

**Azərbaycan və Çin "Bir kəmər, bir yol" təşəbbüsü və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı çərçivəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirirlər.**




Çin Xalq Respublikasının ölkəmizə yeni təyin olunan səfiri Lu Mey Bakıda keçirdiyi brifinqdə Azərbaycan və Çin tərəfindən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişafı çərçivəsində əməkdaşlığın fəal şəkildə inkişaf etdirildiyini bildirib. O daha sonra Çin Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünün İpək yolunun ruhunu qoruyub saxlamaq, əməkdaşlıq üçün açıq platforma yaratmaq və müxtəlif ölkələrin inkişafına yeni təkan vermək məqsədi daşıdığını qeyd edib.

Onun sözlərinə görə, Çin nəqliyyat dəhlizlərinin, o cümlədən Orta Dəhlizin inkişafına böyük əhəmiyyət verir və bu, Azərbaycanın öz tranzit potensialını açmaq strategiyasına tam uyğundur.

"Çin gömrük prosedurlarının asanlaşdırılmasının səviyyəsini və yük daşımalarının səmərəliliyini davamlı şəkildə artırmaq üçün Azərbaycan və marşrut üzrə digər ölkələrlə əməkdaşlığa, eləcə də Xəzər dənizi vasitəsilə Çin ilə Avropa arasında təhlükəsiz və sabit nəqliyyat xəttinin birgə qurulmasına hazırdır", – Lu Mey vurğulayaraq əlavə edib ki, 2024-cü ildə bu marşrut üzrə daşımaların həcmi əhəmiyyətli dərəcədə (369 qatar göndərilib ki, bu da əvvəlki ildən 36 dəfə çoxdur) artıb.

# Ağdamda dirçəlişin yeni mərhələsi



**Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin məlumatına görə, Ağdam rayonunda "Faza-2" yaşayış məhəlləsinin energetika təsərrüfatı sistemləri ilə bağlı yeni layihələrin icrasına başlanılır. Bu yaşayış məhəlləsi üzrə sahədaxili mühəndis – kommunikasiya sistemlərinin (su, kanalizasiya, elektrik təchizatı, xarici işıqlandırma, yol və səkilər) qurulması, eləcə də yaşıllıq, abadlıq layihələrinin icrası nəzərdə tutulur.**

Artıq bununla bağlı adıçəkilən Xidmət tərəfindən Ağdam, Füzuli və Xocavənd rayonlarında müvafiq işlərə start verilib. Eyni zamanda, qurum görüləcək işlərin 9,7 milyon manata başa gələcəyini proqnozlaşdırıb.

Bu günlərdə Qarabağ və Şərqi Zəngəzur üzrə kredit qoyuluşlarının həcmi də açıqlanıb. Mərkəzi Bankın məlumatına əsasən, cari il aprelin 1-nə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə kredit qoyuluşlarının həcmi əvvəlki ayla müqayisədə 384 min manat və ya 3,8 faiz artaraq 10,4 milyon manata (bu göstərici üzrə orta faiz dərəcəsi 16,46 faiz) bərabər olub. Sözügedən dövr ərzində regiona qoyulmuş kreditlərin 9,7 milyon manatı milli valyutada, 698 min manatı isə sərbəst dönərli valyutada (SDV) yerləşdirilib.

Eyni zamanda, cari ilin aprelin 1-nə Qarabağ iqtisadi rayonu üzrə kredit qoyuluşlarının həcmi 481,3 milyon manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 4,2 milyon manat və ya 0,9 faiz, ötən ilin eyni dövrünə nisbətən isə 65,3 milyon manat və ya 15,7 faiz çoxdur.

Məlumata əsasən, hesabat dövründə bu region üzrə kredit qoyuluşlarının orta faiz dərəcəsi 19,31 faizə bərabər olub. Dövr ərzində regiona qoyulmuş kreditlərin 479,9 milyon manatı milli valyutada, 1,4 milyon manatı isə sərbəst dönərli valyutada (SDV) yerləşdirilib.

Qeyd edək ki, 2025-ci ilin aprelin 1-nə Azərbaycanın cəmi regionları üzrə kredit qoyuluşlarının həcmi əvvəlki ayla müqayisədə 284,8 milyon manat və ya 1 faiz, 2024-cü ilin eyni dövrü ilə müqayisədə isə 3,8 milyard manat və ya 15,7 faiz artaraq 27,9 milyard manata bərabər olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# AHİK-də ƏƏSMN ilə əmək və məşğulluq müzakirəsi

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) nümayəndələri ilə görüş keçirilib.**



Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdəki əlverişli mühitin həmkarlar ittifaqlarının səmərəli fəaliyyətinə və əmək hüquqlarının effektiv müdafiəsinə yaratdığı geniş imkanları, dövlətimizin bu sahəyə diqqət və qayğısını vurğulayıb. O bildirib ki, sağlam və təhlükəsiz iş şəraitinin tam təmin olunması, ittifaq üzvlərinin əmək hüquqlarının müdafiəsi istiqamətində kompleks tədbirlər həyata keçirilir, müalicə və istirahətinin səmərəli təşkili məqsədilə sanatoriya-kurort müəssisələrinin fəaliyyəti davamlı olaraq təkmilləşdirilir.



Görüşdə həmkarlar ittifaqları sistemində aparılan islahatlar və layihələr, “Kurort” Turizm İnformasiya Mərkəzi, eləcə də yeni yaradılan Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin fəaliyyəti barədə məlumat verilib, həmkarlar ittifaqları ilə bağlı qanunvericiliyə dəyişikliklərə dair qanun layihəsi üzərində iş aparıldığı diqqətə çatdırılıb.

Müzakirə zamanı əmək hüquqlarının qorunması, əməyin mühafizəsi, məşğulluq, işçilərin rifahının yüksəldilməsi istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlığın daha da gücləndirilməsinin önəmi qeyd olunub. Bildirilib ki, sosial tərəfdaşlıq ildən-ilə təkmilləşir, Baş Kollektiv Sazişdə müasir çağırışlara və tələblərə uyğun müddəalar əksini tapır ki, bu da əmək hüquqlarının daha effektiv müdafiəsinə əlavə imkanlar yaradır.

Daha sonra AHİK-in fəaliyyətindən bəhs edən videomaterial izlənilib, həmkarlar ittifaqları haqqında qanunvericiliyə təklif olunan əlavə və dəyişikliklərlə bağlı təqdimat edilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev konfederasiyanın həyata keçirdiyi islahatları və yenilikləri yüksək qiymətləndirib, əmək münasibətlərinin tənzimlənməsi, ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında həmkarlar ittifaqlarının rolunu vurğulayıb. Məşğulluq imkanlarının artırılması, əmək bazarı ilə bağlı görülən sistemli tədbirlər nəticəsində əmək müqavilələrinin sayının artdığını qeyd edən nazir həssas əhali qruplarının sosial müdafiəsinin daim diqqətdə saxlandığını qeyd edib.

Tərəflər sosial dialoqun, sivil tərəfdaşlığın inkişafının, Baş Kollektiv Sazişlə müəyyən edilən öhdəliklərə riayət olunmasının önəmini vurğulayıblar.

Sonda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri “Kurort” Turizm İnformasiya Mərkəzi, həmçinin Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

*XQ*

# Şəhid jurnalist Məhərrəm İbrahimovun xatirəsi anılıb

**Dünən AZƏRTAC-ın kollektivi 4 il əvvəl azad edilmiş ərazilərdə erməni işğalçıların vandallıq əməllərinin videxronikasını yaradarkən Kəlbəcərin Susuzluq kəndində mina partlayışı nəticəsində həlak olmuş iş yoldaşları Məhərrəm İbrahimovun məzarını ziyarət ediblər. Həmkarları şəhid jurnalistin məzarı üstünə gül-çiçək dəstələri qoyublar.**




Məhərrəm İbrahimovla birlikdə çalışmış jurnalist Süleyman Qaradağlı onun keçdiyi şərəfli ömür yolundan, Qarabağda hərbi müxbir kimi fəaliyyətindən, xüsusilə Vətən müharibəsindən sonra azad edilmiş bölgələrdə göstərdiyi fədakarlıqdan bəhs edib. O qeyd edib ki, Məhərrəm İbrahimov Qarabağın işğaldan azad edilmiş məntəqələrinə ilk qədəm basanlardan olub. Yurdsevər qələm sahibi yüzlərlə yaşayış məntəqəsində erməni qəddarlığına və soyğunçuluğuna şahidlik edən xarabalıqları tarixin yaddaşına köçürüb.



Agentliyin işlər idarəsinin müdiri Rauf Süleymanov Məhərrəm İbrahimovun xatirəsinin həmişə əziz tutulduğunu xatırladaraq deyib: “Məhərrəmin ailəsi daim dövlət qayğısı ilə əhatə olunub. Şəhid müxbir 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunub, ailəsinə yeni mənzil verilib. Yaşadığı məhəllədəki küçə onun adını daşıyır, bulaq inşa edilib. AZƏRTAC-da onun adına xüsusi guşə yaradılıb, hazırda isə barelyefi hazırlanır. Onun xatirəsi həmişə bizim üçün əzizdir və ehtiramla yad edilir. Lakin Məhərrəmin əsas ünvanı onu sevənlərin ürəyindədir”.

Digər iş yoldaşları da şəhid jurnalist barədə ürək sözlərini və xatirələrini söyləyiblər.

Mərhum jurnalistin ailə üzvləri adından İradə və Səidə İbrahimovalar qardaşlarının xatirəsini əziz tutduqlarına görə AZƏRTAC-ın kollektivinə razılıqlarını bildiriblər.

*T.RÜSTƏMLİ*
*XQ*

# İtaliya parlamentariləri Qarabağda






**İtaliya Parlamentinin İtaliya-Azərbaycan üzrə dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti işğaldan azad olunmuş Ağdam, Xankəndi və Şuşaya səfər edib.**

Qonaqlar əvvəlcə Ağdam şəhərindəki İmarət kompleksi ilə tanış olublar.

Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq tikililərdən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. İşğal dövründə digər tarixi-mədəni və dini abidələr kimi, Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Qarabağ xanlarının nəslindən olmuş görkəmli şəxslərin dəfn edildiyi qəbiristanlıq da erməni vandalizminin qurbanı olub.

İtaliyalı parlamentarilər sonra Xankəndi şəhərinə gəliblər. Zəfər meydanında olan qonaqlara Xankəndi şəhərində görülən işlər barədə məlumat verilib. Nümayəndə heyəti Xankəndidə “Qarabağ” Universitetini də ziyarət ediblər.

Qonaqlar Şuşa şəhərində də olublar. Şuşa qalasında, Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi şəhər mərkəzi meydanında olan nümayəndə heyətinə şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda aparılan quruculuq işləri barədə məlumat verilib.

*XQ*

# Multikulturalizm Mərkəzi ICESCO ilə memorandum imzalayıb



**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) arasında Anlaşma Memorandumu imzalanıb.**

Memoranduma əsasən, hər iki təşkilat öz imkanlarından istifadə edərək təsirli proqramlar yaratmaq və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, liderliyi gücləndirmək və qlobal miqyasda sülhü irəli aparmaq üçün birgə fəaliyyət göstərməkdir.

BBMM-in icraçı direktoru Rəvan Həsənov mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verib. O, bildirib ki, imzalanan memorandum BBMM ilə ICESCO arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir: “İnanırıq ki, bu əməkdaşlıq vasitəsilə İslam dünyasında mədəni müxtəlifliyin və qarşılıqlı anlaşmanın təşviqinə birgə töhfə verəcəyik. Birgə layihələr, elmi tədqiqatlar və gənclərə yönəlik proqramlar vasitəsilə multikulturalizm dəyərlərinin daha geniş coğrafiyada tanıdılmasına nail olacağıq”.

ICESCO-nun Tərəfdaşlıq və beynəlxalq əməkdaşlıq sektorunun müdiri Anar Kərimov Anlaşma Memorandumunun əhəmiyyətindən danışaraq qurulan tərəfdaşlığın gələcəkdə mühüm nəticələr verəcəyinə əminliyini ifadə edib: “Bu əməkdaşlıq yalnız iki qurum arasında deyil, həm də İslam dünyasında mədəni müxtəlifliyin, dinc birgəyaşayışın və qarşılıqlı hörmətin təşviqinə yönəlmiş qlobal səylərin bir hissəsidir. ICESCO olaraq biz, Azərbaycanı multikulturalizm sahəsində mühüm tərəfdaş kimi qiymətləndiririk. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə birgə reallaşdıracağımız layihələrin həm regionda, həm də beynəlxalq səviyyədə əhəmiyyətli təsir göstərəcəyinə inanırıq”.

*XQ*

# SOSİAL XƏBƏRLƏR

## Xəstəlik sənədi də elektronlaşdırıldı

**Mayın 1-dən sığortaolunanlar üçün xəstəlik sənədləri tibb müəssisələrində elektron formada hazırlanaraq, işəgötürənə və Dövlət Sosial Müdafiə Fonduna (DSMF) e-qaydada göndəriləcək.**




DSMF bu e-sənəd əsasında işçiyə müvəqqəti əmək qabiliyyətinin itirilməsinə və hamiləliyə, doğuma görə müavinətlər təyin edəcək. İşəgötürənlər e-bülletenləri nazirliyin müvafiq informasiya sistemindən, tibb işçiləri isə “e-Səhiyyə” portalı və mobil tətbiqindən asan və rahat şəkildə əldə edə bilərlər.

Bu innovativ yenilik işçiyə müvafiq müavinətlər təyinatı və ödənişi üzrə xidmətlərin çevikliyinə və keyfiyyətinin, şəffaflığının artırılmasına yönəlib.

## Əlillərə bərpa vasitələri verilib




**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu il 400-dək əlilə də bərpa vasitələrini yaşadıqları ünvanlarda təqdim edib.**

Onlara mühərrikli – təkərli oturacaq, sanitar təkərli oturacaq, aşağı ətraf protezi, ortopedik və protez ayaqqabı, süd vəzi protezi, hərəkətli – qaldırıcı qurğu, əsa, dördayaqlı dayaq, dirsəkaltı və qoltuqaltı ağac və s. olmaqla ümumilikdə 1000-dən çox bərpa vasitəsi verilib. Bakıda, Protez-Ortopedik Bərpa Mərkəzinə gələ bilməyən fiziki məhdudiyyətli insanlara bu vasitələr ünvanlarında çatdırılır.

## İordaniya və Cibuti heyəti DOST-da



**Ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığı Senatının üzvü, Əlilliyi olan Şəxslərin Komitəsinin sədri Asia Abdel Mutaleb Yaghinin və Cibuti Respublikasının Əlilliyi Olan Şəxslər üzrə Milli Agentliyinin Baş direktoru Doualeh Said Mahamoudun rəhbərlik etdikləri nümayəndə heyətləri DOST Agentliyində olublar.**

Qonaqlar 1 saylı Bakı DOST Mərkəzində əhaliyə göstərilən xidmətlərlə tanış olub, DOST mərkəzlərinin fəaliyyəti və iş prinsipləri ilə tanış olublar. Hər iki nümayəndə heyəti ilə keçirilən görüşlərdə Agentliyin İdarə Heyətinin sədri Fərid Məmmədov DOST xidmətləri barədə ətraflı məlumat verib.

## Konqres Mərkəzində sərgi

**Bakıda keçirilən “Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi” forumu çərçivəsində milli sənətkarlıq nümunələrindən ibarət sərgi nümayiş etdirilib.**

116 ölkədən nüfuzlu qeyri-hökumət təşkilatının rəhbərləri və vətəndaş cəmiyyəti nümayəndələrinin qatıldığı konfrans iştirakçıları Konqres Mərkəzinin təlim studiyalarında təlimçi və benefisiarların ərsəyə gətirdiyi əl işlərinə baxıblar. Ekspozisiyada bədii tikmə və oymaçılıq, təsviri incəsənət, dulusçuluq, floristika, xalçaçılıq nümunələri sərgilənib.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

*Akademik Telman Əliyev – 90*

# Dünya şöhrətli informatika alimi



**Bu gün Azərbaycan milli elminə çoxsaylı töhfələr vermiş müasirimiz – görkəmli akademik Telman Əliyevin növbəti yubileyinin fərəhini yaşayırıq. Düz 90 il əvvəl – 1935-ci il mayın 2-də Goranboy rayonunda sadə, zəhmətkeş bir ailədə doğulan Telman Abbas oğlu Əliyev həyatda bütün qazandıqlarına özünün çalışqanlığı, əzmkarlığı sayəsində nail olub.**

O, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu bitirib. 1966-cı ildə "Hesablama texnikası" ixtisası üzrə fəlsəfə doktoru, 1977-ci ildə "Texniki kibernetika və İnformasiya nəzəriyyəsi" ixtisası üzrə elmlər doktoru elmi dərəcələrini, 1985-ci ildə professor elmi adını alıb. 1983-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə həqiqi üzvü seçilib.

Alim əmək fəaliyyətinə Hesablama Mərkəzində (hazırda İdarəetmə Sistemləri İnstitutu) başlayıb və texnik, mühəndis, baş mühəndis vəzifələrində çalışıb. Sonra Kibernetika İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya rəhbəri, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrində işləyib. 1984-cü ildən bu günə kimi isə Azərbaycan Memarlıq və İnşaat Mühəndisləri Universitetində dərs deyib, hazırda kafedra müdiridir.

1993–1998-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının ekspert şurasının sədri olmuş Telman Əliyev 1994-cü ildən UNESCO-nun informatika üzrə ekspertləri sırasına daxil edilmişdir. 1997–2001-ci illərdə AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik katibi, 2008–2015-ci illərdə Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü olub.

O, 1958–1960-cı illərdə keçmiş SSRİ-nin başqa respublikalarından xeyli əvvəl "Elektron hesablama maşınları" laboratoriyasının yaranmasının əsas təşkilatçısı və 1976-cı ilədək rəhbəri kimi Azərbaycanda informatikanın sürətlə inkişafına həlledici təsir göstərib. 2013-cü ildən Rusiya Federasiyasında dərc olunan "Mexatronika, avtomatlaşdırma, idarəetmə" və 2018-ci ildən Ukraynada işıq üzü görən "İdarəetmənin və informatikanın problemləri" elmi jurnallarının redaksiya heyətinin üzvüdür.

Alim neftçıxarma obyektləri üçün "yeni nəsil intellektual "robast noise" monitorinq, nəzarət və diaqnostika sistemlərinin" yaradılmasının nəzəri əsasını təklif edib. Yaradılmış sistem H.Əliyev adına Neftayırma zavodunun kompressor stansiyasında, "Şirvan OİL" şirkətinin 190 quyusunda, Qarasu əməliyyat şirkətinin 10 quyusunda, "Bibiheybətneft"in 25 quyusunda və Balaxanı neft-qazçıxarma idarəsinin 2 quyusunda tətbiq olunmuşdur. Hər bir quyuda 50 faizə qədər elektrik enerjisinə qənaət və təmirlərarası vaxtın xeyli artması hesabına rentabellik 2 dəfəyə qədər yaxşılaşmışdır.

Akademik T.Əliyev tərəfindən qaz kompressor stansiyalarında qəzaların gizli dövrünü aşkar etməyə imkan verən robast noise monitorinq və nəzarət sistemi təklif edilmişdir. O, neftçıxarmada, energetikada, tikintidə, seysmikada, aviasiyada və s. sahələrdə qəzalara səbəb ola biləcək qüsurların noise monitorinq texnologiyaları vermiş, bunların əsasında noise monitorinq, nəzarət, diaqnostika, identifikasiya sistemlərinin işləmə prinsiplərinin nəzəri əsaslarını təklif etmişdir. Çeşidli sahələrdə qəzaların gizli dövrünün başlanmasına, onun inkişaf dinamikasına nəzarəti və proqnozlaşdırılmasını təmin edən hibrid texnologiyaların və "İntellektual hibrid noise nəzarət" sistemlərinin yaradılması prinsipləri işlənilmişdir.

Telman Əliyevin bir çoxu WoS (akademik materialların referativ bazalarını birləşdirən iri axtarış platforması) indeksli jurnallarda olmaqla, 600 yaxın elmi əsəri, həmçinin, dünyanın nüfuzlu elmi nəşriyyatlatından olan Springerdə 3 monoqrafiyası çap edilmişdir. Nyu Yorkda və Londonda çıxan mooqrafiyaları dünya elm ictimaiyyətinin diqqətini cəlb edib. Ümumiyyətlə isə akademik 35 monoqrafiyanın və 132 patentin müəllifidir, bunlardan 30-u Avrasiya patentidir. Onun rəhbərliyi ilə 12 elmlər və 37 fəlsəfə doktoru hazırlanıb.

"Ən çox oxunan məqalə" nominasiyası üzrə sertifikat da Telman Əliyevin mükafatlar kolleksiyasını bəzəyir: 4 iyul 2023-cü il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının müşaviri akademik Telman Əliyevin beynəlxalq səviyyəli "Mechanical Systems and Signal Processing" jurnalında çap edilmiş məqaləsi "Tədqiqatlar sahəsində beynəlxalq nailiyyətlər və ən yaxşı məqalə" kateqoriyasında həmin nominasiyada fərqləndirilib.

O, elmi və elmi-təşkilatı fəaliyyət sahəsində xidmətlərinə görə 1991-ci ildə M.V.Keldış adına qızıl medala, 2004-cü ildə "Şöhrət" ordeninə, 2009-cu ildə "Əməkdar elm xadimi" adına, 2015-ci ildə Nəsrəddin Tusi adına mükafata layiq görülüb. 2018-ci ildə akademik Azad Mirzəcanzadə adına gümüş medalla təltif olunub. "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının döş nişanı da bu sıradadır. Bu ilin aprel ayında isə Elm Günü münasibətilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli T.Əliyevə əldə etdiyi elmi nailiyyətlərə və elmin populyarlaşdırılmasına verdiyi töhfələrə görə qurumun fəxri fərmanını təqdim edib.

Biz də fəxr edirik ki, həyat yollarında akademik Telman Əliyevlə rastlaşmışıq, görkəmli alimdən həm elmi, həm də həyati biliklər almışıq. Onu 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edirik, möhkəm can sağlığı, yeni elmi nailiyyətlər arzulayırıq.

***Eldar ŞAHBAZOV,***
***Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun laboratoriya müdiri, texnika üzrı elmlər doktoru, professor***

# ADA-da Tağıyev Mükafatının təqdimatı




**ADA Universitetində sosial məsuliyyət ruhunu təcəssüm etdirən Hacı Zeynalabdin Tağıyev Mükafatının təqdimat mərasimi keçirilib.**

Sosial Məsuliyyət Gününə həsr edilmiş məclis universitetin dəyərlərini və gənclərin təşəbbüskar ruhunu əks etdirib. Tələbələrin sərgisində onların il ərzində ərsəyə gətirdikləri sosial təşəbbüslər təqdim edilib.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev mərasimdə bildirib: "Biz ADA Universitetində təkcə savadlı deyil, dəyərlərə bağlı, məsuliyyətli vətəndaşlar yetişdiririk. Bu işdə Hacı Zeynalabdin Tağıyev kimi xeyriyyəçilərin irsi bizə bələdçilik edir, yol göstərir. Tələbələrimizin də bu irsi yaşadaraq bunu gələcəyə daşımağa çalışması nailiyyətlərimizdən biridir".

Universitetinin prorektoru Günay Ziyadova bu təşəbbüsün 10 ildən bəri ADA-nın əsas ənənələrindən birinə çevrildiyini vurğulayıb.

Məclisdə Hacı Zeynalabdin Tağıyevin nəslinin davamçıları da iştirak ediblər. Sonda münsiflər heyətinin üzvləri qalib komandaları elan edib. Birinci yerə sahib olan "Benjamin Buttons" komandası 2500 manat, ikinci yeri qazanan "Tech4Equity" komandası 1500 manat, üçüncü yerə çıxan "Empower Disability" və "She Leads" komandaları 1000 manat məbləğində mükafat qazanıblar.

***XQ***

# Şagirdlərin bilik yarışına baxış



**Elm və Təhsil Nazirliyinin rəsmiləri, Təhsil İnstitutunun rəhbərliyi, təhsil ekspertləri və media nümayəndələrinin iştirakı ilə Respublika Fənn Olimpiadalarının (RFO) biologiya fənni üzrə praktiki mərhələsinə infotur təşkil olunub.**

Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev imtahan prosesini izləyənlərə bildirib ki, VIII–XI sinif şagirdlərinin iştirak etdiyi Respublika Fənn Olimpiadaları riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili və ədəbiyyatı, coğrafiya və tarix olmaqla, ümumilikdə 8 fənn üzrə təşkil olunur. O əlavə etdi ki, təbiət fənləri üzrə olimpiadalarının praktiki turlarının təşkili yeni bir prosesdir. Ötən il yalnız fizika fənni üzrə praktiki tur keçirilib. Bu il isə həm fizika, həm də biologiya fənləri üzrə olimpiadanın praktiki mərhələsi təşkil olunub.

Bildirilib ki, informatika fənni üzrə final mərhələ bu il ilk dəfə olaraq iki gün – aprelin 25-i və 26-sı tarixlərində keçirilib. Aşağı yaş qrupu üzrə 107, yuxarı yaş qrupu üzrə isə 95 nəfər imtahanda iştirak edib. Fizika və kimya fənləri üzrə final mərhələsi aprelin 28-də baş tutub. Bu mərhələdə fizika fənni üzrə 121, kimya fənni üzrə isə 120 nəfər olmaqla ümumilikdə 241 şagird iştirak edib. Aprelin 29-da isə fizika fənni üzrə praktiki tur keçirilib. Azərbaycan dili və ədəbiyyatı, eləcə də coğrafiya fənləri üzrə Respublika Fənn Olimpiadalarının final mərhələsinin mayın 2-də, riyaziyyat fənni üzrə isə mayın 5-6-da keçirilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, fənn olimpiadalarının keçirilməsində əsas məqsəd şagirdlərdə özünəinam hissini gücləndirmək, ayrı-ayrı fənlər üzrə istedadı və yaradıcı təfəkkürü ilə fərqlənənləri aşkar etməklə onların potensial imkanlarının inkişafı istiqamətində tədbirlər müəyyənləşdirmək, həmçinin məktəblilərin ixtisas və peşə seçiminə hazırlanması üçün zəmin yaratmaqdır.

***F.RİZVAN***
***XQ***

# Polad Həşimovun ailəsi ilə görüş



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva Milli Qəhrəman Polad Həşimovun ailəsi ilə görüşüblər.**

Görüşdə 44 günlük müharibədəki şanlı Zəfərimiz, Vətən oğullarının qəhrəmanlığından danışılıb, qəhrəmanlar yetişdirən analara minnətdarlıq ifadə olunub.

# Leyla və Arzu Əliyevalar konsert proqramlarında

## Musiqi Akademiyasında "Simurq" melodiyaları



**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Böyük zalında Bakı Kamera Orkestri, BMA-nın tələbələri və "Simurq" layihəsi gənc pianoçularının konserti keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva konsert proqramını izləyiblər.**

Tədbiri "Baku Chamber Orchestra" Üzeyir Hacıbəylinin "Arazbarı" əsəri ilə açıb. Ardınca maraqlı və rəngarəng çıxışlar təqdim olunub. Proqramda tələbə və şagirdlər Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa ediblər.

Bakı Kamera Orkestrinin bədii rəhbəri, BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli və kollektivin baş dirijoru Əməkdar artist Fuad İbrahimovun iştirakı ilə keçirilən konsert maraqla qarşılanıb.

Qeyd edək ki, "Simurq" layihəsinin əsas məqsədi istedadlı gəncləri üzə çıxarmaq və onları dəstəkləməkdir. Tədris ili boyunca layihəyə seçilmiş iştirakçılar Moskva Konservatoriyası nəzdindəki Mərkəzi Musiqi Məktəbi, Moskva Konservatoriyası, Qnesin adına Musiqi Kolleci, Xorvatiya Musiqi Akademiyası və digər nüfuzlu təhsil müəssisələrinin peşəkar müəllimləri ilə çalışırlar.

## "Yalnız mədəniyyət"ə nəğməli çağırış



**Aprelin 30-da Bakı Musiqi Akademiyası nəzdində Opera studiyasının səhnəsində Azərbaycanın Xalq artisti Eyyub Yaqubov "Yalnız mədəniyyət" adlı musiqili-bədii proqram ilə çıxış edib.**



Şair, böyük dramaturq Hüseyn Cavidin xatirəsinə həsr olunan tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva da iştirak edib.

Tədbirdə Eyyub Yaqubov və ifaçının sənət dostları musiqinin sehri, mahnıların ahəngi və şeirlərin dərinliyinin bir araya gəldiyi maraqlı bir təqdimatla tamaşaçıların qarşısına çıxıblar.

***XQ***

*Beynəlxalq həyat*

# Hindistanın təhdidləri Pakistanla qarşıdurmanı gərginləşdirir



**Kəşmirdə baş vermiş son terror hadisəsi Hindistan və Pakistan arasındakı münasibətləri xeyli gərginləşdirib. İslamabadın israrla təkzib etməsinə və Kəşmirdə baş vermiş terror hadisənin hərtərəfli və ədalətli araşdırmasına beynəlxalq təşkilatların və ölkələrin də cəlb edilməsi ilə bağı çağırışlarına baxmayaraq, Yeni Delhi Pakistanı ittiham etmək mövqeyindən əl çəkmir. Hindistanın xarici işlər naziri Subrahmanyam Cayşankar ABŞ dövlət katibi Marko Rubio ilə telefon danışığından sonra bildirib ki, Pahalqam atışmasının günahkarları və təşkilatçıları məsuliyyətə cəlb edilməlidir.**

"The Pakistan Times" qəzetinin yazdığına görə, Pakistanın Baş nazirin müavini və xarici işlər naziri İshaq Dar isə mətbuat konfransında xəbərdarlıq edib ki, Cammu və Kəşmir əyalətinin Pahalqam bölgəsindəki hücumdan sonra Hindistanın "siyasi motivli və təxribat xarakterli hərəkətləri" səbəbindən Cənubi Asiya regionunda sülh və sabitlik ciddi təhlükə altındadır. "Terrorun qurbanı olan Pakistan zərər çəkənlərin ağrısını hamıdan daha yaxşı başa düşür",-deyən xarici işlər naziri əlavə edib ki, İslamabadı hadisə ilə əlaqələndirmək cəhdi "əsassız və məsuliyyətsizdir". Bu gərginlik Cənubi Asiyada və ona bitişik regionlarda, o cümlədən Cənubi Qafqazda da strateji təsirlərə malikdir. Azərbaycan isə bu iki dövlətlə fərqli istiqamətlərdə əməkdaşlıq qurmağa çalışan və praqmatik siyasət yürüdən bir aktor kimi çıxış edir.

Hindistan iddia edir ki, Pakistan təhlükəsizlik qüvvələrinin Kəşmirə hücumda iştirakına dair "təkzibedilməz dəlilləri" var. İslamabad isə bu ittihamı qəti şəkildə rədd edir və hadisənin araşdırılmasına beynəlxalq ekspertlərin də cəlb olunmasına çağırır. Pakistanın strateji müttəfiqi Çin də İslamabadın bu tələbini dəstəkləyir. Amma Hindistan Pakistanın müdafiə naziri Xavaca Məhəmməd Asifin "əgər genişmiqyaslı hücum və ya buna bənzər bir şey olarsa, bunun ardınca mütləq genişmiqyaslı müharibənin gələcək" xəbərdarlığına baxmayaraq, vəziyyəti daha da gərginləşmək əzmini nümayiş etdirir. Pakistan Milli Təhlükəsizlik Şurasının bəyanatında Hindistanın hərəkətlərini "birtərəfli, ədalətsiz, siyasi motivli, yüksək məsuliyyətsiz və hüquqi dəyərdən məhrum" adlandırılıb: "Hindistanın iddialarının əksinə olaraq, Pakistan İslam Respublikasında Hindistan tərəfindən dəstəklənən terrorizmə dair təkzibedilməz sübutlara malikdir".

Pakistan Senatı da (parlamentin yuxarı palatası) Hindistanın hərəkətlərini kəskin şəkildə pisləyən qətnamə qəbul edib. Qətnamədə deyilir ki, Pakistan terror hadisəsini əsassız olaraq Pahalqam şəhərindəki hücumla əlaqələndirmək cəhdini qəbul etmir. Bununla bağlı Pakistan günahkarların müəyyən edilməsi üçün müstəqil beynəlxalq araşdırma aparmağı təklif edir. Ölkənin müdafiə naziri Xavaca Məhəmməd Asif də "RİA Novosti"yə müsahibəsində deyib ki, danışıqların və ya boş bəyanatların heç bir təsiri yoxdur: "Pakistanın iştirakına və ya bu insanların Pakistan tərəfindən dəstəklənməsinə dair hansısa sübutlar olmalıdır". O, Şanxay Əməkdaşlıq Təşkilatının tərəfdaşları olan Moskva və Pekini nüfuzlu arbitr kimi cəlb etməyə çağırıb: "Rusiya və ya Çin və hətta Qərb ölkələri bu böhranda çox müsbət rol oynaya bilər və Hindistan və ya Modinin yalan və ya həqiqəti söylədiyini araşdırmaq üçün istintaq qrupu yarada bilər".

Əlbəttə, qarşılıqlı ittihamlar, diplomatların geri çağırılması və ikitərəfli əməkdaşlığın bəzi formalarının dayandırılması gərginliyi durmadan artırır. Kəşmir ilə de-fakto sərhəddə atışma və hərbi toqquşmalar qeydə alınır. Xüsusilə Hindistanın Hind Suları Müqaviləsində iştirakını dayandırdığını elan etməsi isə Pakistanın kəskin reaksiyasına səbəb olub və İslamabad bu addımı müharibə elanı kimi qiymətləndirir. Hindistanın sudan silah, terror kimi istifadə etməsi Pakistana açıq hücumdan deməkdir. Mütəxəssislərin sözlərinə görə, Hindistan hökumətinin bu məntiqsiz və çox məsuliyyətsiz addımı çox təhlükəli nəticə verə bilər.

Təbii ki, bütün bunlar Hindistanın Cammu və Kəşmirin xüsusi statusunu ləğv etdiyi 2019-cu ildən bəri ölkələr arasında mövcud olan "soyuq sülhü" təhlükə altına alır. O vaxtdan bəri ikitərəfli münasibətlər substantiv dialoqun olmaması və məhdud təmaslar ilə xarakterizə olunan minimum səviyyədə idi. Əslində, iki ölkə dialoqunda yaranmış bu acınacaqlı vəziyyətin səbəbi Yeni Delhinin yürütdüyü siyasətdir. Hindistan işğal altında olan Cammu və Kəşmirdə kəşmirlilərin azadlıq mübarizəsini yatırmaqda acizliyinə görə Pakistanı günahlandırması yeni hal deyil. Heni Delhi uzun müddətdir ki, daxili siyasi və təhlükəsizlik uğursuzluqlarını gizlətmək və Cammu və Kəşmirin işğal olunmuş ərazilərində qəddarlıq və terrordan istifadə edib. Təəssüf ki, bu təhlükəli siyasət islamafobiyanı təbliğ etmək üçün də istifadə olunur.

Hindistanın iddialarına baxmayaraq, Pakistan iyirmi ildən artıqdır ki, terrora qarşı mübarizədə ön sıralarda yer alıb. 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-ın əsas müttəfiqinə çevrilən İslamabad mürəkkəb regionda terrorla mücadilə aparmaqla yanaşı, terror qurbanına da çevrilib. Təkcə 2010-cu illərin əvvəllərində Pakistanda hər il təqribən 3-4 min nəfər insan terror hadisələrində həyatını itirib. Məsələn, 2014-cü ildə terrorçular Peşəvər məktəbinə hücum edərək, 150-dən çox məktəblini qətlə yetirmişdilər. Hərbi qulluqçulara və polisə qarşı silahlı hücumlar da geniş yayılıb. Yəni sadə vətəndaşlar, əsgərlər, jurnalistlər, müəllimlər - cəmiyyətin müxtəlif təbəqələri terrorizmin hədəfinə çevriliblər. Bu baxımdan, Pakistan terrordan ən çox əziyyət çəkən ölkələrdən biri kimi qiymətləndirilir.

Pakistan həm də beynəlxalq münasibətlərdə ədalətli yanaşmanın tərəfdarı olduğunu da təsdiqləyən əməli addımlar atması ilə tanınır. Məsələn, Pakistan Qarabağ münaqişəsinin həllində hər zaman dövlətlərin ərazi bütövlüyünün qorunmasının vacibliyini vurğulayıb. Ermənistan ilə diplomatik əlaqələr qurmayan yeganə ölkə kimi Pakistan Azərbaycanın Bakıya xüsusi siyasi dəstək kimi qiymətləndirilir. Dostluğa, qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan Pakistan–Azərbaycan münasibətləri ortaq dini və mədəni kimlik, geosiyasi maraqların uyğunluğu və regional təhlükəsizlik məsələlərində koordinasiya prinsipləri əsasında formalaşıb. Bu münasibətlər təkcə dostluq ritorikasından ibarət deyil, həm də strateji praqmatizm üzərində qurulub. Regional geosiyasi dəyişikliklər fonunda bu tərəfdaşlığın dərinləşdirilməsi hər iki ölkənin maraqlarına uyğundur və asimmetrik regional güc balansında qarşılıqlı mövqe gücləndirici rol oynayır.

Əlbəttə, Pakistan–Azərbaycan münasibətləri yalnız dostluğa deyil, geosiyasi rasionallığa və ortaq strateji maraqlara əsaslanır. Buna görə görə, Hindistan-Pakistan münasibətlərində gərginliyin daha da artması Azərbaycanın da maraqlarına uyğun deyil. Həm Hindistan, həm də Pakistan nüvə gücləridir. Onların arasında istənilən böyük hərbi münaqişə nüvə həddinə qədər eskalasiya riski daşıyır, bunun nəticələri təkcə iki ölkə üçün deyil, bütün region və hətta dünya üçün fəlakətli olardı. Nüvə silahlarının məhdud istifadəsi belə "nüvə qışı"na və qlobal iqlim dəyişikliyinə səbəb ola bilər. Buna görə də, bu münaqişənin təhlükəli ölçüdə inkişaf etməməsi beynəlxalq ictimaiyyətin kritik çağırışlardan birinı çevrilib.

Rəsmi Bakı, ümumiyyətlə, beynəlxalq mübahisələrin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmasının tərəfdarıdır. Hindistan və Pakistan arasındakı gərginliklə bağlı Azərbaycan adətən tərəfləri təmkinli olmağa, gərginliyi azaltmağa və dialoqu bərpa etməyə çağırır. Bu baxımdan deyə bilərik ki, Azərbaycanın Hindistan-Pakistan gərginliyi kontekstindəki mövqeyi rəsmi səviyyədə sülh, dialoq və beynəlxalq hüquqa əsaslanan həll çağırışlarından ibarətdir. Bu, ölkənin ümumi xarici siyasət kursuna və regionda sabitlik maraqlarına uyğundur. Rəsmi Bakı üçün məqsəd milli maraqları və regional sabitliyi qorumaqla, hər iki güc mərkəzi ilə əlaqələri optimal səviyyədə saxlamaqdır. Bu yanaşma Azərbaycanın çoxvektorlu xarici siyasət doktrinasına uyğun gəlir və onun müstəqil diplomatik manevr imkanlarını genişləndirir.

Bununla belə, Azərbaycanın Pakistanla münasibətləri kifayət qədər dərin və çoxşaxəlidir. İki ölkə arasında ideoloji yaxınlıq – İslam həmrəyliyi, Qarabağ məsələsində prinsipial dəstək və müdafiə sahəsində əməkdaşlıq bu münasibətləri strateji müstəviyə çıxarıb. Bu mövqe yalnız ikitərəfli deyil, həm də regional sabitlik üçün mühüm töhfədir. Rəsmi Bakı əmindir ki, Hindistan və Pakistan arasındakı münasibətlərdə xroniki gərginlik və vaxtaşırı alovlanma regionda qeyri-sabitlik və inamsızlıq mühiti yaradır ki, bu da sülhpərvər siyasət yürüdən ölkələrin milli maraqlarına ziddiyyət təşkil edir. Pakistan heç vaxt Hindistanı aqressiv mövqe və hərəkətləri ilə təhdid etməyib və Yeni Delhinin təhdidlərindən əl çəkməsi iki ölkə arasındakı gərginliyin azalmasına gətirib çıxara bilər. Dünya ictimaiyyəti də Hindistandan məhz belə addım atmasını gözləyir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

qeyd olunan kafedralar üzrə vakant professor-müəllim vəzifələrini tutmaq üçün

MÜSABİQƏ ELAN EDİR

– Azərbaycan tarixi kafedrası;
– Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası kafedrası;
– fəlsəfə və sosial elmlər kafedrası;
– ümumi pedaqogika kafedrası;
– xarici dillər mərkəzi (ingilis, rus və fransız dilləri üzrə);
– riyaziyyat və onun tədrisi texnologiyası kafedrası;
– kompüter elmləri kafedrası;
– cəbr və həndəsə kafedrası;
– məktəbəqədər təhsilin pedaqogikası kafedrası;
– pedaqoji psixologiya kafedrası;
– ümumi psixologiya kafedrası;
– xüsusi təhsil kafedrası;
– ibtidai təhsilin pedaqogikası kafedrası;
– riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrası;
– fizikanın tədrisi texnologiyası kafedrası;
– əməyin texnologiyası kafedrası;
– musiqi və onun tədrisi texnologiyası kafedrası;
– təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrası;
– fiziki tərbiyə və çağrışaqədər hazırlığın tədrisi texnologiyası kafedrası;
– təhsil menecmenti kafedrası;
– STEAM mərkəzi.

Müsabiqədə elmi-pedaqoji və ya istehsalat təcrübəsinə, müvafiq elmi ad və dərəcələrə malik olan şəxslər iştirak edə bilərlər. Müraciət edən namizədlərdən aşağıdakılar tələb olunur:
– kompüterdən (office proqramları – word, excel, power point, microsoft teams və s.) istifadə bacarığı;
– tədrisin onlayn formada təşkili üzrə bacarıqlar;
– azərbaycan, rus və ingilis dillərində tədris bacarığı;
– yüksək peşə-ixtisas və mənəvi keyfiyyətlər.

Sənədlər bu elan qəzetdə və www.adpu.edu.az saytında dərc olunan gündən başlayaraq 30 gün müddətində saat 9.00-dan 17.00-a qədər ADPU-nun insan resursları və kargüzarlıq şöbəsində qəbul edilir.
Əlaqə telefonu- (012) 498-08-16
Ünvan- AZ-1000 Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 68.
E-poçt: insan.resurslari@adpu.edu.az
www.adpu.edu.az

***Rek ɒ luq***



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Rəssamlıq Akademiyası Publik Hüquqi Şəxs**

**Memarlıq və dizayn fakültəsində vakant dekan vəzifəsini tutmaq üçün müsabiqə elan edir**

Müsabiqədə istirak etmək istəyən namizədlər elan dərc olunduqdan sonra 1 ay müddətində aşağıdakı sənədləri təqdim etməlidirlər.
1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Qeyd: Müsabiqə elan olunan müəssisədə çalışan şəxslər ərizə ilə birlikdə yalnız 4-cü və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər.
Ünvan – Bakı şəhəri, H.Əliyev prospekti, 58.



**"Salyan – Taxıl"ASC səhmdarlarının nəzərinə!**

"Salyan – Taxıl" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 21 iyun 2025-ci il saat 11.00-da keçiriləcəkdir.
Gündəlikdəki məsələlər :
1. Ümumi yığıncağın gündəliyinin təsdiq edilməsi.
2. Cəmiyyətin 2024-cü il üçün illik hesabatının təsdiq edilməsi.
3. Cari məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə Salyan şəhəri, 20 yanvar küçəsindəki inzibati binada iş günləri saat 11.00-dan 16.00-dək tanış ola bilərlər.
Əlaqə telefonu – Mobil : + (994) 50 327 9077.
Ünvan – Salyan şəhəri, 20 yanvar küçəsi.

***İdarə heyəti***



**"Sumqayıt – Çörək" ATSC səhmdarlarının nəzərinə!**

25 iyun 2025-ci il saat 11.00-da "Sumqayıt – Çörək" ATSC səhmdarlarının cəmiyyətin iclas zalında növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.
Yığıncağın gündəliyi:
1. "Sumqayıt – Çörək" ATSC-nin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.
2. Maliyyə-təftiş komissiyasının hesabatı və nəticələrinin təsdiqi.
3. İdarə heyəti və müşahidə şurası üzvlərinin seçilməsi.
4. İdarə heyəti sədrinin seçilməsi.
5. "Sumqayıt – Çörək" ATSC-nin adının və təşkilatı hüquqi formasının dəyişməsi.
6. Mənfəətin bölüşdürülməsi və əldə olunmuş xalis mənfəətdən istifadənin təyin edilib təsdiqlənməsi.
Ünvan – Sumqayıt şəhəri, Lermontov küçəsi 13.


# Süni intellekt hələlik insanın dostudur...

**Süni intellekt bəşər övladının həyat və məişətinə sürətlə daxil olur. Yeni, innovativ texnologiyalar təkcə elm və istehsalatda deyil, həyatın digər sahələrində geniş tətbiq olunur. Hər bir yenilik, əlbəttə, birmənalı qarşılanmır, bəzən haqlı-haqsız etirazlara da səbəb olur.**



Sözümüzün canı budur ki, süni intellektin inkişafı özü ilə bərabər, bir çox sosial problemləri də ortaya çıxarır. Məsələn, ayrı-ayrı ölkələrdə robotların istifadə dairəsi genişləndikcə, bir sıra ənənəvi peşələrə ehtiyac azalır. Ona görə ki, "avtomat işçilər" artıq bir çox prosesləri həm sürətlə, həm də daha az məsrəflə icra edə bilir.

Amerikanın məşhur "Forbes" jurnalının yazdığına görə, yaxın 5 il ərzində süni intellektə görə planetimizdə nə az, nə çox, düz 300 milyon insan işsiz qala bilər. Bunun səbəbi aydındır: 2030-cu ilədək dünyanın əmək bazarının 25 faizi avtomatlaşdırılacaq.

ABŞ-ın maliyyə naziri Skott Bessentın proqnozuna görə, süni intellekt Birləşmiş Ştatların əmək bazarında rəqabətliyi yüksəldəcək. Ehtimal olunur ki, 2040-cı ilə qədər iş yerlərinin 50-60 faizi avtomatlaşdırılacaq, 2050-ci ildə süni intellekt əmək bazarında tam dominant (80 faiz) mövqe tutacaq.

Ekspertlər, eyni zamanda, hesablayıblar ki, süni intellekt heç də hər yerdə insan əməyini tamamilə əvəz etməyə qadir deyil. Məsələn, güman olunur ki, avtomat maşınlar uzun illərdir yüksək əmək tutumlu peşələr sayılan inşaatçılar, qaynaqçılar, eləcə də xidmət sahəsində çalışanların iş yerlərinin itirmələrinə gətirib çıxaracaq.

Hesablanıb ki, süni intellekt yaxın illər ərzində tibb sahəsindəki ofis işçilərinin 25 faizini əvəz edəcək. Bununla yanaşı, etiraf edək ki, heç bir robotun pasiyentlərə həkimlər qədər ürəyi yanmaz. Axı, fədakar həkimlərin bəzən bir kəlmə təsəllisi, ümidverici sözü yüz həbdən üstün olur!

Bəs təhsil sahəsində vəziyyət necə olacaq? Bu, bir həqiqətdir ki, heç bir robot şagirdi öz övladı qədər sevən, onun mükəmməl təhsil alması üçün can yandıran pedaqoqları əvəz edə bilməz. Bəli, təhsil robotlar üçün "alınmaz qala"ya çevrilə bilər. Hər halda hesablamalara görə, 2040-cı ilə qədər dünyada təhsil sahəsində iş yerlərinin yalnız 10 faizi avtomatlaşdırıla bilər.

Dünyanın çox yerində insanlar süni intellektin geniş tətbiqinin onların iş yerlərini əllərindən ala biləcəyinin fərqindədirlər. ABŞ-dakı "Pew Research" sosial tədqiqatlar mərkəzinin keçirdiyi son sorğulara əsasən, hətta bu super dövlətin vətəndaşlarının 52 faizi iş yerlərinin robotlarla əvəz olunacağı perspektivindən narahat olmağa başlayıblar.

Elə sahələr var ki, orada robotlardan istifadə zəruridir. Məsələn, süni intellektin kəşfiyyatçıların yerinə düşmən arxasında məlumat toplayıb dəqiqi təhlil etməsinin nə ziyanı ola bilər? Müəyyən olunub ki, "kəşfiyyatçı robotlar" düşmənin davranışındakı nümunələri ən qısa zaman kəsiyində müəyyənləşdirə və adekvat addımlar ata bilir.

Süni intellektin faydaları çoxdur, gələcəkdə lap çox olacaq. Onların həyatın bir çox sahələrində yaxın köməkçilərimizə çevrilməsinin şahidi oluruq. Ticarət sahəsində "avtomat işçilər" müştəri məlumatlarını təhlil edə, zəng və SMS göndərə, məsləhət verə və satış edə bilir. Məlumdur ki, "chatbot"lar artıq çoxsaylı müştəri suallarını cavablandıra bilir.

Bir çox mətbu nəşrlər süni intellektin "qələm"indən çıxan xəbər, şərh və məqalələri öz səhifələrində dərc edir. Axı, "robot jurnalistlər" sifariş olunan mətni tərtib, redaktə və hətta tərcümə edə bilir. Fəxrlə deyə bilərik ki, "Xalq qəzeti" olaraq redaksiyamız bir çox mətnlərin emalı və redaktəsi ilə bağlı süni intellektin xidmətlərindən dəfələrlə istifadə edib. Düzdür, bu yazılar oxucuya təqdim edilməzdən əvvəl, qəzetin təcrübəli əməkdaşlarının qayğısı ilə süslənib.

Bu yaxınlarda jurnalistlər "Microsoft"un qurucusu Bill Qeytsdən süni intellektin hansı peşələri tam əvəz edə bilməyəcəyini soruşublar. Onun cavabı belə olub: Bunlar proqram tərtibatçılığı, bioloq və enerji mütəxəssisliyi peşələridir. İzah edib ki, bu sahələr hələ də insan təcrübəsi və müdaxiləsi tələb edəcək.

Sonda bir məqamı da vurğulamaq istərdik. Bu yaxınlarda tanınmış bəstəkar Cavanşir Quliyev televiziya müsahibələrinin birində süni intellektdən söz düşəndə dedi ki, tezliklə robotlar orta və yaxşı səviyyədə musiqilər bəstələyəcək. Hörmətli bəstəkarımıza etiraz etməyə haqqımız yoxdur. Amma heç bir süni intellekt C.Quliyevin "Əsgər marşı"nı yarada bilməz!

***M.HACIXANLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 88 (30782) 2 may 2025-ci il, cümə

## İdman

### Bakıda bədii gimnastika turniri




**Bakıda, Milli Gimnastika Arenasında bədii gimnastika üzrə Avropa Kuboku turniri başlayıb.**

Yarışın ilk günündə fərdi çıxışlar olub. İdmançılar təsnifat mərhələsində halqa və topla bacarıqlarını nümayiş etdiriblər. Ölkəmizi fərdi yarışlarda Gövhər İbrahimova ilə Zöhrə Cəfərova təmsil edir.

Mayın 4-dək davam edəcək turnirdə 25 ölkədən 175 gimnast medal uğrunda mübarizə aparır.

### Qız güləşçilərimiz Zəfər kubokunda



**Bu gün Türkiyənin Antalya şəhərində güləş üzrə Zəfər kubokuna start veriləcək.**

U17 yaş qrupu üzrə keçiriləcək ənənəvi yarışda qızlardan ibarət komandamız mübarizə aparacaq. Üç gün davam edəcək turnirdə böyük məşqçilər Rövşən Umudovla Həsrət Məmmədyarovun rəhbərliyi altında 9 güləşçi – Günel Quliyeva (40 kq), Nəzrin Əhmədli (46 kq), Xədicə Qurbanzadə (49 kq), Fatimə Bayramova, Xədicəxanım Talıbova (hər ikisi 53 kq), Ülviyyə Musayeva (57 kq), Esra Məmmədli (61 kq), Fidan Babayeva (65 kq) və Milana Bağırzadə (69 kq) uğur qazanmağa çalışacaqlar.

Zəfər kubokunda III dərəcəli beynəlxalq hakim Elxan Həmidzadə ədaləti qoruyacaq.

### Avarçəkmə komandamızın medalları artır



**Azərbaycan avarçəkənləri "Prezident Kuboku-2025" beynəlxalq reqatasının 2-ci günündə komandamızın hesabına növbəti medalları yazdırıblar.**

Mingəçevir "Kür" Olimpiya Tədris-İdman Mərkəzində keçirilən yarışda birnəfərlik kayak qayığında (K-1) 500 metrlik məsafə üzrə təmsilçilərimizdən Əlimurad Hacızadə (2009-2010-cu illər təvəllüdlü) gümüş, Mustafa Vəlizadə (13-14 yaş) bürünc medal qazanıblar. 500 metrlik məsafəyə ikinəfərlik kayak qayığında (K-2) 2011-2012-ci il təvəllüdlü idmançıların yarışında isə Mustafa Vəlizadə – Elmir Tarverdiyev cütlüyü gümüş, Sənan Cəfərzadə – Tahir Mövsümov cütlüyü bürünc medala sahib çıxıb.

Nurlan Paşayev (2006–2007) isə akademik avarçəkmədə gümüş medala sahib çıxıb.

Xatırladaq ki, Suqovuşan su anbarında təşkil edilən turnirin ilk günündə komandamız 2 bürünc medal qazanıb.

*L.QURBANOVA*
*XQ*

## TƏBİƏT – İLHAM MƏNBƏYİMİZ

# Bir dəstə bənövşə



**Yaz özünəməxsus füsunkarlığı ilə ruhu oxşayır. Təbiətin səxavəti könül açır. İlk baharda yerdə çiçəyi-gülü və suların səsini, göydə durnaların dəstini sevirəm. Tanrı hər şeyi gözəl yaradıb, ay gözü göyçək! Məni özünə məftun eliyən yaz qəlbimi təbiətlə ünsiyyətə necə gözəl səsləyir, sən ki bilirsən.**

Hansı gül öz vədəsindən tez açılır ki? Bənövşələr də öz vədəsində yaz yağışında sığallana-sığallana ətrini yayır. Təbiətin tərlan yazı gələndə bənövşələr kol dibindən boylanır. Çöllərimizin yaz bəzəyi, ellərimizin göz bəbəyi, şeirimizin söz düzəyi bənövşə elə ürkək, elə kövrək olur ki... Hara baxırsan, yazda könül açan mənzərə görürsən.

Ömürdən ötən illər yazdan-yaza dəyişsə də, təbiətin yaz çətiri gözlərimə köçür. Axır qismət oldu, bu yaz yenə bənövşənin qönçəsi ilə göz-gözə qaldım. Bu yaz könlümün güzarı yenə büllur bulaqlardan düşdü. Duyğularıma durnagözlü bulaqların zümzüməsi sızdı. Bulaqların bənövşəyi sularından qız bənövşənin ətri gəldi. Ruhum saz üstə güllləndi, könlüm şeir havasında dilləndi. Dönüb-dönüb bənövşə soraqlı şeirlər oxudum. Cilvəli misralar, duyumlu sözlər könlümdə körpəlikdən yuva qurub. Dirili Qurbani sözlə bənövşənin şəklini elə çəkib ki...

Ustadın bənövşə eşqinin ləngərinə, sözünün səngərinə bir bax:

*"...Ayrılıqmı çəkib boynu əyridi,*
*Heç yerdə görmədim düz bənövşəni"*

Dədə Qurbaninin "Bənövşə"sindən sonra mən hansı hünərlə bənövşəyə sevgimi şeirin diliylə deyirəm, bilmirəm?! Amma ürəyimi həzrəti söz elə gözəl dilləndirir ki... Bənövşə boynubükük camalını kol dibindən göstərib könlümü sözə tutur. Düşüncəli duyğuları diksindirən sözlər beləcə sıralanır. Söz bəhrində inci təzə, inci tər...

Qələm götürüb, bənövşə sevdalı könül dəftərimə bu qoşmanı yazdım:

*Vurulduğum çiçəyimsən, gülümsən,*
*Nədən belə qəmlənmisən, gülümsə...*
*Bənövşətək bəndə düşmək zülümsə,*
*Qoy düşüm yerinə, bəndə, bənövşə.*

*Dünyanın çiçəkli çölləri çoxdu,*
*Dünyanın ətirli gülləri çoxdu,*
*Sənin ətrin kimi ətir ki, yoxdu,*
*Doymaram ətrindən mən də, bənövşə.*

*Ayrıldın çiçəklər, güllər içindən,*
*Gizləndin tikanlı kollar içində.*
*Boynunu bükmüsən belə biçimdə-*
*Yaman təklənmisən gendə, bənövşə.*

*Xarlanıb kol dibində indi qar,*
*Çəkəcəyəm həsrətindən intizar.*
*Boylanarsan yetişincə ilk bahar,*
*Yenə görüşərik yenə, bənövşə.*

Bu şeir bənövşə ətirli könlümdən keçdi. Bir qom bənövşə kimi sizlərə ərmağan etdim. Bənövşə ətirli, bənövşə xətirli olasınız, əziz oxucular. Hər bənövşənin öz rişəsi, hər könlün öz bənövşəsi var. Hər kəsin bənövşə ovqatı özünə bəllidir. Mənim bənövşə sovqatım da ömrümün payızında özümə bir təsəllidir. İnsan pünhanda qalanda fikirlərə qərq olur. Yazdım ki, ürəyimin bir qom bənövşə yükündən azad olum...

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

## TƏQDİMAT

# "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru"



**Azərbaycan Dillər Universitetində Bakı Şəhər İcra Hakimiyyəti və ali məktəbin təşkilatçılığı ilə "Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru" kitabının fransız və urdu dillərində nəşrlərinin təqdimatı keçirildi. Toplantıda BŞİH-nin məsul əməkdaşları, universitetin müəllim və tələbə heyəti və qonaqlar iştirak edirdilər.**

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla bildirdi ki, bu günə qədər ölkəmizdə Vətən müharibəsindən və möhtəşəm qələbəmizdən bəhs edən kitablar, salnamələr yazılıb, filmlər çəkilib. Bakı Şəhər İcra Hakimiyyəti və Tarix İnstitutunun birgə layihəsi olan bu kitab artıq on dildə çap edilmişdir.

Sonra universitetin fransız dili leksikologiyası və üslubiyyatı kafedrasının müdiri Gülnarə Sadıxova, Pakistan dili və mədəniyyət mərkəzinin rəhbəri Athar Mahmood və başqa qonaqlar kitabın dünya ictimaiyyətinə çatdırılması üçün bir çox dillərdə çap edilməsinin əhəmiyyətindən danışdılar.



Baş müəllim Kəmalə Kərimova və tələbələr video-slaydlarla kitabı ətraflı şərh edərək oxuculara təqdim etdilər.

*Fidan SALMANOVA*
*XQ*

## SAĞLAMLIQ

**Yüksək qan təzyiqi bu gün ən çox yayılmış xroniki sağlamlıq problemlərindən biridir. Həyat tərzi, qidalanma və streslə birbaşa əlaqəli olan bu narahatlıq infarkt və insult kimi ciddi xəstəliklərə səbəb olur.**

# Təzyiqə dərman – gündə 1 banan...



Mütəxəssislərin fikrincə, bananın tərkibindəki yüksək kalium qan təzyiqini tarazlaşdırmağa kömək edir. Kalium bədəndəki natrium balansını tənzimləyir, damarların genişlənməsinə və qan təzyiqinin normal səviyyədə qalmasına imkan verir. Bu, bananın hipertoniya zamanı faydalı meyvə olduğunu göstərir.

Dietoloqlar bildirirlər ki, gündə bir banan yemək kalium ehtiyacını ödəyir. Ancaq tərkibində yüksək şəkər olduğu üçün həddindən artıq yemək məsləhət deyil. Xüsusilə şəkərli diabet xəstələri banan qəbul edərkən ehtiyatlı olmalıdırlar.

Banan kaliumla zəngin olsa da, yüksək təzyiqi tam endirmir. Duz miqdarının azaldılması, müntəzəm məşq, su qəbulu və dərman müalicəsi də vacibdir.

Gündə bir orta ölçülü banan yemək kifayətdir. Yetişmiş banan şirin olduğundan az yeyilməlidir.

Sidikqovucu dərman qəbul edən xəstə kalium preparatları ilə bağlı həkimə müraciət etməlidir. Banan qan təzyiqi xəstəsi üçün sağlam pəhrizin bir hissəsi kimi təbii əlavə ola bilər. Ancaq hər bir fərdin sağlamlığı fərqli olduğundan, pəhrizdə dəyişiklik etməzdən əvvəl mütəxəssislə məsləhətləşmək lazımdır.

*Z.HÜSEYNLİ*
*XQ*

## HAVA

# Aranda yağmursuz, dağlarda yağış...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 2-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, gündüz yarımadanın bəzi yerlərində arabir güclənəcək. Gecə 11-14°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 757 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq.



Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə, axşam isə bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 18-23°, dağlarda gecə 3-7°, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin aparat rəhbəri Fuad Quliyevə anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi iş yoldaşları Lalə Rüstəmovaya anası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3422
SİFARİŞ 877
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00